**AZƏRABAYCAN RESPUBLİKASITƏHSİL NAZİRLİYİ**
**XƏZƏR UNİVERSİTETİ**

**Fakültə:** İqtisadiyyat və menecment
**Departament:** Biznesin təşkili və idarə edilməsi
**İxtisas:** (turizm və otelçilik üzrə)

# MAGİSTR TEZİSİ

**Mövzu:** "Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm potensialı və sosial-iqtisadi inkişaf perspektivləri"

**Magistrant:** Günel Mehdizadə Müşfiq qızı
**Elmi rəhbər:** Bahadur Baysal

**İyun - 2022**

# XÜLASƏ

**Günel Mehdizadə Müşfiq qızı**

"Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm potensialı və sosial-iqtisadi inkişaf perspektivləri mövzusunda"

mövzusunda

**Mövzunun aktuallığı-** 28 ildən çoxdur ki, Azərbaycan Respublikasının doğma torpaqları ermənilər tərəfindən işğal edilmişdir. doğma torpaqları erməni təcəvüzkarlarının işğalı altında idi. 44 günlük müharibənin uğurlu zəfəri nəticəsində, Azərbaycan Respublikasının güclü ordusu işğaldan azad etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə müharibədən sonra çiçəklənmə dövrü üçün yenidənqurma işlərinə başlanıldı. Yenidənqurma işləri aparılarkən əsas məqsədlərdən biri məhz turizmin inkişafı üçün çalışmaq, o cümlədən sosial-iqtisadi duruma yaxşı təsir etmək olmuşdur. 2020-ci ildən etibarən Qarabağ və Şərqi Zəngəzurda turizmin inkişafına xüsusi diqqət verilmişdir. Müharibədən dərhal sonra bərpa işləri aparılan zaman başlıca məqsəd daxili turizmin inkişafı və o cümlədən xarici turizmin formalaşması üçün lazımi tədbirlər görülməsidir. Çünki bu torpaqları ziyarət etmək həm ölkə vətəndaşlarının, həm də xarici turistlərin marağındadır.
niyyətindədir.

**Problemin işlənmə dərəcəsi-** Təbii ki, aktual mövzu olduğuna görə problemin işlənmə dərəcəsi yüksəkdir. Hal-hazırda bir çox universitetlərin, o cümlədən bununla yanaşı şirkətlərin başlıca məqsədləri yeni layihələr hazırlamaq və Qarabağda yenidənqurma işləri üçün təkliflər və öz növbəsində fikirlər irəli sürməkdir. Bu halda qeyd etmək lazımdır ki, turizmin inkişafını təmin etmək və sosial-iqtisadi duruma təsiri araşdırılır. Ərazinin keçmişi, indiki vəziyyəti və gələcəkdə necə olacağına dair araşdırmalar aparılır. Bunların hər biri dəyərli işlərdir, çünki 30 il işğal altında olan torpaqların işğaldan əvvəl necə olması maraq dairəsindədir.

**Tədqiqatın məqsəd və vəzifələri-** Tədqiqatın əsas məqsədi turizmin inkişafının sosial-iqtisadi duruma təsirini araşdırmaqdır. Mövzu olduqca çoxşaxəlidir, burada sosial-iqtisadi durumun daxilində məşğulluq, ÜDM, işsizlik, əhalinin sosial vəziyyəvi, ərazinin coğrafi yerləşməsi, ekoloji vəziyyəti və s daxildir. Həmçinin turizmin inkişafına təsir edən digər amillər buraya daxildir. Bunun üçün ilk olaraq turizmin inkişaf yollarını araşdırılmalıdır. Turizmin inkişafının sosial duruma və həmçinin iqtisadiyyata hansı səviyyədə təsir etdiyini araşdırmaq əsas məqsəddir. Bunun üçün sözügedən ərazinin relyefi, geostrukturu, tarixi-mədəniyyəti və bu kimi bir çox nüansları araşdırılmalıdır. Həmçinin ərazinin turizm potensialını ətraflı şəkildə təhlil etmək başlıca məqsədlərdəndir.

Qeyd etdiyimiz məqsəd və vəzifələrə uyğun aşağıdakı müddəalar formalaşır.

- ✓ Azərbaycanda turizm sektorunun inkişaf istiqamətləri və Azərbaycanda turizm destinasiyalarının potensialının qiymətləndirilməsi;
- ✓ Azərbaycanda turizmin xüsusiyyətləri və inkişaf səviyyəsi;
- ✓ Qarabağ və Şərqi Zəngəzurda turizmin formalaşmasının nəzəri əsasları;
- ✓ Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin yaranma tarixi və inkişaf mərhələlərinin sistemləşdirilməsi;
- ✓ Regionda turizmin inkişafı üçün istifadə edilən metod və üsullarının dövlətin maliyyə siyasətinin həyata keçirilməsinə təsiri və bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi;
- ✓ Regionda turizm fəaliyyətindən səmərəli istifadənin əsas istiqamətlərini təhlil edilməsi;
- ✓ Qarabağ və Şərqi Zəngəzurda turizmin xarakteristikası və funksiyalarının öyrənilməsi;
- ✓ Ərazinin turizm potensialını qiymətləndirmək məqsədi ilə SWOT təhlilinin aparılması;
- ✓ Ərazinin turizm potensialını qiymətləndirmək məqsədi ilə PEST analizinin aparılması;
- ✓ Regionda turizmin inkişafını təmin etmək.

**Tədqiqatın obyekti-** Tədqiqatın obyekti işğaldan azad edilmiş torpaqlar – yəni Qarabağ ərazisidir) Yəni Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin inkişafının sosial-iqtisadi duruma təsiri araşdırılır. Qarabağ iqtisadi rayonuna Şuşa, Tərtər, Ağcabədi, Ağdam, Füzuli, Xocavənd, Bərdə inzibati rayonları və Xankəndi şəhəri daxildir. Həmçinin Zəngəzur iqtisadi rayonu isə Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarını əhatə edir.

**Tədqiqat metodları-** Tədqiqat metodu olaraq statistik məlumatların analizindən istisadə edilib. Bununla yanaşı SWOT və PEST təhlilləri aparılmışdır.

**Müdafiəyə təqdim edilən əsas müddəalar**. Qarabağ və Şərqi Zəngəzur İqtisadi Rayonunun sosial-iqtisadi potensialının təsviri və təhlili, həmçinin turizmin inkişafının tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi qarşıya qoyulan əsas məqsədlərdən biridir. Bununla yanaşı Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişaf perspektivlərini araşdırırıq.

**Tədqiqatın predmenti-** Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm potensialı və sosial-iqtisadi inkişaf perspektivləri mövzusunda tədqiqat apararkən konkret olaraq bir nüansı əsas götürmək düzgün olmaz. Mövzu olduqca genişdir, o cümlədən bir neçə fərqli tərəfləri birləşdirir. Tədqiqatın predimeti dedikdə, tədqiqaçının əsas fokuslandığı sahə regionun turizm potensialını araşdırmaq, inkişafını təmin etmək və bunun üçün lazım olan

məsələləri ortaya çıxarmaqdır. Həmçinin digər tərəfdən sözügedən ərazidə turizmi inkişaf etdirdikdən sonra, nəticədə əldə edilmiş potensialın ölkə iqtisadiyyatına, başqa sözlə sosial-iqtisadi duruma təsirini tədqiq edirik.

**Dissertasiya işində aşağıdakı nəticələrə gəlinmişdir-** Qarabağ və Şərqi Zəngəzur tarixi ərazilərdən biri olduğuna görə və həmçinin digər potensiallara malik olduğuna görə orada turizmin inkişaf potensialı olduqca yüksəkdir. Digər tərəfdən 30 illik işğal altında qalan torpaqlarımıza dəymiş ziyanla yanaşı, xarici vətəndaşların diqqətini çəkməsi də göz önündədir. İşğaldan əvvəlki vəziyyət və işğaldan sonrakı vəziyyəti görmək və gəzmək hərkəsin maraq dairəsindədir. Qarabağ və Şərqi Zəngəzurun turizm potensialına malik olmasını aşağıdakı müddəalara ayıra bilərik.

- 30 ilə yaxın işğal altında olması və müharibə ilə mənfur düşmandan azad edilməsi nəticəsində regionun turistlərə maraqlı olması;
- Regionun özünəməxsus arxitekturası və tarixi-mədəni mərkəz olması;
- Heyrətamiz və gözoxşayan təbiətinin olması, iqlimi, coğrafi yerləşməsi və ekologiyası;
- Çoxlu turizm növlərini inkişaf etdirmək üçün əlverişli coğrafi ərazi olması;
- Ölkə iqtisadiyyatına və uyğun olaraq əhalinin rifah səviyyəsinə müsbət təsir etməsi;

**Tədqiqat sualı.** Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm potensialının ölkənin sosial və iqtisadi durumuna təsiri necə olar?

**Tədqiqatın cavabı.** Müsbət təsir edəcəkdir. Aşağıda verilmiş müddəalara əsasən.

- ✓ Turistlərin destinasiya seçimi üçün Gap analizinin aparılması
- ✓ Sözügedən ərazidə SWOT analizinin nəticəsində ərazinin güclü tərəflərinin daha çox olması.
- ✓ PEST təhlili aparılmışdır. Politik, sosial, iqtisadi və texniki faktorların1-5 bal arası qiymətləndirilmişdir. PEST təhlilinin nəticəsində qiymətləndirmə 3 dən yuxarı bal almışdır. Bu da onu göstərir ki, siyasi, sosial, ekonomik və texniki faktorların potensialı çoxdur. Ərazidə aparılan yenidənqurma və bərpa işləri yaxşı təsir edir.
- ✓ Magistral yolların bərpası və yenilənməsi.
- ✓ Hava limanlarının yaradılması.
- ✓ Turizm sənayelərinin planlarının hazırlanması.
- ✓ Zəngəzur dəhlizinin yaradılması.
- ✓ «Ağıllı kənd layihəsi» və s.

# MÜNDƏRİCAT

**GİRİŞ** ....................................................................................................................6
**I FƏSİL. AZƏRBAYCANIN TURİZM SEKTORUNUN İNKİŞAF İSTİQAMƏTLƏRİ**

1.1 Turizmin mahiyyəti, xüsusiyyətləri, nəzəri-metodoloji əsasları ..........................12

1.2 Azərbaycanda turizm sektorunun xüsusiyyətləri, turizm ehtiyyatlarının yeri və rolu. Ölkənin sosial-iqtisadi inkişafında rolunun qiymətləndirilməsi. .................................20

1.3. Azərbaycanda turizm destinasiyalarının potensialının qiymətləndirilməsinə dair aparılmış son tədqiqatlar istifadə edilmiş metodologiya, əldə olunan nəticə............... 30

**II FƏSİL. QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAFINDA TURİZMİN ƏHƏMİYYƏTİNİN TƏSVİRİ**

2.1 Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin inkişaf tarixi və onun növləri, turizm ehtiyatları ..........................................................................................38

2.2 Qarabağ və Şərqi Zəngəzur İqtisadi Rayonlarının inkişafının turizm amili ilə qarşılıqlı əlaqəsi ...........................................................................................................41

2.3 Qarabağ və Şərqi Zəngəzur İqtisadi Rayonlarının sosial-iqtisadi potensialının təsviri və təhlili. (Regionda turizm imkanlarının təhlili və qiymətləndirilməsi) ....................43

2.4 Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizm fəaliyyətinin müasir vəziyyəti və dinamikası. Turizmin inkişafının tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi .........................................................................................................50

**III FƏSİL. QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA TURİZMİN POTENSİAL İNKİŞAFININ TƏHLİLİ**

3.1 Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişaf perspektivləri ..........................................................................................................56

3.2 Qarabağ regionun turizm sektorunun inkişafında dövlət siyasəti .........................59

3.3 Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında potensial turizm imkanları ......63

**NƏTİCƏ**...................................................................................................................68

**TƏKLİF VƏ TÖVSİYƏLƏR** ..................................................................................69

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI** ...............................................70

**ƏLAVƏLƏR**............................................................................................................73

# GİRİŞ

**Tədqiqatın predimeti**. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda turizmin rolunun sosial- iqtisadi duruma təsirini təşkil edir.

**Mövzunun əhəmiyyəti.** Hazırki dövrdə araşdırmalı, öyrənməli və o cümlədən yeni ideyalar qazanılmalı olan ən vacib mövzulardan biri də Qarabağ regionunun turizm potensialıdır. Əsas məqsəd Qarabağ və Şərqi Zəngəzurda turizmmin inkişafı nəticəsində sosial və iqtisadi duruma təsirinin araşdırılmasıdır. Azərbaycan dövlətinin güclü ordusu sayəsində geri aldıqları vətən torpağında xoşbəxt və firavan yaşamaq ən çox bizim haqqımızdır. Uzun illər işğal altında qalan torpaqlarımız dağıdılmış, ziyan vurulmuşdur və artıq yenidən oyatmaq üçün tədbirlər görmək, nələrsə etmək hər bir vətəndaşın borcudur.

Digər tərəfdən mövzunun əhəmiyyətini konkret olaraq ifadə etsək deyə bilərik ki, Qarabağ zonası turizm potensialı olduqca yüksək ərazidir və turizmin inkişafı ilə iqtisadi duruma ən çox təsir etmə potensilana malikdir. Məhz buna görə ərazinin yaxşı araşdırılması, hərtərəfli düşünülməsi, lazımı məlumatları toplamaq və o cümlədən yeni təkliflər irəli sürmək sosial-iqtisadi duruma təsir göstərmək ölkə iqtisadiyyatına, rifahına ciddi təsir göstərəcəkdir.

**Tədqiqatın yeniliyi** dedikdə Qarabağ və Şərqi Zəngəzurun yeni iqtisadi rayon kimi qəbul edilməsini demək mümkündür. 30 ilə yaxın Ermənistan işğalında olan doğma torpaqlarımız artıq bizdədir, vətənimizdəyik, doğma diyarımıza qayıtmışıq… Baxmayaraq ki, Ermənistan işğal olunmuş ərazilərdə təbiətimizə, torpaqlarımıza böyük ziyan vurub, Qarabağ yüksək turizm potensialına malikdir. Bütün bunlara rəğmən bu gün də Qarabağ bölgəsi turistlərin diqqətini çəkir. Qarabağın torpağı münbitdir və buna görə də xarici investorların diqqətini çəkir. Sözügedən sahədə aqroturizmi inkişaf etdirmək mümkündür. Torpağn münbitliyini və iqlimi nəzərə alarsaq bunu asanlıqla vurğulaya bilərik.

Qarabağ regionunda ümumi meşə massivinin təxminən sahəsi 230 min hektara yaxın olub. Lakin bu gün bildirilir ki, peyk müşahidələrinə görə meşələrin ümumi sahəsi 170 min hektardır. Yəni, göründüyü kimi 60 min hektar meşə sahəsi məhv edilib. Bununla yanaşı meşə və göllər çirkləndirilib, gözəl diyarımızın təbiətinə ziyan vurulub. Bununla əlaqədar olaraq dövlətimiz lazımı yerlərə, beynəlxalq təşkilatlara artıq müraciət edib.

Bununla yanaşı, ermənilər işğal altında olan zaman torpaqlarımızı qeyr-qanuni istismar etmiş, iqtisadi fəaliyyətlə məşğul olmuşlar. Buna dəstək olan, çaylarımızı çirkləndirən, təbiətimizə ziyan vuran və həmçinin qızıl, digər qiymətli metalları qanunsuz olaraq talayan xarici şirkətlərə qarşı hüquqi proseslərə başlanılıb.

Son olaraq onu deyə bilərik ki, xarici sərmaye üçün diqqət çəkən sahə turizm ola bilər və ekoloji ziyana baxmayaraq, Qarabağ və Şərqi Zəngəzur yalnız Azərbaycanın deyil, həmçinin bütün regionun ən gözəl turizm bölgələrindəndir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm potensialı və sosial-iqtisadi inkişaf prespektivləri olduqca vacib mövzulardandır. Qarabağın turizminin inkişafı iqtisadiyyata təsir edir, regionun tanıdılması ölkənin rifahına fayda verir. İşğaldan əvvəl də Şuşada balenoloji mərkəz var idi. Təəssüf ki, 42 il əvvəl kanat yollarının çəkilməsinə şahid ola bilmədik, lakin bu gün yenidənqurma işləri aparılarkən mümkün dərəcə ən mükəmməl işlərə imza atmaq üçün planlar hazırlanır. Qarabağın və Şərqi Zəngəzurun sosial-iqtisadi inkişaf prespektivlərinin araşdırılmasının birbaşa təsiri turizmin inkişafına gətirib çıxarır. Qarşılıqlı olaraq əlaqəlidir, həmçinin turizmin inkişafı ölkə iqtisadiyyatının artırılmasına gətirib çıxarır. Əslində dərin mənalı yanaşsaq bu paradoksal döngü kimi nəzərə alına bilər. Sosial iqtisadi durum əhalinin məşğuliyyəti, gördüyü işlər, iqtisadiyyatda məşğulluğun tutduğu yer və s ilə əlaqəlidirsə, deməli turizmin iqtisadiyyata göstərdiyi yüksək təsir işsizliyin aradan qaldırılması və o cümlədən əhalinin rifahının artmasına gətirib çıxarır.

Azərbaycanın ən çox turizm potensialına malik regionlarından biri məhz Qarabağ zonasıdır. 44 günlük müharibə nəticəsində torpaqların müharibə yolu ilə geri alınması bütün dünyaya səs saldı. Digər tərəfdən isə regionun ekoloji vəziyyəti, coğrafı yerləşməsi bunu deməyə əsas verir. Zəngilanda termal bulaqların mövcudluğu, Füzulidə Azıx mağarası daha aydın desək sözügedən regionda təbii və antropagen turizm resurslarının mövcud olması turizmin inkişafı üçün tutarlı səbəblərdəndir. Ərazidə dağçılıq, alpturizm, gəzinti- aktiv və ekstermal turizm, ekoturizm, dini turizm, aqroturizm və daha bir çox turizm növünün inkişafı üçün əlverişli şərait mövcuddur. Məhz buna görə də dövlət, özəl sektor və alimlərin dəstəyi ilə sözügedən ərazidə turizmin inkişaf prespektivləri araşdırımalı, inkişafı üçün işlər görülməlidir.

Turizm sahəsində yeni mərhələnin başlanğıcı, bu turizmin inkişafında həm gəlmə həm də getmə turizmdə böyük canlanma gözlənilir. Heç şübhəsiz ki, Qarabağ və Şərqi Zəngəzurda turizmin inkişafı Azərbaycanda turizmin inkişafına yeni tövhələr verəcəkdir.

**Tədqiqat obyekti**. Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur 30 il sonra işğaldan azad etdiyi doğma diyarı, turizm sahəsidir.

**Tədqiqatın yeniliyi və ya elmə töhfəsi.** 30 ilə yaxındır işğal altında olan torpaqlarımızın mənfur düşmandan alınması ilə torpaqlarımız çiçəklənməyə başladı. Yenidənqurma işləri və bununla yanaşı aparılan digər tədbirlər daha yeni başlayıb və buna görə də hələ yolun başındayıq. Qarabağla bağlı bir çox tədqiqatlar aparılır. Məhz bunlardan biri də turizm fəaliyyəti ilə bağlı aparılan tədqiqatlarla bağlıdır. Bildiyimiz kimi turizm ölkə iqtisadiyyatına ən çox təsir göstərən fəaliyyət sahələrindəndir. Turizmin inkişafı üçün əlverişli region olan Qarabağ və Şərqi Zəngəzur haqqında aparılan araşdırmalar hərkəsin maraq dairəsindədir. Yenidənqurma işlərinin hələ tamamlanmaması, davam etməsi tədqiqatı daha da cəlbedici edir. Buna səbəb müxtəlif ideyalar, təkliflər, fikirlər irəli sürməyin mümkünlüyüdür.

Qarabağın turizm potensialının və sosial-iqtisadi durumunun iqtisadiyyata təsiri mövzusunda tədqiqat aparılması regionun bərpa işlərindən sonra turizm fəaliyyətinin artırılmasına dəstək olacaqdır. Təbii ki, ilk məqsəd ərazinin təhlükəsizliyini təmin etmək və əhalinin oraya qayıdışıdır. Qarabağ gələcəkdə dünyada mühüm ekoloji-turizm mərkəzinə çevrilə bilər. Əhalinin qayıdışı ona görə vacibdir ki, turizm mərkəzlərinin yaradılması, mağazalar, alış-veriş mərkəzləri, əyləncə mərkəzləri və s kimi turizm resursları ilə regionu təmin etmək mümkün olacaqdır. Sözsüz ki, turistik bölgələrdə yerli əhalinin turizmin inkişafına təsiri hər zaman özünü göstərmişdir. Hazırkı dövrdə böyük şəhərlərin səs-küyündən qaçmaq istəyən turistlər təbiətə üz tuturlar. Bu zaman Qarabağın təbiəti, ekologiyası, tarixi strukturu turistlərin həmin ərazini seçməsi üçün üstünlük təşkil edəcəkdir.

Dissertasiya işində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm potensialı və sosial-iqtisadi inkişaf prespektivlərinin elmə tövhəsi ondan ibarətdir ki, Azərbaycanın dünyaya tanıdılması, turistik ölkə olması və həmçinin gələcəkdə güclü iqtisadiyyata malik dövlətlərdən birinə çevrilməsi öngörüləbilər. Əslində turizm potensialı və sosial-iqtisadi inkişafı qarşılıqlı olaraq bir birinə bağlıdır. İqtisadçılar ölkə iqtisadiyyatı üzrə araşdırma aparan zaman əsas məqsədləri rifahın yüksəlməsi, ölkənin maddi vəziyyətinin yaxşılaşdırılması və o cümlədən işsisliyin aradan qaldırılması olur. Düşünürəm ki, sözügedən bu mövzunun araşdırılması iqtisadçılarla ortaq məqsədli olduğumu deyə bilərəm. Çünki yuxarıda da qeyd etdiyim kimi turizmin inkişafı birbaşa ölkə iqtisadiyyatına təsir edir. Doğrudur iqtisadiyyata ticarət xidməti, tikinti işləri, mehmanxana və restoran xidməti, neftayırma məhsulları və s kimi fəaliyyət sahələri təsir göstərir, lakin, dissertasiya

araşdırmamda əsas məqsəd onu göstərməkdir ki, Qarabağ və Şərqi Zəngəzurun ən yüksək potensialı turizm sektorudur. Bunun üçün bir çox əasalı səbəblər var ki, ərazidəki ekologiya, iqlim, tarixi-mədəniyyət və s. Sözügedən ərazi vaxtı ilə təbii sərvətlərlə zəngin olub, lakin işğal altında olan müddət ərzində ermənilər qeyri-qanuni olaraq sərvətlərimizi talan ediblər. Buna görə də bu gün Qarabağda olan milli sərvətlərimizin xarici ölkələrə satışından yox, milli sərvətlərimizin dünyaya tanıdılmasından bəhs edirik. Ölkəmiz tükənməyən sərvətə malikdir, heyrətamiz gözəlliyi olan Qarabağımız var. Ölkə rifahını yüksəldə biləcəyimiz kifayət qədər potensiala sahibik.

Qarabağla bağlı hazırlanan planlardan biri də gələcəkdə İranla əməkdaşlıq və Türkiyə birliyinin İpək yolu layihəsidir. Deməli, Azərbaycana gəlmək üçün Qars-İğdir-Naxçıvan marşurutunun çəkilməsi, İran ərazisindən dəmir yolunun çəkilməsi mümkündür. Bununla da dəmir yolunun çəkilməsi Azərbaycana olan turpaketin maya dəyərini aşağı salacaqdır. Burada marşurutlar təyyarə ilə nəzərdə tutulsa da dəmir yolu xətti daha sərfəlidir. Planlaşdırılan fəaliyyət planının içərisində turizm xidmətlərinə böyük yer verilməsi gözlənilir ki, bu da Azərbaycanda daha geniş turizm xidmətlərinin təklif olunmasına gətirib çıxaracaq.

Bununla əsas diqqət daxili turizm və Qarabağın turizm potensialının inkişaf etdirilməsinə yönəldiləcək. Beynəlxalq səyahətlər təkrar başlayacaq və ona görə də Azərbaycanın beynəlxalq aləmdə turizm potensialının təbliği istiqamətində işlər sürətləndiriləcək.

Birinci istiqaməti Füzuli, Xocavənd, Şuşa, Laçın, İkinci Cəbrayıl, Füzuli Zəngilan, üçüncü Zəngilan, Qubadlı, dördüncü Kəlbəcər, Laçın, beşinci isə Bərdə, Ağdam istiqaməti olan yeni turizm marşrutları da nəzərdə tutulub. Sözügedən ərazilərin ayrı-ayrılıqda turizm potensialına nəzər saldıqda, məsələn, təbiəti, mədəni-tarixi abidələri ilə Qarabağın incisi olan Şuşada müxtəlif tədbirlər, festivallar keçirilməsini misal göstərə bilərik. Laçın və Kəlbəcər istiqamətində qış və sağlamlıq turizmi imkanları var. Qubadlı, Zəngilan rayonlarında isə mədəniyyət və təbiət istiqaməti, o cümlədən Füzuli, Ağdam, Cəbrayıl rayonlarında mədəniyyət və bununla yanaşı, erməni işğalının acı nəticələrini əyani şəkildə göstərmək imkanları var. Gələcəkdə bu yerlərdə açıq muzeylərdə işğalın nəticələrini göstərmək mümkün olacaq.

Uzun illərdir Qarabağ qapalı qalıb. Oranın təbiəti, mədəniyyəti və tarixinə görə regionu gəzmək hərkəs üçün maraq doğuracaq. Bildiyimiz kimi Prezident Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı adlandırıb. Kəlbəcərin İsti suyu hələ sovet dövründə olan zaman turistlərin səfər etdiyi məkanlardan biri idi. İndi biz Qarabağın turizm imkanlarını özünə geri qaytarmalıyıq.

**Tədqiqatın metodu**. Tədqiqat işinin nəzəri və metodoloji əsasını sosial yönümlü bazar təsərrüfatı, regional iqtisadiyyat, idarəetmə nəzəriyyəsi, turizm sferasının inkişafı məsələlərinə dair konsepsiyalar və müvafiq nəzəriyyələrin əsas müddəaları, turizm xidmətlər bazarı təşkil edir. Tədqiqatın metodoloji əsasını müqayisə metodu, bununla yanaşı qrafik metod, analitik qruplaşdırmalar metodu, sorğu metodu təşkil edir.

**İstifadə olunan metodun təsviri.** Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm potensialı və sosial-iqtisadi inkişaf perspektivləri mövzusunu araşdırarkən bir çox metodlardan istifadə etmək mümkündür. Araşdırma zamanı hansı metodu istifadə edəcəyimə qərar verməzdən öncə qarşıya qoyulan suallara nəzər salmaq lazımdır. Regionun turizm potensialının və sosial-iqtisadi inkişafının aparılması üçün hansı işlər görülür? İnkişafı ölçmək və qiymətləndirmək mümkündür? Sosial-iqtisadi durumun və turizm potensialının inkişafını necə ölçmək olar?

Turizmin inkişafı üçün aparılan işlərdən biri də marketinq sahəsinin tədbirləridir. Regionun marketinqi o cümlədən reklamı nə qədər güclü olarsa turist marağı bir o qədər artar və bununla turizmin inkişafı yüksələr. Reklam dedikdə Marketinq dərslərindən bildiyimiz kimi bir çox yollar vardır. Bunları Qarabağda turizmin inkişafı ideyası ilə əlaqələndirsək əgər onda region haqqında yazılan bədii əsərləri, filmləri misal göstərə bilərik. Odur ki, yaxın zamanda Azərbaycan Televiziyası (AZTV) kanalının Qarabağda çəkdiyi “Küçəmiz, Evimiz, Məktəbimiz” filmi haqqında qeyd etmək istəyirəm. Şuşada çəkilən film müharibədən əvvəl sonuncu məzunlar haqqındadır. Demək istədiyim odur ki, tək bu film yox bir çox filmlər Qarabağa səyahət marağını daha da artırmışdır.

Dövlət Statistika komitəsindən əldə edilmiş rəsmi məlumatlara baxmaqla bölgənin keçmiş, indi və gələcəkdə nəzərdə tutulan turizm vəziyyətini təhlil etmək mümkündür. O cümlədən cədvəl və qrafiklərdən aydın şəkildə hansı turizm növünə daha çox diqqət yetirildiyini öyrənmək mümkündür. Qarabağ və Şərqi Zəngəzurda turizmin inkişafını təmin etmək üçün bölgədə hansı turizm növlərinə daha geniş yer verilməli olduğunu ətraflı şəkildə araşdırmaq lazımdır. Odur ki, çoxlu sayda turizm növlərinin olduğunu nəzərə alaraq statistik məlumatların ən çox tələbatın hansı sahəyə olduğunu bilmək üçün köməyi olduqca yüksəkdir.

Deməli qısa olaraq istifadə edilən metodları müqaisə metodu, analitik qruplaşdırmalar kimi qeyd etmək mümkündür.

**Müdafiəyə təqdim edilən əsas müddəalar.**

- ✓ İşğaldan yeni azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun turizm ərazisi kimi qiymətləndirilməsi;

- ✓ Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin inkişafına təsir edən amillərin müəyyənləşdirilməsi;
- ✓ Rayonların sosial və iqtisadi inkişafına təsir edən amillərin əsas şərtləri;
- ✓ Qarabağ və Şərqi Zəngəzur İqtisadi Rayonlarının SWOT təhlili;
- ✓ Qarabağ və Şərqi Zəngəzur İqtisadi regionlarının «Turizm istiqamətli xüsusi iqtisadi zona» elan edilməsi;
- ✓ Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunun investisiya cəlbediciliyinin və bu rayonun destinasiyaya çevrilməsi əsaslandırılması.

**Tədqiqat işinin nəzəri əhəmiyyəti** turizm sahəsində tədqiqat işi apararkən nəzəri bazanın genişləndirilməsi, həmçinin Qarabağ və Şərqi Zəngəzurda turizmin təşkili haqqında mövcud elmi biliklərin sistemləşdirilməsi və genişləndirilməsidir.

**Dissertasiyanın praktiki əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqatın yekununda əldə olunan konseptual müddəalar, verilən təkliflər müvafiq orqanlar tərəfindən . Qarabağ və Şərqi Zəngəzur İqtisadi Rayonunun sosial-iqtisadi inkişafının planlaşdırılması və proqramlaşdırılması məqsədi ilə istifadə edilə bilər.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya işi giriş (1794), üç fəsil ( I fəsil- işarə, II fəsil- işarə, III fəsil- işarə), nəticə (457 işarə), 27 adda istifadə olunmuş mənbə siyahısından, ixtisar və əlavələrdən ibarətdir. Dissertasiya işində 21 cədvəl, 3 şəkil, 8 qrafik, əlavədə 2 xəritə nəticələri verilib. İşin ümumi həcmi 78 səhifə (18520 işarədən) ibarətdir.

# I FƏSİL.
# QARABAĞ REGİONUNUN TURİZM SEKTORUNUN İNKİŞAF İSTİQAMƏTLƏRİ

## 1.1. Turizmin mahiyyəti, xüsusiyyətləri, nəzəri-metodoloji əsasları (ÜDM-ə təsiri, məşğulluğa təsiri, turizmin multipikator effekti və s )

Turizm ölkə iqtisadiyyatına ən çox təsir göstərən faliyyət sahələrindən biridir. Turizmin başlıca məqsədlərindən biri sosial-iqtisadi inkişafa təsir etməklə bir sıra ərazi, sahə və regional inkişaf problemlərini həll etməkdir. Turizm sektorunun sosial iqtisadi inkişafda rolu olduqca yüksəkdir. Sosial-iqtisadi dedikdə, əhalinin iqtisadiyyatla bağlılığı və təsiri nəzərdə tutulur. Sosial-iqtisadi təsir dedikdə bir çox yollarla iqisadiyyata göstərilən təsiri, əkinçilik, maldarlıq, xalçaçılıq kimi təməli daha çox keçmişə dayanan sahələr buna misaldır.

Turizm - dedikdə ağılda formalaşan fikir səyahət, gəzmək, əylənmək, görmək, öyrənmək, alışveriş etmək, müxtəlif dadları dadmaq və s olur.

Turizmin konseptual əsasları potensial turizm məhsulundan gəlirlərin formalaşması fikrinə əsaslanır. Ümumiyyətlə **turizmin sosial-iqtisadi mənası** çoxşahəlidir və həmçinin kompleks göstəricilərlə ifadə olunur. Onun əsas məqsədi kommersiya gəlirləri əldə etmək, yerli resurslardan istifadə etmək, əhalinin rifahı başqa sözlə desək həyat şəraitinin yaxşılaşdırılması üçün infrastrukturu genişləndirməkdən ibarətdir. Turizm biznesin və korporativ idarəetmənin obyekti olaraq genişlənir. Fəaliyyət dairəsi olmaqla turizm əasasən **sahibkarlığa** şərait yaradır. Turizm fəaliyyətinin olması ev təsərrüfatının inkişafı üçün o cümlədən kəndin sosial-iqtisadi inkişafını artırmaq və yeni iş yerlərinin açılmasına gətirib çıxarır. Turizmin məqsədlərinə uyğun olaraq sosial və iqtisadi inkişaf problemləri, həmçinin ərazidə resurslardan səmərəli istifadənin təmin edilməsi, məşğulluq fəaliyyətinin artması istiqamətlərini göstərmək olar.

Ölkə iqtisadiyyatına ən çox təsir edən sahələrdən biri məhz turizm sektorudur. Turizm, **daxili** və **xarici** olmaqla iki növə ayrılır. Daxili turizm ölkə sərhədlərini dəyişmədən, turistin yaşadığı ölkə daxilində yenə, o cümlədən başqa regiona səfər etməsidir. Həmçinin uyğun olaraq xarici turizm daxili turizmin əksidir. Səyahət edən turistin məqsədindən asılı olaraq bir ölkədən digər ölkəyə getməsi, səyahət etməsi xarici turizmdir. Xarici turizm səfəri zamanı turist ölkə sərhəddini keçir və artıq başqa ölkənin hüdudlarında olur. Bu zaman mədniyyəti, dini, dili və s kimi fərqliliklərlə qarşılaşmaq adi haldır.

Daxili və xarici turizm formaları iqtisadiyyata fərqli təsirlər göstərir. Həmçinin onu demək olar ki, turizm **növlərindən asılı olaraq** iqtisadiyyata təsir edir. Turizmin növlərindən

asılı olaraq dedikdə, xarici turizm iqtisadiyyata daha çox təsir göstərir. Bu fikrə əsas gətirmək üçün, valyuta dəyişilməsi ilə bağlı olduğunu qeyd etmək lazımdır. Bu təbiidir ki, digər ölkələrdən gələn turistlər ölkə iqtisadiyyatına daha çox təsir edir. Buna bir çox misallar göstərmək mümkündür, ən vacibi turistlərin gecələmək üçün istifadə etdikləri turizm məhsulu, o cümlədən qidalanmaq üçün seçdikləri turməhsul və s kimi xərclərinin iqtisadiyyata olan təsirini misal göstərmək mümkündür. Səyahət məqsədi dedikdə turizmin müxtəlif istiqamətləri olduğu nəzərdə tutulur, yəni məsələn işgüzar məqsədlə edilən səyahətlər, istirahət turizmi, sağlamlıq turizmi və s. Yuxarıda qeyd etdiyimiz kimi turizmin iqtisadiyyata təsiri xarici turizmlə yanaşı daxili turizm fəaliyyəti zamanı da baş verir. Sadə dildə desək, bir ərazinin vətəndaşları ölkə ərazisində başqa regionlara səyahət etməsi daxili turizmdir. Daha aydın başa düşmək üçün misal göstərmək olar ki, məsələn, Bakı əhalisinin böyük qismi əsasən yaz və yay aylarında təbiəti ilə göz oxşayan bir çox rayonlara üz tuturlar.

Cədvəl 1.1-ə nəzər yetirsək görərik ki, dünyada turizm fəaliyyəti günü-gündən sürətlə artır. Son zamanıar baş verən hadisələr, pandemiya şəraitinin olması və bununla yanaşı müharibələrin artması turizmə təsir göstərir. Beynəlxalq turizmin sürətlə inkişaf etmə səbəbləri çoxlu olsa da əsas burada viza sənədlərinin sadələşdirilməsi, siyasi sabitlik və iqtisadi artım rol oynayır. BMÜT ( Birləşmiş Millətlər Təşkilatı)-nın rəsmi məlumatlarına görə dünyada 11 turizm sənayesinin *ümumi illik orta artım faizi* təxminən 4-5%-dir. Əksər ölkələr, sosial-mədəni servis istiqamətlərini və turizm sahələrini genişləndirərək beynəlxalq ticarətdən öz büdcələrinə müsbət təsir alırlar. İspaniya, Macarıstan, Avstriya və bu kimi digər çoxlu ölkələr gəlmə turizmi inkişaf etdirərək valyuta axınını konpensasiya edirlər və yenə də iqtisadi gəlirlərini rahatlıqla artırırlar.

**Şəkil 1**




**Cədvəl 1.1**

**Dünyada gəlmə turizm üzrə əsas göstəricilər**

| Beynəlxalq turist gəlmələri (million nəfər) | | | | | | % tutumu | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Regionlar | 1990 il | 2000 il | 2010 il | 2015 il | 2019 il | 1990 il | 2000 il | 2010 il | 2015 il | 2019 il |
| Dünya | 435 | 674 | 950 | 1186 | 1458 | 100 | 100 | 100 | 100 | 100 |
| Avropa | 261,5 | 386,6 | 489,4 | 607,7 | 744.3 | 60,1 | 57,4 | 51,5 | 51,2 | 51.0 |
| Asiya və Okeaniya | 55,9 | 110,4 | 205,5 | 279,2 | 360.1 | 12,9 | 16,4 | 21,6 | 23,6 | 24,7 |
| Amerika | 92,8 | 128,2 | 150,2 | 192,6 | 219.4 | 21,3 | 19,0 | 15,8 | 16,2 | 15.1 |
| Afrika | 14,8 | 26,2 | 50,4 | 53,5 | 72.4 | 3,4 | 3,9 | 5,3 | 4,5 | 5.0 |
| Orta Şərq | 9,6 | 22,4 | 54,7 | 53,3 | 61.4 | 2,2 | 3,3 | 5,8 | 4,5 | 4,2 |

*Mənbə:BMÜTT-nin 2015-ci və 2019-cu il üzrə hesabatlarına əsasən (UNWTO Tourism Highlights, 2019 Edition) [112]*

Dünya üzrə səfər etmiş turistlərin sayı 2012-ci ilin dekabrında 1 milyard rəqəmini keçmişdir. Verilmiş diaqramdan göründüyü kimi Dünyada ən çox gəlmə turizm milyon nəfər hesabla 2015-ci ildə olmuşdur. Həmçinin digər tərəfdən illərə görə zamanla gəlmə turizm artsa da Afrika ərazisində göstərici çox aşağıdır. Cədvəl 1.1-dən göründüyü kimi əcnəbi turistlərin sayı hər il biraz daha artır və 2019-cu ildə 2015-ci ilə nisbətən 122.9% olub. Asiya və Okianiya

ərazilərinə gələn xarici turistlərin sayı da gözlə görünəcək qədər artıb. Bunlara əsaslanaraq asanlıqla deyə bilərik ki, xarici turistlərin valyuta axını nəticəsində turistlərdən əldə olunan gəlir də ildən ilə artıb. Beləliklə, BMÜT-nin statistik məlumatlarına görə 2012 və 2015-ci illərdə uyğun olaraq 1075 milyard və 1196 milyard olmaqla artmışdır. Nəticədə 2019-cu ildə isə artıq 1478 milyard ABŞ dolları həcminə şatmışdır.

Turizm məhsulu haqqında danışan zaman **məşğulluq** haqqında fikirlər söyləmək mütləqdir. Çünki, **məşğulluq** - sadə dildə desək insan əməyinin təsiri ilə yaranan məhsuldur. Bildiyimiz kimi hər bölgənin özünəməxsus nemətləri var və turizm məqsədinin seçilməsinə öz təsirini göstərir. Aydındır ki, sağlamlıq məqsədi ilə səyahət edən turist Naftalan nefti və yaxud Kəlbəcərdə yerləşən isti su bulağına səyahət etməyi daha üstün tutacaqdır. Bununla yanaşı tarixi-mədəni səyahətlə maraqlanan turistlər üçün Şəkidə xalçaçılıqla məşğul olan insanların məhsulları turistlərin diqqətini daha çox çəkəcəkdir. Nəticədə turizm sektorunun **məşğulluğa** yüksək təsir göstərdiyini deyə bilərik.

Əhalinin rifahının əsas istiqamətlərini müəyyənləşdirmək üçün ümumi daxili məhsuldan, yəni ÜDM-dən istifadə olunur. Turizmin dünya təcrübəsinin formalaşması üçün hər bir ölkənin əhalisinin sosial-demoqrafik qruluşu və iqtisadi qruluşu vacib ixtisaslaşmalardır.

Turizmin inkişafında ÜDM-yə təsiri yeni turistik iş yerlərinin açılması, regionların sosial-iqtisadi inkişafı üçün şərait yaradılır. ÜDM dedikdə **ümumi daxili məhsul** nəzərdə tutulur. Turizmin mahiyyəti onun istehsal strukturu, təşkilati quruluşu və idarə edilməsi xüsusiyyətləri ilə formalaşır.

Sosial-iqtisadi inkişaf səviyyəsini milli hesabatlar sisteminin ən mühüm göstəricilərindən biri olan ÜDM (Ümumi Daxili Məhsul) xarakterizə etməyə imkan yaradır. Buna əsasən deyə bilərik ki, turizm sektorunun ÜDM-yə təsiri başqa ölkələrdən gələn turistlərin ölkə iqtisadiyyatına əlavə etdikləri mənfəətdir. ÜDM-ni ən yaxşı şəkildə başa düşməyin yolu ÜMM-nin ümumi milli məhsul deməkdir və onu ÜDM ilə müqaisə etməkdir. ÜMM yəni **ümumi milli məhsul** vətəndaşların həm ölkə daxilində həmdə ölkə xaricində əldə etdikləri bütün gəlirdir. ÜDM isə yalnız ölkə daxilində əldə edilən gəlirdir.

“İlkin məlumatlara əsasən 2020-ci ildə ölkədə 72432,2 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,3 faiz az ümumi daxili məhsul istehsal olunmuşdur.

İqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyər 2,6 faiz, neft-qaz sektorunda isə 7,0 faiz azalmışdır.

ÜDM istehsalının 33,7 faizi sənaye, 11,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,7 faizi tikinti, 7,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı

və balıqçılıq, 2,0 faizi informasiya və rabitə, 1,2 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 20,2 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 9,7 faizini təşkil etmişdir. Əhalinin hər nəfərinə düşən ÜDM 7262,8 manata bərabər olmuşdur."

*Mənbə: Dövlət Statistika komitəsi*

ÜDM-nin hesablanmasında bir neçə üsuldan istifadə olunur. Beləliklə nəticə olaraq deyə bilərik ki, gələn turistlərin ÜDM-yə təsiri onlara göstərilən xidmətdən, etdikləri alışverişdən və bir çox turizm məhsulundan asılıdır. Bununla yanaşı xaricdən gələn turistlər ölkəmizdən hər hansı bir mehsulu alıb, satışa çıxarsa əgər yenə də iqtisadiyyata müsbət təsir göstərəcəkdir.

**Cədvəl 1.2**

**Məşğul əhalinin ümumi sayı (min nəfər hesabla)**

| | 2005 | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | 4062.3 | 4329.1 | 4671.6 | 4822.1 | 4879.3 | 4938.5 | 4876.6 |

*Mənbə: DSK-nin 2015-ci və 2021-cu il üzrə hesabatlarına əsasən (The statistical committee of the Republic of Azerbaijan, 2021 Edition) [52]*

Cədvəl 1.6-da qeyd edildiyi kimi Azərbaycanda məşğul əhalinin sayı illər ötdükcə azalmağa doğru yox, artmağa doğru getmişdir. Bu da ölkə iqtisadiyyatına inkişaf təsiri göstərdiyini xəbər verir.

Aydın məslədir ki, turizmin məşğulluğa təsiri zamanı yalnız yerləşdirmə obyektlərini nəzərə almaq yox həmçinin bununla yanaşı turistlərin istifadə etdiyi nəqliyyat, qidalanma obyektləri və s təsirini də ətraflı araşdırıb müqaisə etmək lazımdır.

Turizm sahəsində çalışan işçilərin maddi ehtiyaclarının yüksək səviyyədə təmin edilməsi turizm fəaliyyətinin davamlı təşkili baxımından böyük əhəmiyyət kəsb edir. Hazırda turizm dünyada məşğulluğun təmin olunmasında əksər sənaye və xidmət sahələri ilə müqayisədə kifayət qədər yüksək göstəriciyə malikdir. Statistika komitəsinin rəsmi saytından əldə edilmiş Statistik məlumatlara əsasən dünyada 200 milyondan çox insan turizm sənayesində çalışır ki, bu da dünyada **məşğulluğun** 10 %-i təşkil edir. Araşdırmalar göstərir ki, dünyada turizmin hazırkı inkişaf tempinə əsaslanaraq söyləmək olar ki, yaxın illərdə bu rəqəm bir qədər də artacaqdır. Bu şəraitdə turizm sektorunda çalışan işçilərin əməkhaqqılarının düzgün tənzimlənməsi və əsas olaraq bu sistemin düzgün qurulması ən vacib istiqamətlərdəndir.

**Şəkil 2**




Turizm fəaliyyəti ilə bağlı olan müxtəlif sahələrdə əməyin fərqli şəkildə qiymətləndirilməsi aparılır. Turizm sənayesində ən çox gəliri olan sahə **hava nəqliyyatının təşkili** götürülür. Hava nəqliyyatı ilə səyahət dünyada ən çox ehtiyac duyulan sahələrdən biri olsa da qiymət baxımından kifayət qədər yüksəkdir. Ümumdünya Turizm Təşkilatının statistik məlumatlarına əsasən dünyada həyata keçirilən turizm səfərlərinin 45 %-i hava nəqliyyatı vasitəsilə həyata keçirilir. İkinci yerdə avtomobil nəqliyyatı durur ki, bu da 43 %-lik göstəricidir. Dünyadakı turistlərin cəmi 7 %-i su nəqliyyatından istifadə edir. Qalan 5 % isə dəmiryolu nəqliyyatının payına düşür.

**Şəkil 3**




*Mənbə: Dövlət Statistika Komitəsi*

Mehmanxana sahəsində isə vəziyyət çox fərqli və həmçinin mürəkkəbdir. Burada mehmanxananın yerləşdiyi ərazidən, onun kateqoriyasından asılı olaraq əməkhaqqı sistemi formalaşır. Bir çox turistik müəssisələrdə menecmentdən başqa demək olar ki, digər vəzifələrdə çalışan işçilərin böyük qisminin əməkhaqqı elə də yüksək olmur. Əsasən işçi heyəti mehmanxanalarda müştərilərlə daha çox kantaktda olur. Müştərilər əksər hallarda qeydiyyatda çalışan işçilərə, restoranda masa xidmətçilərinə, otağı təmizləyən xadimələrə, əşyaları və zənbilləri daşıyan qapıçılara, fərdi məşqçi qismində onlara xidmət göstərən heyət üzvlərinə bəxşeş olaraq əlavə pul və hədiyyə verdiklərindən mehmanxana sistemində bu qəbildən olan işçilərin əməkhaqqısı o qədər də yüksək olmur. Bununla yanaşı, mehmanxana sistemində əməkhaqqlarının davamlı artması çox az hallarda müşahidə olunur. Daimi müqavilə ilə işləyən işçilərin əməkhaqqları o qədər yüksək olmasa da, beynəlxalq Hyatt Mehmanxanalar Şəbəkəsinin prosedurlarına uyğun olaraq işçilərin bir sıra güzəştləri vardır ki, bunlar da işçinin əməyinin qiymətləndirilməsi üçün mühüm faktorlardır.

Azərbaycanın regionlarında və eləcə də Bakının özündə də yerləşən mehmanxana və həmçinin mehmanxana tipli obyektlərdə ixtisaslı işçi heyətinin çatışmamazlığı olduqca ciddi problemdir. Əsas səbəblərdən biri də əməkhaqqı qiymətlərinin düzgün tənzimlənməməsidir. İstər Bakıda olsun, istərsə də regionlarda olan mehmanxanaların əksəriyyətində işçi qüvvəsinin əməyi lazımı səviyyədə qiymətləndirilmir. Əksər hallarda onların əməkhaqqları çox minimal səviyyədə qiymətləndirilir. Təmin olunanlar belə sabit əməkhaqqı ilə çalışa bilmirlər. İşçi qüvvəsinin belə qeyri stabil şərtlərlə çalışması, sonda həmin obyektin təklif etdiyi turizm məhsulunun xidmət səviyyəsinin aşağı səviyyədə müştəriyə təqdim edilməsi ilə nəticələnir. Əməyi düzgün qiymətləndirilməyən işçi işinə lazımı məsuliyyəti göstərmir və bu da həmin turizm obyektinin ümumilikdə imicinə mənfi təsir göstərir.

Göründüyü kimi son zamanlar müşahidə olunan tendensiyalar və ümumilikdə turizm sənayesinin müxtəlif sahələrində işçi heyətinin əməyinin müxtəlif şəkildə qiymətləndirilməsi turizm sənayesi üçün bir sıra müsbət və mənfi təsirlərini göstərir. Bütün bunları nəzərə alaraq turizm fəaliyyətinin tənzimlənməsi zamanı həm dövlət, həm özəl, həm də ictimai sektor tərəfindən əməkhaqqı sisteminin əhəmiyyəti vurğulanmalı və dövlətin, şirkətlərin, ictimai institutların siyasətində bu amil mütləq şəkildə nəzərə alınmalıdır. İndi dövlət birbaşa olmasa da, müxtəlif dolayı vasitələrlə turizm sənayesində fəaliyyət göstərən təşkilatlara bu baxımdan öz tövsiyyələrini etməli və bu sistemin düzgün qurulması üçün lazım olarsa, müxtəlif maarifləndirici

seminarların, təlimlərin təşkilində maraqlı olmalıdır. Bütün bunları nəzərə alaraq belə deyə bilərik ki, əgər düzgün qurulmuş 40 əməkhaqqı sistemi iş prosesi zamanı düzgün tənzimlənərsə uyğun olaraq, yekunda müəssisənin uğurlu fəaliyyəti ilə nəticələnər. Nəhayət ki, məşğulluğun təsiri artmış olar.

Turizmin yeri və rolunun nəzəri-metodoloji aspektlərini formalaşdıran istiqamətlərdən biri də odur ki, turizm ölkəsi daha çox səmərəli fəaliyyət, turizm sferasına baxış, onun məqsədi, vəzifələri və təşkili fəaliyyətində iştirak edən subyektlər və mexanizmlər, onun metodoloji əsaslarını təşkil edir. İlkin növbədə təşkilati amil olaraq turizmə ölkə iqtisadiyyatının struktur amili və onun digər sahələrə **multiplikasiya effekti** baxımından yanaşılır. Hər bir amil qarşılıqlı olaraq biri digərinə təsir göstərir. Odur ki, sənaye, mənzil, ekologiya, əhali amili özünün təsirləri ilə multipikasiya amili olaraq effekt yaradır. İndi Multipikasiyanın turizmlə əlaqəsini daha yaxşı anlaya bilərik. Valyuta dəyişməsi, ekologiya, iqlim amili və daha bir çox amillər turizmə öz təsirini göstərir.

“ **Multiplikasiya səmərəsi** hər bir sahənin birbaşa və dolayı əlaqəsi yolu ilə son nəticənin formalaşmasında əldə olunan effekt nəzərdə tutulur. Çoxkriteriyalı sistem və digər təsirlərə məruz qalan turizm sferası özünün resurs potensialını formalaşdırır. Resurs yanaşma metodologiyası turizmin inkişafı ilə baş verən yan təsirləri, məskunlaşma və ərazi inkişaf forması ilə təsvir olunur. Turizmin sahələrarası problemi, onun kənd təsərrüfatı, əhali və iqtisadi fəaliyyət mexanizmlərinin ölkədə formalaşma xüsusiyyətləri ilə həyata keçir.[1]

Yuxarıda qeyd edildiyi kimi turizmin iqtisadiyyata güclü təsir edir.

- Turizm iqtisadiyyatı inkişaf etdirən xidmət sektorudur.
- Milli gəlirə dəstək verən perspektivli bir sektordur.
- Milyonlarla insanı əlaqələndirən bir istehsal və istehlak vasitəsidir.
- İş yerinin əmələgətirmə xüsusiyyətinə malikdir.
- Turizm, milyonlarla insanı, istehlakçı və istehsalçı olaraq maraqlandıran bir sahədir.
- Turizm, əldə etdiyi valyuta gəlirləri ilə xarici ödəmələr və xarici ticarət balanslarına müsbət təsir göstərən bir sahədir.”

---

[1] *Mənbə: Turizmin əasasları, Bakı 2015, Dosent B.Ə.Bilalov və dosent Ç. G.Gülalıyevin redaktəsi ilə (http://www.kitabxana.net/files/books/file/1534009392.pdf)*

## 1.2. Azərbaycanda turizm sektorunun xüsusiyyətləri, turizm ehtiyyatlarının yeri və rolu. Ölkənin sosial-iqtisadi inkişafında rolunun qiymətləndirilməsi.

Azərbaycanın turizm sektorunun xüsusiyyətlərini araşdırmaq üçün ilk olaraq turizm haqqında ətraflı məlumat almaq lazımdır. Turizmin əsasları kitabında qeyd edildiyi kimi **turizm ehtiyyatı** turist marağından və turistin təəsüratlarından asılı olaraq formalaşır.

**Turist marağı** - olduqca mürəkkəb ifadədir, çünki turistin marağı bir çox faktorlara bağlı olaraq fərqlənir buna misal olaraq yaş qrupu, mədəni vəziyyəti, təhsili və s. Bir sözlə turistlər geniş maraq dairəsinə malik olurlar və çox yerləri gəzmək, müxtəlif mədəniyyətlərlə tanış olmaq istəyirlər. Hazırki dövrdə əksər insanlar heç ayaq dəyməmiş və yeni yerləri kəşf etməyə daha çox maraq göstərirlər. Xüsusən də adrenalin həvəskarı turistlər həmçinin öz həyatlarını təhlükəyə atmağı sevirlər. Sosial şəbəkə istifadəsinin gün keçdikcə artması ilə travel bloger səhifələrindən də gördüyümüz kimi insanlar daha çox vəhşi heyvanları görməyə maraq göstərir, yüksək zirvələrə çıxmağı hədəfləyir və s. Son illərdə ekstermal vəziyyətləri sevən turistlər bu növ turpaketlər alırlar.

**Turist təəsüratı-** kompleks emosiyaları özündə birləşdirən turistin mənəvi və fiziki vəziyyətidir. Turistin xoş təəsürat alması üçün onun tələblərinin qarşılanması vacibdir. Turistlərin təəsüratları getdikləri yerin **turizm ehtiyyatlarından** və mövcud kompanentlərdən asılı olaraq dəyişir. Ümumiyyətlə turistin istəyi ona göstərilən xidmət səviyyəsinin yüksək olmasıdır və o, getdiyi yerdə əylənmək, maraqlı anlar keçirtmək, bilgilənmək və s niyyətində olur.

İnsanların tələbatları müxtəlif olduğu kimi onların ödənilməsi də olduqca zəifdir. Bu insanların səyahət məqsədlərinin müxtəlifliyinə və bir-birindən fərqli düşüncəyə malik olmaqları ilə bağlıdır.

1950-ci ildən başlayaraq turizm sosial-iqtisadi hadisəyə çevrildi və iqtisadçılar arasında böyük marağa sahib sahib oldu. Polşalı iqtisadçı M. Truasi **turizm resurslarını** 1963 - cü ildə müəyyən hissələrə ayırmışdır.

1. **Təbii turizm resursları** - iqlim, hava, mənzərə, dəniz, göl, çay, dağ, meşə və s.

Təbii resurslar məlum məsələdir ki bərpa olunması mümkün olmayan və yaxud bərpası uzun illər tələb edən resurslardır. Məhz bu səbəbdən təbii turizm ehtiyyatlarına bir çox turizm ölkələri xüsusi diqqətlə yanaşırlar.

2. **İnsan əməyi ilə meydana gələn resurslar** - memarlıq nümunələri, abidələr, incəsənət əsərləri və s. Onlar əsasən müxtəlif turlara və ekskursiyalara salınır. İnsanların marağını ən

çox çəkən turizm ehtiyyatlarından biridir. Hazırda səyahət edən kütlənin əksər hissəsi Misir kimi qədimdən indiki dövrlərə qədər gəlib çıxmış tarixi yerlərdir.

3. **“Əlavə” turizm** resursları - İnsan əməyi ilə birlikdə xidmət anlayışının vəhdətini özündə birləşdirir. Xidmətin göstərilməsi mümkün olan bütün müəssisələr bura aid edilir.

Turizm- istismar edilsə də potensialı tükənməyən təbii, antopogen və digər resurslara əsaslanır. Turizm resursları- təbii, sosial-mədəni, mənəvi-irsi, dini, iqlim, tarixi-arxitektur kimi nümunələri özündə birləşdirir. Funksional xüsusiyyətlərinə görə turizm ehtiyatları sağlamlıq-müalicə, idman, istirahət məqsədilə istifadə olunur. Buraya misal olaraq təbii, tarixi, mədəni, iqtisadi, irsi, milli, etnoqrafik kompanentlər aiddir. Həmçinin landşaft ekzotikliyi, iqlim komfortluluğu, təbiət abidələri, milli parklar da misal çəkilə bilər. Digər tərəfdən təbii və antropogen turizm ehtiyyatları ilə yanaşı ərazinin təşkili üçün vacib olan amilləri də qeyd etmək lazımdır. Sosial-iqtisadi amillərə ərazinin infrastruktur səviyyəsi, mənimsənilmə xüsusiyyəti, bölgələr üzrə paylanması, müəyyən olunmaqla aid edilir.

Həmçinin onu da qeyd etmək olr ki, turizm ehtiyatlarının qruplaşdırılmasında sosial amillər aşağıdakı təsirə malikdir:

1. Ərazidə əhalinin məskunlaşma səviyyəsi - urbanizasiya, demoqrafik xüsusiyyətlər, milli-etnik tərkibi və etnoqrafiyası
2. Ərazidə sosial infrastrukturun inkişaf səviyyəsi və digər xidmət sahələri ilə təmin olunması.

Apardığımız araşdırmalar göstərir ki, turizm ehtiyatlarının öyrənilməsi ən çox ətraf mühitlə bağlı olmuşdur. Antropogen turizm ehtiyatların öyrənilməsində ölkələrin tarixi – memarlıq abidələrinin milli irsi nümunəsi kimi tədqiq olunması üstünlük təşkil edir.

Turizm ehtiyyatlarının ərazi üzrə təminat səviyyəsi və yayılması sosial - iqtisadi xarakter daşıdığı üçün təbii antropogen amillərin təsirindən asılıdır. Hər bir ehtiyyatın yayıldığı ərazinin coğrafi şəraiti, iqtisadiyyatın digər sahələri ilə birgə istifadənin sosial xarakteri buraya daxil edilir. Yəni hər bir təbii, antropogen komponentin miqdarı, dəyəri onun digər istehsal sahələrində istifadə edildikdən sonra qiymətləndirilməsi əsasında aparılır.

Turizm ehtiyyatlarının öyrənilməsində digər xüsusiyyətlərdən biri də cəmiyyətlə təbiət arasındakı qarşılıqlı əlaqədən yaranan müxtəliflikdir. Bu da **ekoturizmin** inkişafınna təkan yaradır. Ekoturizm botaniki, zooloji və geoloji obyektləri özündə birləşdirir və həmçinin təbiətə səyahət kimi adlandırmaq mümkündür.

Ekoturizmdən bəhs edərkən təbiətə səyahət olduğunu və səyahətin məqsədi yerli təbiət həmçinin adət-ənənələrlə tanış olmaqdır. Sərvətlərimizi, öz qabiliyyətimizi dünyaya gözəl şəkildə təqdim etmək və insanların diqqətini buraya cəlb etmək, ölkədə ekoturizmin inkişafına

gətirib çıxarır. Süfrəmizdən, təbiətimizdən tutmuş tariximizə qədər Azərbaycanda turizmin inkişafı üçün çox böyük üfüqlər var və Azərbaycan gələcəkdə yalnız bölgədə deyil, dünyada ən aparıcı turizm ölkələrindən birinə çevrilə bilər. O cümlədən zəruri normativ-hüquqi aktlarla və əlverişli infrastrukturun formalaşdırılması ilə yanaşı ölkəmizin turizm potensialının dünyaya tanıtdırılması istiqamətində də xeyli işlər görülüb.

Respublikamızın turizm imkanlarını təbliğ etmək məqsədi ilə Mədəniyyət və Turizm Nazirliyi bir sıra tədbirlər həyata keçirir. Bunlara misal olaraq Qubada regional mətbəx festivalı, Bakıda I Respublika sənətkarlıq festivalını göstərə bilərik. Təbii ki, tədbirlər bununla kifayətlənmir hər il yerli və həmçinin gəlmə turistlərin diqqətini çəkmək üçün bölgələrdə müxtəlif tədbirlər planlaşdırılmağa davam edir. Respublikamızın turizm potensialını əks etdirən reklam xarakterli səhifə İngiltərənin "ABTA" soraq kitabçasında hər il yerləşdirilir. Avropada ölkəmizin turizm potensialını təbliğ etmək məqsədilə populyar "Travel İQ" və "Faints and Projects" jurnallarında Azərbaycanın görməli yerlərini əks etdirən məqalələr dərc edilib.

**Turizm ehtiyatları** səfər edilən ölkənin (yerin) təbii, mədəni, tarixi, sağlamlaşdırma obyektləri və turistlərin ayrı-ayrılıqda və ya kompleks halında tələb və ehtiyaclarını təmin edə bilən, onların fiziki və mənəvi qüvvələrinin bərpası və inkişafına kömək edə bilən digər obyektlər məcmusudur. Daha aydın ifadə etsək turistlərin növündən asılı olaraq səyahəti zamanı lazım olan bütün ehtiyacları turizm ehtiyyatı hesab edilir. Bunlara misal olaraq nəqliyyat xidməti, yerləşdirmə obyektləri, qidalanma obyektləri, turoperator xidmətləri və s göstərmək olar. Aydın məsələdir ki, turizm ehtiyyatlarının turizm fəaliyyətində yeri yüksək və o cümlədən turizm inkişafı üçün əsasdır. Qarabağa əlçatanlığın asanlaşdırılması üçün çəkilən magistral yolları yardımçı turizm məhsulu kimi qeyd edə bilərik. Təbii ki, yeni tikilən otelləri də qeyd etmək vacibdir. İşğal altında olmuş ərazilərin təbii-iqlim şəraiti, təbii resursları, burada mövcud olan qoruqlar Qarabağ zonasında turizmin inkişaf etdirilməsi üçün əlverişli imkanlar yaradır. Ərazinin **kurort-rekreasiya** potensialı genişdir. Regionla bağlı məlumatların təhlili göstərir ki, xüsusən Qarabağın dağlıq hissəsində sağlamlıq, ekskursiya, kənd, ekoturizm və digər turizm növlərinin inkişafı mümkündür.

Aşağıdakı cədvəldə rekreasiya turizm ehtiyyatlarına daha sistemli şəkildə baxa bilərik. Cədvəldə qruplaşmalar imkan veriri ki, turizm ehtiyyatlarını 3 təsnifatda oxuyaq.

Rekreasiya turizm ehtiyyatları cədvəldən də göründüyü kimi 3 təsnifata ayrılır. Bunlar tıbii turizm ehtiyyatları, süni- başqa sözlə antropogen turizm ehtiyyatları və son olaraq sosial-iqtisadi turizm ehtiyyatlarıdır. Yuxarıda da qeyd edildiyi kimi iqtisadçı Truasinin fikri ilə

demək olar ki, eyni mənanı verir. Ətraflı olaraq aşağıdakı cədvəldə rekreasiya turizm ehtiyyatlarına nəzər sala bilərik.

Nəticə olaraq yuxarıda çəkilən misallara və məlumatlara əsasən görürük ki, turizm ehtiyyatlarının rolu turizm fəaliyyətində olduqca yüksəkdir. İllər ötdükcə turizm ehtiyyatları daha çox formalaşır və o cümlədən yeni turizm növlərinin yaranmasına gətirib çıxarır. Son illərdə insanların ən çox maraqlandığı turizm növlərindən biri də kosmik turizm olmuşdur. Bunun kimi bir çox yeni turizm növləri formalaşmaqda davam edir. Turizm ehtiyyatlarının rolu turizm fəaliyyətinin inkişafında olduqca yüksəkdir.

Təbii ki, Azərbaycan turizmində irəliləyişlərə səbəb olab bir çox turistik bölgələr vardır, yalnız Şəki ilə kifayətlənmir. Şəki üzərindən təhlil aparmaq ona görə asandır ki, hərtərəfli olaraq turizmin formalaşması üçün əlverişli bölgədir. Buraya qeyd edildiyi kimi Şəkinin tarixi, coğrafi yerləşməsi və s təsir edir. Odur ki, Azərbaycan turizmindəki irəliləyişləri zaman keçdikcə artırmaq üçün uzun illərdir çoxlu işlər görülür. Əldə edilən statistik məlumatlar bu işlərin müsbət nəticə verdiyini demək üçün əsas yaradır.

**Azərbaycana gələn əcnəbi və vətəndaşlığı olmayan şəxslərin ölkələr üzrə sayı**

**Azərbaycan turizmindəki irəliləyişlər (nəfər)**

**Cədvəl 1.3**

| Ölkələr | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| **Cəmi** | **2.006.176** | **2.248.773** | **2.696.745** | **2 849 592** | **3.170.373** | **795.722** | **791.751** |

*Mənbə: Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin 2015-ci il məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəl 1.13-dən göründüyü kimi 2015-ci ildən günümüzədək ölkəyə qəbul edilən turist sayı gündən-gündə artmışdır.

**Cədvəl 1.4**

**Ölkəyə gələn xarici vətəndaşların sayı (2018-2019) və turizm məqsədli ziyarətçilərin payı**

| Ölkələr | Cəmi, nəfər 2019 | Cəmi, nəfər 2018 | % dəyişməsi | % turizm məqsədilə 2019 |
|---|---|---|---|---|
| **Rusiya** | 932, 984 | 880,029 | 6,2% | 90% |
| **Gürcüstan** | 725,465 | 610,556 | 18,8% | 83% |
| **Türkiyə** | 316,628 | 291,449 | 8,6% | 92% |
| **İran** | 255,628 | 241,124 | 6,0% | 93% |
| **Səudi Ərəbistan** | 107,230 | 73,284 | 46,3% | 97% |

| | | | | |
|---|---|---|---|---|
| **BƏƏ** | 68,346 | 94,031 | -27,3% | 98% |
| **Hindistan** | 65,118 | 39,051 | 66,8% | 96% |
| **Ukrayna** | 59,116 | 57,707 | 2,4% | 93% |
| **Türkmənistan** | 52,127 | 28,305 | 84,2% | 86% |
| **İraq** | 50,723 | 67,514 | -24,9% | 93% |
| **Cəmi** | 3,170,373 | 2,849,581 | 11,3% | 90%[2] |

**Şəkil 4**




Cədvəldən göründüyü kimi 2019-cu ildə Azərbaycana gələn əcnəbi turistlərdən ən çox 98% olmaqla BƏƏ-dən, ən az isə 83%-lə Gürcüstandan gələn turistlər olmuşdur.

**Şəkil 5**




*Mənbə: Dövlət Statistika komitəsi*

[2] *Mənbə: Dövlət Sərhəd Xidməti; Dövlət Statistika Komitəsi*

Yuxarıdakı şəkildə Azərbaycandakı 2019-cu il üzrə gəlmə turistlərin yaş kateqoriyasına əsasən faizlə statistikası göstərilib. Diaqramdan gördüyümüz kimi ən çox 21%b olmaqla 35-45 yaş arası turistlər səfər ediblər.

**Şəkil 6**

**Ziyarət məqsədinə görə**

| | 2019 | 2018 | faiz dəyişməsi |
|---|---|---|---|
| **İstirahət** | 1,164,010 | 1,042,417 | +11,7% |
| **İşgüzar** | 850,507 | 787,385 | +8,0% |
| **Qohum, dost ziyarəti** | 719,858 | 651,621 | +10,5% |
| **Müalicə** | 63,907 | 63,077 | +1,3% |
| **Dini ziyarət** | 16,641 | 15,259 | +9,1% |
| **Tranzit** | 12,906 | 6,784 | +90,2% |
| **Alış-veriş** | 4,948 | 4,652 | +6,4% |
| **Digər** | 30,754 | 34,120 | -9,9% |
| **Cəmi** | **2,863,531** | **2,605,315** | **+9,9%** |

*Mənbə: Dövlət Statistika Komitəsi*

Ziyarət məqsədinə görə ən az faiz artımı müalicə məqsədli səfər edən turistlərdə gözlənilmişdir. O cümlədən ən çox 90,2% olmaqla tranzit məqsədli turistlər 1 il ərzində artmışdır.

**Cədvəl 1.5**

**Turistə yardım üzrə Gap analizi**

| | **Faktorlar** | **Lənkəran** | **Quba** | **Gəncə** | **Şəki** |
|---|---|---|---|---|---|
| Vaciblik | **Turizm İnformasiya mərkəzi** | 4.26 | 4.20 | 4.16 | 4.00 |
| Məmnunluq | | 3.94 | 4.07 | 3.71 | 4.02 |
| Gap | | -0.32 | -0.13 | -0.45 | 0.02 |
| Vaciblik | **Yol nişanları** | 4.37 | 4.48 | 4.57 | 4.14 |
| Məmnunluq | | 3.86 | 4.04 | 3.97 | 3.82 |
| Gap | | -0.51 | -0.44 | -0.60 | -0.32 |
| Vaciblik | | 4.29 | 4.31 | 4.39 | 4.22 |
| Məmnunluq | | 3.68 | 3.96 | 3.59 | 3.78 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Gap | **İctimai nəqliyyatın təşkili** | -0.61 | -0.35 | -0.80 | -0.45 |

*Mənbə: Dövlət Statistika komitəsi*

Cədvəl 1.5-də Dövlət Statistika komitəsinin apardığı araşdırmalarla Gap analizinin nəticəsi verilmişdir. “Gap”-sözü ingilis dilində “boşluq” deməkdir. Bu analizin nəticəsində hansı boşluqların olduğunu asanlıqla görə bilərik.

**Cədvəl 1.6**

**İnfrostruktur faktorları üzrə Gap analizi**

| | **Faktorlar** | Lənkəran | Quba | Gəncə | Şəki |
|---|---|---|---|---|---|
| Vaciblik | **Təhlükəsizlik və mühafizə** | 4.72 | 4.72 | 4.70 | 4.72 |
| Məmnunluq | | 4.43 | 4.52 | 4.37 | 4.67 |
| Gap | | -0.28 | -0.20 | -0.33 | -0.05 |
| Vaciblik | **Telekommunikasiya** | 4.63 | 4.54 | 4.57 | 4.31 |
| Məmnunluq | | 3.83 | 3.89 | 3.78 | 3.94 |
| Gap | | -0.80 | -0.65 | -0.78 | -0.37 |
| Vaciblik | **Bankomatlar** | 4.40 | 4.39 | 4.55 | 4.27 |
| Məmnunluq | | 3.96 | 3.84 | 3.99 | 3.99 |
| Gap | | -0.44 | -0.56 | -0.56 | -0.29 |

*Mənbə: Dövlət Statistika komitəsi*

**Cədvəl 1.7**

**Destinasiya faktorları üzrə Gap analizi**

| | **Faktorlar** | Lənkəran | Quba | Gəncə | Şəki |
|---|---|---|---|---|---|
| Vaciblik | **Mədəni və tarixi məkanlar** | 4.51 | 4.37 | 4.64 | 4.61 |
| Məmnunluq | | 4.11 | 4.16 | 4.33 | 4.57 |
| Gap | | -0.41 | -0.21 | -0.31 | -0.03 |
| Vaciblik | **Kənd həyatı** | 3.94 | 4.13 | 4.25 | 4.18 |
| Məmnunluq | | 4.09 | 4.22 | 4.04 | 4.23 |
| Gap | | 0.14 | 0.09 | -0.21 | 0.04 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Vaciblik | **Regionun təmizliyi** | 4.62 | 4.67 | 4.66 | 4.36 |
| Məmnunluq | | 3.96 | 4.08 | 4.15 | 4.23 |
| Gap | | -0.67 | -0.59 | -0.51 | -0.12 |
| Vaciblik | **Yeməklərin keyfiyyəti** | 4.78 | 4.64 | 4.66 | 4.52 |
| Məmnunluq | | 4.43 | 4.12 | 4.26 | 4.35 |
| Gap | | -0.34 | -0.52 | -0.40 | -0.18 |
| Vaciblik | **Yerləşdirmə vasitələrinin mövcudluğu** | 4.54 | 4.57 | 4.54 | 4.51 |
| Məmnunluq | | 4.19 | 4.20 | 3.97 | -0.16 |
| Gap | | -0.35 | -0.37 | -0.58 | 4.37 |
| Vaciblik | **İstirahət imkanları** | 4.74 | 4.64 | 4.60 | 4.28 |
| Məmnunluq | | 4.24 | 4.25 | 4.09 | 0.09 |
| Gap | | -0.50 | -0.39 | -0.51 | 4.56 |
| Vaciblik | **Yerli mətbəx** | 4.75 | 4.49 | 4.66 | 4.41 |
| Məmnunluq | | 4.70 | 4.20 | 4.42 | -0.15 |
| Gap | | -0.05 | -0.30 | -0.24 | 3.72 |
| Vaciblik | **Alış-veriş imkanları** | 4.40 | 4.17 | 4.14 | 3.66 |
| Məmnunluq | | 3.77 | 3.40 | 3.73 | 0.06 |
| Gap | | -0.63 | -0.77 | -0.41 | -0.16 |

*Mənbə: Dövlət Statistika Komitəsi*

Yuxarıda verilmiş cədvəllərdə DMT regionlarında müxtəlif faktorlar üzrə Gap analizi verilmişdir. Analiz nəticələrinə əsasən Lənkəranda ən böyük gecə gap gecə əhatı və əyləncə, mobil şəbəkə əhatə dairəsi, gigyena, alı-veriş imkanları, ictimai nəqliyyat kimi faktorlar qeydə alınıb. Təkmilləşdirilməsi vacib olan amillərə isə Qubada alış-veriş imkanları, yerləşdirmə vasitələrinin yüksək qiymətli olması, möbil şəbəkə əhatə dairəsi və s daxildir. Şəkidə isə ictimai nəqliyyat, gigyena və yol işləri kimi faktorlara ehtiyac duyulur. Nəticə olaraq, Şəki və Lənkəranda təhlil edilən faktorlara əsasən daha az gap qeydə alınıb.

**Şəkil 7**

**(RTE)**

**REKREASİYA TURİZM EHTİYYATLARI[3]**




---

[3] *Mənbə: Turizmin əasasları, Bakı 2015, Dosent B.Ə.Bilalov və dosent Ç. G.Gülalıyevin redaktəsi ilə ( http://www.kitabxana.net/files/books/file/1534009392.pdf )*[3]

## 1.3. Azərbaycanda turizm destinasiyalarının potensialının qiymətləndirilməsinə dair aparılmış son tədqiqatlar istifadə edilmiş metodologiya, əldə olunan nəticə.

İnsanların müvəqqəti yer dəyişdirmələrinin hədəfi müəyyən bir **turistik destinasiydır**. Turizm destinasiyası dedikdə eyni mədəniyyət, iqlim və təbiət şəraitinə sahib, təbii və mədəni zənginlikləri olan, müştərilərə təqdim etmək üçün o bölgəyə xas fəaliyyətlərin inkişaf etdirildiyi, yerləşdirmə, qidalandırma, nəqliyyat və kommunikasiya imkanlarına malik, müəyyən bir marka və imici olan coğrafi bir sahə nəzərdə tutulur.

**Destinasiya** - Azərbaycan dilinə tərcümə etdikdə; "Çatılacaq olan yer" mənasını verir. Destinasiyanı başqa sözlə belə izah etmək olar: - "Ziyarətçilərin maraq və diqqətini çəkən o cümlədən fərqli təbii xüsusiyyətləri və ya cazibədarlıqları olan məkan"; - Müvəqqəti səfərlər üçün ziyarətçiləri cəzb edən yerlər; - Qitələrdən ölkələrə, əyalətlərə və hətta şəhər, kənd və bölgələrə qədər olan yerlər; - Siyasi tərəfdən ifadə etsək əgər, sərhədləri çəkilmiş bir yerdən daha çox, turistik ehtiyatların toplandığı bir coğrafi məkandır.

Ümumdünya Turizm Təşkilatına (WTO) 1992 və ya Bieger 1996-da verdiyi tərifə əsasən destinasiya təyinat, hədəf və ya coğrafi bölgə kimi anlaşılır. Bütün lazımi xidmətlər və infrastruktur, müəyyən bir turistin və ya turizmin olması üçün yer adlanır. Bu səbəbdən destinasiyalar turizm məhsulunun mühüm hissəsidir. *(Roger və başqaları, 2007:68)*

Ümumdünya Turizm Təşkilatına (WTO) görə destinasiya aşağıdakı şəkildə təyin edilməkdədir:

Yerli turizm destinasiyası, ziyarətçinin ən az bir gecə qonaqlayacağı fiziki bir məkandır. Turizm məhsullarına turizm resursları kimi bir günlük səyahət müddətində dəstək xidmətləri və cazibədarlıqları daxildir. Rəhbərliyini müəyyən etdiyi fiziki və idarəetmə sərhədlər ilə, bazarda rəqabətə davamlılıq təyin edən imiclərə və gözəlliklərə malikdir. Turistlər səyahət zamanı ziyarət etmək istədikləri yerə uyğun olaraq müvəqqəti yer dəyişirlər. Buna görə də, destinasiya səyahət edən insanların *müvəqqəti* qaldığı yer kimi ifadə etməyimiz məqsədəuyğundur. İnsanlar məqsədlərinə görə yəni tətil, biznes, gəzib-görmək, alış-veriş, dini və s səbəblərə uyğun olaraq destinasiya seçirlər.

Turizm təyinatının konseptual qiymətləndirilməsi müxtəlif dayanacaq nöqtələrini izləyə bilər. Ümumilikdə turistin vaxt keçirdiyi fiziki yer və ən azı bir gecə qaldığıdır. Turistlər seçdiyi destinasıyadan ən az bir günlük xidmət almağa məcburdular. Təyin olunan destinasiyanın inzibatı və fiziki sərhədləri vardır. Onun idarə olunmasını müəyyən edən imic və qavrayış var. Bir çox amillərin olması halında o, şəbəkə qura, əməkdaşlığa və daha böyük

məqsədə çevrilə bilər. Eyni ilə planlaşdırılmış səyahət məntəqələri xəritəsini destinasiyaya bənzətmək mümkündür.

Turist məkanı olmaq üçün sözügedən yerin həmin bölgəni müəyyən edən amilləri olmalıdır. Bu amillərin sərhəddində müəyyənedici amillərin və əsas sahənin müəyyən edilməsi, onların rəqabət qabiliyyəti artdıqca inkişafını vacib saxlayır. Buhalisin (2000) təyinedicilərinə görə, təyinatın əsas amilləri aşağıdakılardır.

- **Turistik yerlər** məslən təbii faktorlar, insan tərəfindən yaradılan faktorlar, tarixi-mədəni abidələr, xüsusi hadisələr vs
- **Əlçatanlıq** məsələn yollar daxil olmaqla bütün nəqliyyat sistemi
- **Turistik xidməətlər** məsələn qonaqlama, ev sahibliyi xidmətləri, digər turistik xidmətlər
- **Məhsul servisi** məsələn turistlərin ehtiyaclarına uyğun hər cür məhsullar, ictimai xidmət buraya aiddir banklar, telekommunikasiya, xəstəxanalar və s

Bir sözlə destinasiyanın tərifi müvafiq aspektləri ümumiləşdirərkən təyinatın xarakterini və müəyyən edən amilləri nəzərə almaqdır. (Angelo Presenza, 2005:89)

Destinasiya, turizmin məqsəd qoyulduğu həmçinin turistlərin oraya getmək və ehtiyaclarını qarşılamaq üçün vaxt keçirmək istəyəcəkləri bir yerdir.

Azərbaycan turizm sahəsində çox zəngin potensiyala malikdir. İllər keçdikcə turizmin inkişafı üçün bir sıra tədbirlər görülmüş, turizmin inkişafı üçün maddi vəsait daha da artırılmışdır. Həmçinin vətəndaşların istirahət ehtiyaclarını təmin etmək üçün turistik qatarlar və Xəzər dənizində gəmi səfərləri yeni xidmət sahəsi kimi formalaşmışdır. Turizm sahəsində görülən işlər, sadəcə yerli səviyyədə deyil, beynəlxalq səviyyədə də turizmin tanıdılması, bu məqsədlə bir çox ölkələrlə turizm sazişlərinin bağlanması nəticəsində ölkəyə gələn turistlərin sayında artım müşahidə olunmuşdur.

Azərbaycanda turizmin inkişafını sürətləndirmək üçün 2003-cü ildə Turizm Nazirliyi tərəfindən 7 turizm mərkəzi müəyyən edildi. Hansı ki, bunlardan 4-ü əsas 3-ü isə əlavə yollardır və bunun əasas məqsədi xarici turistlərin diqqətini təbii ərazilərə çəkmək idi. Əsas turizm destinasiyası Bakı-Xaçmaz, Bakı-Balakən, Bakı-Astara və Bakı-Qazax, əlavə destinasiyalar isə Bakı-Abşeron, Bakı-Qarabağ, Bakı-Naxçıvandır. Azərbaycanın əsas turizm potensialı cümlədən bitki örtüyü və heyvanların, o cümlədən gözəl təbiətə malik olmasıdır. Eyni zamanda son illərdə dövrün inkişafı ilə müasir tələblərə cavab verən otellər və yolların yaxşılaşdırlması həm yerli həmdə xarici turistlərin bölgələrimizə marağını artırmışdır.[4]

---

[4] *(Mədəniyyət qazeti , 2010: 3-4, https://www.elibrary.az/docs/QAZET/qzt2010_425.pdf )*

Destinasiyanın həyat dövrü Cədvəl 1.8- də qeyd edilən faktorlardan asılıdır.

**Cədvəl 1.8**

| | | |
|---|---|---|
| 1 | **CƏLBEDİCİLİK** | Təbii, insan əlindən çıxmış, bir məqsədə xidmət üçün hazırlanmış və miras olaraq keçmiş sivilizasiyalardan dövrümüzə çatmış əsərlər ilə xüsusi hadisələrin bütünüdür. |
| 2 | **ƏLÇATANLIQ** | Bütün kütləvi nəqliyyat vasitələrinin, marşrutların, terminalların və xidmətlərin bir araya gətirən nəqliyyat sistemidir |
| 3 | **MÖVCUD İMKANLAR** | Yerləşdirmə, qidalanma, satın alma və digər turist xidmətləridir. |
| 4 | **UYĞUN PAKETLƏR** | Vasitəçilər və turizm nüfuzları tərəfindən əvvəldən təşkil edilən tur ya da gəzinti paketlərinin bütünüdür. |
| 5 | **HADİSƏ VƏ TƏDBİRLƏR** | Ziyarətləri əsnasında müştərilərin qatıla biləcəyi bütün fəaliyyətləri ifadə edir. |
| 6 | **KÖMƏKÇİ XİDMƏTLƏR** | Turistlərin hər an ehtiyac duyabilecekleri bank, rabitə, poçt, qəzet satıcısı, xəstəxanalar və s. xidmətlərin cəmidir.[5] |

Alimlərin fikirlərinə görə destinasiya turizmlə əlaqəsi olan bir yer, məskunlaşma, yaşayış məskəni olaraq təyin edilir.

Turizm destinasiyaları haqqında araşdırma edərkən ən əlverişli üsul olaraq insanlar arasında sorğu aparmağın daha məqsədəuyğun olduğunu düşündüm. Bununla bağlı məlumat toplayan zaman Azərbaycan Dövlət İqtisad Universitetinin tələbəsi tərəfindən aparılan araşdırma nəticələrindən istifadə etməyi qərara aldım.

Turizm destinasiyaları nəzərlə alınaraq aparılan araşdırmalara görə Azərbaycanda yaşayan 18 yaş və üstü yaş qrupunda olan insanların səyahət etdikləri öyrənilmişdir. İstifadə

---

[5] *Mənbə: Bahar, Ozan ve Kozak, Metin (2005), Küreselleşme Sürecinde Uluslararası Turizm ve Rekabet Edebilirlik, Ankara: Detay Yayıncılık, s. 78. (https://dergipark.org.tr/tr/download/article-file/3853)*

edilən metedologiya Nümunə götürmə üsuludur. Nümunələr seçilərkən online anket sorğusu aparılmışdır.

Araşdırmanın nəticəsində 200 anket əldə edilib və bu anket 2008-ci ildə hazırlanmışdır. Nəticələr SPSS 16.0 (Statistical Programme for Social Sciences) programı ilə analiz edilmiştir. Deməli aparılan sorğu Azərbaycanda yaşayan insanların destinasiya seçiminə təsir edən faktorların öyrənilməsi məqsədi ilə 6 demoqrafik olmaqla cəmi 24 sual 5-li anketlə soruşulmuşdur.

Nəticələr SPSS 16.0 (Statistical Programme for Social Sciences) program ilə analiz edilmişdir. Araşdırmanın nəticəsində aşağıdakı nəticələr əldə edilmişdir. Cədvəl 7-də demoqrafik amillərə əsasən nəticələr qeyd edilib.

**Cədvəl 1.9**

**İştirak edənlərin cinsiyyəti**

| **Cinsiniz** | **Sayı** | **Faizlə** |
|---|---|---|
| Qadın | 104 | 52.0 |
| Kişi | 96 | 48.0 |
| Cəmi | 200 | 100. |

Bu analizin nəticəsi olaraq anketdə 104-ü qadın və 96-sı kişi olmaq üzrə cəmi 200 nəfər iştirak edib. Faizlə isə %52-i qadın  yerde qalan %48-i kişi oldugu cədvəldən görünür.

**Cədvəl 1.10**

**İştirak edənlərin təhsil vəziyyəti**

| **Təhsil vəziyyəti** | **Sayı** | **Faizlə** |
|---|---|---|
| Orta məktəb | 17 | 8.5 |
| Kollec | 20 | 10.0 |
| Ali təhsil | 93 | 46.5 |
| Tam ali təhsil | 52 | 26.0 |
| Doktorantura | 18 | 9.0 |
| Cəmi | 200 | 100.0 |

Cədvəl 1.10-dan göründüyü kimi sorğuda iştirak edənlərin böyük qismi tam ali təhsili olan insanlardır. Həmçinin ən az faizlə qiymətləndirilən iştirakçılar isə 17 nəfər olmaqla yalnız orta məktəb təhsili almış insanlardır.

**Cədvəl 1.11**

**İştirak edənlərin mədəni vəziyyəti**

| **Mədəni vəziyyəti** | **Cəmi** | **Faizlə** |
|---|---|---|
| Evli | 60 | 30.0 |
| Subay | 140 | 70.0 |
| Cəmi | 200 | 100.0 |

Cədvəl 1.1-də sorğuda iştirak edən 200 nəfərin 60-ı evli və 140-ı subay olduğu qeyd edilib. Bu da iştirak edənlərin 30% evli və 70% subay olduğunu göstərir.

**Cədvəl 1.12**

**İştirak edənlərin aylıq gəliri**

| **Aylıq gəlir** | **Sayı** | **Faizlə** |
|---|---|---|
| 1-300 | 66 | 33.0 |
| 301-600 | 45 | 22.5 |
| 601-900 | 44 | 22.0 |
| 901 və daha artıq | 45 | 22.5 |
| Cəmi | 200 | 100.0 |

Verilmiş 1.12-ci cədvəldə sorğuda iştirak edənlərin aylıq gəlirləri göstərilib. Turizm destinasiyasının seçilməsinə büdcə böyük təsir göstərir. Cədvəldən də göründüyü kimi iştirak edənlər içərisində aylıq gəliri 1-300 azn arası olan insanların sayı daha çoxdur.

**Cədvəl 1.13**

**İştirak edənlərin səyahət səbəbləri**

| **Səyahət səbəbi** | **Sayı** | **Faizlə** |
|---|---|---|
| Dostlar\Qohumlar | 51 | 25.5 |
| İş | 44 | 22.0 |
| Aktiviteler\Etkinlikler | 56 | 28.0 |
| Alışveriş | 31 | 15.5 |
| Digər | 18 | 9.0 |
| Cəmi | 200 | 100.0 |

**Cədvəl 1.14**

**İştirak edənlərin gediləcək yer seçiminə təsir edən faktorları**

| **Gediləcək yer seçiminə təsir edən faktorlar** | **Sayı** | **Faizlə** |
|---|---|---|
| Təbiət | 49 | 24.5 |
| Tarixi və dini | 30 | 15.0 |
| Destinasiya şəkli | 35 | 17.5 |
| Mədəniyyəti | 29 | 14.5 |
| Memarlıq xüsusiyyətləri | 24 | 12.0 |
| Digər | 33 | 16.5 |
| Cəmi | 200 | 100.0 |

**Cədvəl 1.15**

**Turizm növünün seçilməsi üçün cəlbedici amillərlə bağlı**

| **Cəlbedici amillər** | **Faizlə** | **Cəlbedici amillər** | **Faizlə** |
|---|---|---|---|
| Alışveriş | 2.435 | Sosyal faktorlar | 2.515 |
| Rekreasiya fəaliyyəti | 2.495 | Təhlükəsizlik | 2.200 |
| Mətbəxi | 2.355 | Gecə həyatı | 2.715 |
| DiniYerlər | 2.660 | Əyləncə mərkəzləri | 2.505 |
| Səyahət xidmətləri | 2.325 | Pul dəyəri | 2.290 |
| Nəqliyyat | 2.255 | Mədəniyyət \ İnsanlar \ İşçilər | 2.465 |
| Qonaqpərvərlik xidməti | 2.260 | Mədəniyyət və sənət | 2.425 |
| Təbiət | 2.280 | Tarixi yerlər | 2.405 |
| Siyasi/Hüquqi Faktorlar | 2.550 | İstirahət | 2.275 |
| Texnoloji amillər | 2.545 | Ailə bağları | 2.560 |
| EkonomikFaktörler | 2.505 | Xüsusi yerlər və hadisələr | 2.505 |
| Mədəni faktorlar | 2.475 | İqlimi | 2.370 |

Verilmiş cədvəl və diaqramda turizm növünün seçilməsi ilə əlaqədar olaraq növlər faizlə göstərilib. Ən çox faiz göstəricisi olmaqla Gecə həyatı tutur, hansı ki, 2,715 faiz təşkil edib. Ən az göstərici isə 2,200% və 2,255% olmaqla uyğun olaraq təhlükəsizlik və nəqliyyat amilləri tutur. Daha ətraflı aşağıdakı diaqramda analiz etmək mümkündür.[6]

Aparılan bu analizin nəticəsində bəzi %-lər əldə edilib. İnsanların destinasiya seçiminə nələrin təsir etdiyi cədvəldən görünür. Cədvəldən də göründüyü kimi bu faktorların bəziləri yüksək bəziləri aşağıdır. Bunlardan mətbəx mədəniyyəti, səyahət xidmətləri, nəqliyyat xidmətləri, mədəni faktorlar, təbii çevrə, hava şərtləri, tarixi yerlər və təhlükəsizliyin daha çox nəzərə alındığı müəyyən edilmişdir. Alışveriş, dini yerlər, rekreasiya fəaliyyəti, iqtisadi faktorlar, ekonomik faktorlar, ailə bağlıarı, xüsusi hadisələr (müharibələr, radioaktiv partlayış vs), tədbirlər və sosial faktorlar daha az təsir göstərdiyi hesablanmışdır.

[6] *(Çekici Faktörlerin Yerli Turistlerin Destinasyon Seçimine Etkisi Üzerine Bir Araştırma: Azerbaycan Örneği; http://unec.edu.az/application/uploads/2018/11/EK-C-FAKT-RLER-N-YERL-TUR-STLER-N-DEST-NASYON-SE-M-NE-ETK-S-ZER-NE-B-R-ARA-TIRMA-AZERBAYCAN-RNE-.pdf)*

**Şəkil 8**


Cəlbedici amillər
İQLIMI
XÜSUSI YERLƏR VƏ HADISƏLƏR
AILƏ BAĞLARI
İSTIRAHƏT
TARIXI YERLƏR
MƏDƏNIYYƏT VƏ SƏNƏT
MƏDƏNIYYƏT \ İNSANLAR \ İŞÇILƏR
PUL DƏYƏRI
ƏYLƏNCƏ MƏRKƏZLƏRI
GECƏ HƏYATI
TƏHLÜKƏSIZLIK
SOSYAL FAKTORLAR
EKONOMIKFAKTÖRLER
TEXNOLOJI AMILLƏR
SIYASI/HÜQUQI FAKTORLAR
TƏBIƏT
QONAQPƏRVƏRLIK XIDMƏTI
NƏQLIYYAT
SƏYAHƏT XIDMƏTLƏRI
DINIYERLƏR
MƏTBƏXI
REKREASIYA FƏALIYYƏTI
ALIŞVERIŞ
2,370
2,505
2,560
2,275
2,405
2,425
2,465
2,290
2,505
2,715
2,200
2,515
2,505
2,545
2,550
2,280
2,260
2,255
2,325
2,660
2,355
2,495
2,435
0
500
1,000
1,500
2,000
2,500
3,000
2.475

# II FƏSİL
# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAFINDA TURİZMİN ƏHƏMİYYƏTİNİN TƏSVİRİ

## 2.1 Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin inkişaf tarixi və onun növləri, turizm ehtiyatları

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafı əsasən iqtisadi baxımdan bir çox amillərə təsir göstərir və bunlardan biri də **turizm** amilidir.

Turizm amili dedikdə turizm sektorunun inkişafı ilə bağlı olaraq turizm bazarının fəaliyyəti nəzərdə tutulur. Digər səbəb isə turizmin əlaqəli olaraq başqa bazarlara da təsir etməsidir. Turizm sektorunda turizm ehtiyyatları yəni, otellər, motellər, mehmanxanalar və həmçinin restoranlar bununla yanaşı nəqliyyat vasitələrinin gəlirləri turizm sektoruna müsbət təsir göstərir.

Qələbədən dərhal sonra azad edilmiş şəhər və kəndlərin baş planını və layihələr hazırlanıb, bərpa işlərinə başlanılmışdır. “Ağıllı şəhər” tikilməsi, meşələrin salınmas və həmçinin Qarabağ bölgəsini təmiz ekoloji region kimi dünyaya tanıtmaq hədəflənib. Planlaşdırılan bütün bu işlər Qarabağ zonasında turizmin inkişafına yol açır. Həmçinin müasir dövrün tələblərinin nəzərə alınması, bölgənin ekoloji şəraiti ilə turizmə multipikasiya effektinin necə təsir etdiyini anlamağı asanlaşdırır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının turizm amili ilə qarşılıqlı əlaqəsini detallı şəkildə aşağıda qeyd edə bilərik. Qarabağ iqtisadi rayonu dedikdə Ağdam, Şuşa, Füzuli, Tərtər, Ağcabədi və Bərdə rayonları nəzərdə tutulur. Həmçinin Zəngəzur iqtisadi rayonu Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarını əhatə edir.

İlk olaraq deyə bilərik ki, Füzuli-Xocavənd-Şuşa-Laçın, Füzuli-Cəbrayıl-Zəngilan, Zəngilan-Qubadlı-Kəlbəcər-Laçın, Bərdə-Ağdam istiqamətlərində turizm marşrutlarının təşkili nəzərdə tutulur. Regionların ayrı-ayrılıqda turizm potensialını qiymətləndirən zaman, Şuşa şəhəri olduqca diqqət mərkəzindədir və yüksək qiymətləndirilir. Bu dəyərin nümunəsindən biri də Azərbaycan Prezidentinin sərəncamı ilə 2021-ci ilin əvvəllərində Şuşanın Azərbaycanın Mədəniyyət Paytaxtı elan edilməsidir. Bu şəhərdə mədəni tədbirlərin təşkili, festivallar, turizm məhsullarının təqdimi, beynəlxalq sərgilərin və digər mədəni-kütləvi görüşlərin keçirilməsi aktual mövzulardandır. Bütün bunları nəzərə alaraq qeyd etmək mümkündür ki, aparılan bu işlər turizmin inkişafına müsbət təsir göstərəcək.

Milli Məclisin plear iclasında Əli Məsimlinin qeyd etdiyi digər ifadələrə görə, "Laçın-Kəlbəcər, Qubadlı-Zəngilanda təbiət, qış və sağlamlıq turizmi inkişaf etdiriləcək, Füzuli-Ağdam-Cəbrayılda isə dağıdılmış mədəniyyət müəssisələri və işğalın nəticələrini göstərmək üçün bəzi tikililər turistlərə nümayiş etdirilmək üçün qorunub-saxlanılacaq. Odur ki, bütün bunlar turizmin iqtisadiyyatla yanaşı siyasi-təbliğ tərəfinin olduğunu deməyə imkan verir. Dünya turizm sektorunda bu çox böyük güc demədir. "

Həmçinin coğrafi şəraitə əsasən də demək olar ki, ölkəmizin cənub istiqamətində çoxlu turizm potensialı var. Xudafərin vasitəsilə İran, Naxçıvan üzərindən isə Türkiyə turistlərinin gəlməsi gözlənilləndir. İşğaldan azad edilmiş ərazilərə bu iki istiqamətdən turist axını olacaq. Azərbaycan Prezidentinin tapşırıq və göstərişləri ilə prioritet bazasının yaradılmasında çıxlu işlər görülür. Digər fəsillərdə Milli prioritetlər haqqında ətraflı məlumat verilmişdir. Bu istiqamətdə də bir çox layihələr hazırlanır.

Dövlət səviyyəsində, özəl sektor və alimlərin birgə səyi sayəsində Dağlıq Qarabağın sıfırdan başlanan həm təbii, həm də antropogen turizm resursları gündəmə gətirilir. Bölgədə turizmin inkişafı üçün yeni marşrutlar yaradılır. Dünya standartlarına uyğun magistral yollar çəkilir, beynəlxalq hava limanları tikilir. Bu yerlər dağlıq ərazi olduğundan dağ və alpinizm turizmi xüsusi diqqətdədir. Bundan başqa, gəzintilər, aktiv və ekstremal turizmin inkişafı üçün bir-birindən maraqlı layihələr işlənib.

Zəngilanda çoxlu sayda termal su mənbələri mövcuddur. Burada tarixi və dini abidələr, çinar meşəsi var. Odur ki, təbiətinin zənginliyinə görə Qarabağın gələcəyi daha çox *ekoturizmlə* bağlı ola bilər. Bundan səriştəli istifadə edilərsə, çox güman ki, Qarabağ dünyada mühüm ekoloji turizm məkanlarından birinə çevrilə bilər.

Xudafərin körpüsü, Azıx mağarası gələcəkdə ən populyar turist marşrutlarından hesab olunur. Mədəni-tarixi abidələrimiz dağıdılsa da, onların bərpasından sonra həmin istiqamətlərə turların təşkili reallaşacaq. Müasir "İpək yolu" layihəsi mövcuddur. Azərbaycana daxil olmaq üçün Qars-İğdır-Naxçıvan marşrutu yaradılacaq, İran ərazisindən dəmir yolu xəttinin çəkilməsindən sonra *turpaketin maya dəyəri* də aşağı düşəcək.

İşğaldan azad olunmuş əraziləri bir-birinə bağlayan müasir yol-nəqliyyat infrastrukturunun yaradılması planlaşdırılıb. Azərbaycanın əsas hissəsini Naxçıvan və daha sonra Türkiyə ilə bağlayacaq olan Zəngəzur dəhlizinin əsasının qoyulması bölgənin beynəlxalq logistika mərkəzinə çevrilməsi potensialını artırıb. Bununla yanaşı enerji təminatı və digər məsələlərinin həll edilməsi, ən qabaqcıl texnologiyalar əsasında yaşayış məskənlərinin və istehsal obyektlərinin yaradılması istiqamətində işlər görülür. Cənab Prezident İlham Əliyevin post-konflikt dövründə əsas məqsədi işğaldan azad olunmuş

əraziləri ən müasir standartlara uyğun bərpa etməklə yanaşı, yaranmış geniş imkanları həm də Azərbaycanın regionda yeni strateji maraqlarının təmin edilməsi üçün səfərbər etməkdir. Görülən işlər Qarabağa ən qısa zamanda dinc həyatın qayıtması, o cümlədən, regionun iqtisadi turizm potensialının formalaşdırılmasına xidmət edir.

Qarabağın və Şərqi Zəngəzurun yeni yaranan mənzərəsi təkcə quruculuq işləri ilə kifayətlənmir. Sözsüz ki, bu prosesdə ən mühüm məqamlardan biri dövlət başçısının Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə əsasını qoyduğu Zəngəzur dəhlizidir. İstər bu dəhliz, istərsə də Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilməsi planlaşdırılan digər nəqliyyat və kommunikasiya layihələri yekun nəticədə bu gün demək olar ki, sıfırdan qurulan bölgənin gələcəkdə bütün Cənubi Qafqazda tərəqqi və inkişafın lokomotivinə çevrilməsini hədəfləyir.

Biraz keçmişə nəzər salsaq əgər, Qarabağın işğaldan əvvəlki dövrlərdə fəaliyyət göstərmiş mədəni və səhiyyə obyektlərinin olduğunu görərik. Yaxın perspektivdə bu istiqamətdə böyük irəliləyişə nail olmaq tamamilə mümkündür. Bununla da Qarabağda turizmin inkişafı özü ilə bərabər otelçilik sektorunu da irəli aparmağa imkanlar yaradacaq.

Gördüyümüz kimi, Qarabağ iqtisadi rayonlarının inkişafının turizmlə əlaqəsi sıx bağlıdır. Həm təbiətinin əlverişli olması həm də yenidən qurma və bərpa işlərinin müasir dövrün tələblərini nəzərə almaqla aparılması həmin ərazidə turizmin inkişafını daha da sürətləndirəcəkdir. Turizm amili dedikdə ilk ağıla gələn fikir səyahət, müalicə, istirahət olur. Odur ki, bu ərazidə hər bir tələblərin qarşılanması mümkündür. Yaxın zamanda həəyata keçirilən və o cümlədən keçirilməsi planlaşdırılan işlərin bir qismi haqqında az da olsa məlumat yuxarıda qeyd edilib.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizmin inkişaf tarixi qədim dövrlərə gedib çatır. Hələ işğaldan əvvəl də bu bölgədə yüksək turizm potensialından irəli gələrək turizm fəaliyyəti göstərən turizm ehtiyyatları mövcud idi.

Qarabağ iqtisadi rayonunun tərkibinə Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocavənd, Şuşa, Tərtər regionları daxildir.

Ağcabədi-Ağcabədi rayonu qədim tarixi ilə seçilir, rayonun ərazisi 1756 $km^2$ sahəni təşkil edir. Ağcabədi rayonu Qarqar çayının hər iki sahilində və o cümlədən, Mil və Qarabağ düzlərinin həmsərhəddində yerləşir. Ağcabədi rayonu ekoloji turizm növünün inkişafı üçün əlverişli şəraitə malikdir.

Ağdam- Ağdam rayonu çoxlu turizm potensialına malikdr və Qarabağ bölgəsi yalnız ölkənin tarixi-mədəni mərkəzi deyil, həmçinin gözəl təbiəti ilə seçilir. Sovet dövründə tikilmiş sanatoriya və müalicə mərkəzləri müalicəvi xüsusiyyətlərinə görə daha çox diqqət çəkməyə başlamış və

məşhurlaşmışdı. Hələ əvvəlki dövrlərdə Ağdamda bir çox infrostruktur inkişaf etmişdi, əczaçılıq müəssisələri, kənd təsərrüfatının mexanikləşdirmə və elektrikləşdirilməsi müəssisəsi, yeyinti və emal müəssisələri fəaliyyət göstərmişdi. Sözügedən ərazidə müalicəvi mineral bulaqlar, Gülablı və Şelli kəndlərində sanatoriya və həmçinin Şahbulaqda turizm bazası var idi. Bu müalicə mərkəzləri turistlərin diqqətini çəkərək Azərbaycanı dünyada tanıdır və həmçinin dövlət büdcəsinə güclü təsir edirdi. Gülablı həndində 100 müalicə obyekti, Şahbulaqda 40 yerlik müalicə obyekti və həmçinin Şelli kəndində 50 obyekt fəaliyyət göstərirdi. İşğaldan azad ediləndən sonra Ağdam rayonunun yeni iqtisadi təşəbbüslərinin formalaşması gözləniləndir. Bu rayonda əkinçilik və heyvandarlıq təsərrüfatlarının yaradılması o cümlədən turizmin inkişafı üçün geniş prespektivləri göstərir. Ağdam rayonunda görüləcək işlər siyahısına sahəsi 22,5 ha olan Zəfər muzeyi və açıq hava altında İşğal muzeyi daxildir. Həmçinin Köhnə Çörək muzeyinin bərpası da turistlərin maraq dairəsində olacağına görə bölgənin turizm keyfiyyətinin yaxşılaşmasna yüksək təsir göstərir. Zəfər muzeyinin yaradılması ilə “qara turizm” turizm növü formalaşmış və bu zaman işğal nəticəsində dağıdılan tikililəri turistlərə nümaiş etdiriləcəkdir. İnfrostruktur tam bərpa edildikdən sonra Ağdam ərazisində yeni turizm məhsulları istifadəyə veriləcəkdir hansı ki, ilk mərhələdə əsasən ziyarət məqsədli turistlər daha sonra isə istirahət turizminin təşkili gözlənilir. Ağdam ərazisində əsasən eko, dağ, qış, ovçuluq, dini, sağlamlıq və s turizmi üçün imkanlar var. Müxtəlif növ təbii sərvətlərlə zəngin olan Ağdam ərazisində ekstermal turizm, aqroturizm və yaşıl turizm təşkil edilməsi mümkündür.

Bərdə - Ağdam avtomobil yolunun təməli qoyulub. Həmçinin, Bərdə-Ağdam dəmir yolunun və dəmir yolu vağzalının tikintisi nəzərdə tutulur. Ağdam rayonu ərazisində ekoturizmin inkişafı üçün yüksək potensial var. Hansı ki, iqlim-balenoloji şərait, kurort məqsədləri üçün istifadə edilən mineral bulaqlar və dağ meşələrinin mövcudluğu buna əsas gətirməyə icazə verir. Digər tərəfdən Quzanlı kəndi ərazisindəki Çullu duzlu suyu qeyd etmək mümkündür. Ağdam ərazisinin əlverişli coğrafi şəraiti, adət-ənənələri və qonaqpərvərliyi ilə seçilməsi bu ərazidə yaşıl turizmin inkişafına şərait yaradır. Bununla yanaşı kənd turizminin formalaşması ərazinin turizmini inkişaf etdirməklə yanaşı yerli əhali üçün qazanc yerinin yaradılması deməkdir və bu da öz növbəsində məşğulluğun artmasına gətirib çıxaracaqdır. Ağdam ərazisində yerləşən axar çaylar burada rafting üçün şərait yaradır. (Rafting- raft adı verilən qayıqları çay boyu devirməməyə çalışaraq avar vasitəsi ilə idarə etməkdir.) Zaman keçdikcə turistlərin sayının artması ilə ərazidə yeni turizm obyektlərinin tikilməsi də hazırlanan planlara daxildir. Məhz sözügedən bu obyektlərə otellər, istirahət mərkəzləri, əyləncə mərkəzləri, iaşə müəssisələri aiddir.

Bərdə - Bərdə rayonu Qarabağın digər rayonlari kimi böyük tarixi əhəmiyyətə malikdir. Aparılan arxeoloji qazıntılar zamanı tapılan matereallar buna sübutdur. Rayonun ərazisindən bir çox çaylar axır ki, bunlara Tərtər, Xaçın və Kür çayı aiddir. Həmçinin rayonun ərazisində boz və boz-çəmən torpaqları yayılmışdır, bitki örtüyü isə əsasən quru çöl və yarımsəhra tiplidir. Tuqay meşələri Kür çayı sahillərindədir və raonun ərazisində Bərdə yasaqlığı var.

Füzuli – İlkin adı Qarabulaq olan füzuli rayonunun təməli 1827ci ildə qoyulmuşdur. Daha sonra inzibati rayonlardan birinə çevrilmiş və 1930da Qarayagin adlandirilmişdir. 1959cu ildə isə dahi şairimiz Məhəmməd Füzulinin anadan olmasinin 400 illiyi şərəfi ilə Füzuli rayonu adlandırıldı. Xüsüsi ilə türbələrlə zəngin olan Füzuli rayonunda başqa tarixi - dini abidələr də var. Bunlara nümunə olaraq Babı kəndindəki Şeyx Babı Yaqub türbəsini, Veysəlli kəndində yerləşən Mirəli türbəsini və Əhmədalılılar kəndindəki Cəlil türbəsini sadlamaq olar. Bunlardan biri də Karvansaray tikilisidir. Qarğabazar kəndində inşa olunan bu abidəninin eni 23,7 uzunluğu isə 34,7 mdir. Əvvəllər də güclü turizm potensialına sahib olan Füzuli rayonu 2ci böyük veten müharibemizdə düşməndən tamamilə təmizlənərək iqtisadi inkişafın əsas lokomotiflərindən birinə çevriləcəyi aşikardır. İşğaldan öncə də Taxılçılıq pambıqçılıq üzrə öndə olan rayonlardan biri kimi digər kənd təsərrüfatı sahələrində də inkişaf etmişdi. Sənaye məhsulu istehsalında da aparıcı olmuşdur. Rayon İranla sərhəddə yerləşdiyi üçün xarici iqtisadi əlaqələrdə də rolu əvəzsizdir. Həmçinin rayon aqrar sənaye potensialına malik olduğu üçün bərpa işlərindən sonra bu bundan daha chox istifade edileceyi gözlenilir. İlkin adı Qarabulaq olan füzuli rayonunun təməli 1827ci ildə qoyulmuşdur. Daha sonra inzibati rayonlardan birinə çevrilmiş və 1930da Qarayagin adlandirilmişdir. 1959cu ildə isə dahi şairimiz Məhəmməd Füzulinin anadan olmasinin 400 illiyi şərəfi ilə Füzuli rayonu adlandırıldı. Xüsüsi ilə türbələrlə zəngin olan Füzuli rayonunda başqa tarixi - dini abidələr də var. Bunlara nümunə olaraq Babı kəndindəki Şeyx Babı Yaqub türbəsini, Veysəlli kəndində yerləşən Mirəli türbəsini və Əhmədalılılar kəndindəki Cəlil türbəsini sadlamaq olar. Bunlardan biri də Karvansaray tikilisidir. Qarğabazar kəndində inşa olunan bu abidəninin eni 23,7 uzunluğu isə 34,7 mdir. Əvvəllər də güclü turizm potensialına sahib olan Füzuli rayonu 2ci böyük veten müharibemizdə düşməndən tamamilə təmizlənərək iqtisadi inkişafın əsas lokomotiflərindən birinə çevriləcəyi aşikardır. İşğaldan öncə də Taxılçılıq pambıqçılıq üzrə öndə olan rayonlardan biri kimi digər kənd təsərrüfatı sahələrində də inkişaf etmişdi. Sənaye məhsulu istehsalında da aparıcı olmuşdur. Rayon İranla sərhəddə yerləşdiyi üçün xarici iqtisadi əlaqələrdə də rolu əvəzsizdir. Həmçinin rayon aqrar sənaye potensialına malik olduğu üçün bərpa işlərindən sonra bu bundan daha chox istifade edileceyi gözlenilir.

Xocavənd- Strateji əhəmiyyəti olan Xocavənd rayonu böyük iqtisadi potensialı olan bölgələrdən biridir. Hər bir qarışı tarixin canlı şahidi olan Xocavənd rayonu, həm də dağlıq relyefi və gözəl mənzərələri ilə turistlərin diqqətini cəlb edə bilər. Bəşər sivilizasiyasının beşiyi olan Azıx mağarası və Tağlar mağarasının, V-VIII yüzilliklərə aid olan qalaların, Alban məbədlərinin də, bu ərazidə yerləşməsi buranin turizm əhəmiyyətini artırır. Böyük xammal bazasına, təbii ehtiyatlara sahib olması rayonun çoxlu sənaye imkanlarının xəbərçisidir. Əsas təsərrüfat sahələri heyvandarlıq, quşçuluq, taxılçılıq, bostançılıq olan Xocavəndin üzümü və yaşıl mərməri də məşhurdur. Burdaki şirin su yataqları, əhəng daşı istehsalına yararlı qaynaqlar, Quruçay, Xonaşen, və Köndələnçay çayları da vardır. Ümumi sahəsi 25,5 min hektar olan Xocavənd meşəsində palıd ağacları qırılaraq ermənilər tərəfindən daşınıb, Xonaşen çayının kənarlarında bitən təbii meşə, Kuropatkin adlanan ərazisində 6 min hektara qədər ərazidə olan ağaclar qırılaraq məhv edilib. Rayonun Qırmızı bazar qəsəbəsində yaşı iki min və min il olan iki qədim Şərq çinarı təbiət abidəsi kimi qorunurdu. Respublikanın "Qırmızı kitab"ına salınmış hündürlüyü 12 metr, yaşı 100 ilden çox olan azot ağacları da Qarakənd kəndində mühafizə edilir.

Şuşa – Şuşa Qarabağın ən gözəl guşələrindən biridir, mədəniyyət ocağıdır. Şuşa şəhərinin turizm potensialı digər rayonlarla müqaisədə daha çoxdur. Şuşanın təmiz havası, bənzərsiz təbiəti turizmin inkişafı üçün daha çox fürsətlər yaradır. 21-ci əsrdə müasir dövrün formalaşması ilə birlikdə "Ev turizmi" anlayışı formalaşmağa başlasa da bu anlayış hələ keçən əsrdən artıq Şuşada mövcud idi.Eləcə də Xələfli və Turşsu kəndlərində yerlilər təxminən 2 mindən çox ailələr öz evlrini turistlərin istifadəsinə təklif edirdilər. Şuşanın infrostrukturu elə qurulmuşdur ki, turistlər üçün bütün istirahət imkanları mövcuddur. Şuşada geniş yay kinoteatırı fəaliyyət göstərmiş, müalicə sanatoriyaları açılmış və turistlərin diqqətini çəkməyə başlamışdır. Şuşanın təmiz havası ağciyət, astma, nəfəs borusu xəstəliklərindən əziyyət çəkənlər üçün əvəzsizdir. Həmçinin Şuşada yerləşən Turşsu müalicəvi suyu Şuşaya gedən turistlərin ən sevdikləri müalicə mərkəzlərindən biridir. Qarabağ regionunda göeməli yerlər, mənzərələr çox olsa da Şuşanın tarixi mədəni əhəmiyyəti və qədimliyi ilə turizmə daha çox potensiallar təklif edir. Odur ki, Şuşa şəhərində həm sağlamlıq turizminin inkişafı həm də istirahət məqsədi ilə seçilən turizm növlərini inkişaf etdirmək mümkündür. Şuşada Pənahəli xanın sarayı, Yuxarı Gövhər ağa məscidi, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evi, Molla Pənah Vaqifin məqbərəsi, Şuşa mağara düşərgəsi, Şuşa qalası kimi tarixi abidələr və muzeylər ziyan görsə də, sürətlə bərpa işləri aparılacaq. Şuşa tarixi, sağlamlıq və mədəni turizm üçün böyük imkanlara malikdir. Turşsu yaylaqları, Səkili bulağı, İsa bulağı, Şəmilin bulağı, Cıdır düzü və s. turizm üçün geniş perspektivlər vəd edir. Turşsu şəfalı və müalicəvi

suyu isə sağlamlıq turizminin inkişafına gətirib çıxaracaq. Şuşa həm də Qarabağ xalçaçılıq sənətinin mərkəzlərindən biri kimi inkişaf imkanlarına malikdir”. Şuşa şəhərində “Xarıbülbül” festivalı və “Xarıbülbül” otelinin tikilməsi şəhərin turizmini daha da yaxşılaşdırmağa kömək edir. Onu da qeyd edək ki, Füzuli, Zəngilan və Laçın rayonlarında beynəlxalq hava limanlarının tikintisi Şərq-Qərb nəqliyyat dəhlizinin, həmçinin, yükdaşımaların və turizmin inkişafına da müsbət təsir göstərəcək. Təbii ki, bütün bunlar Şuşa şəhərinin keçmiş şöhrətini nəinki bərpa edəcək, hətta dəfələrlə yüksəldəcək. Şuşa yenidən nəinki Azərbaycanın, bütün türk və islam dünyasının, Qafqaz coğrafiyasının, eləcə də dünyanın əsas turizm mərkəzi olacaqdır.

Tərtər – Tərtər rayonunun Suqovuşan qəsəbəsinə təkcə yerli yox həmçinin əcnəbi turistlərin gəlmə ehtimalları da böyükdür. Talış-Tapqaraqoyunlu-Qaşaltı yolu Suqovuşan və Naftalanı əlaqələndirir, bu da fürsət yaradır ki sağlamlıq və istirahət turizmi birləşsin. Naftalanda dincələn turistlər tez bir zamanda Suqovuşana gələ bilərlər. Azərbaycanın inzibati rayonlarından biridir.Qarabağ düzü ərazisində yerləşən bu Rayonda Turizimçilik zəif inkişaf etmişdir. Turizimin inkişaf sahəsi tarixi memarlıq abidələridir. Burada 24 tarix və mədəniyyət abidələri var. Onlardan 1 ədədi dünya, 15 ədədi ölkə əhəmiyyətli arxeoloji abidə, 7 ədədi yerli əhəmiyyətli memarlıq, 1 ədədi isə yerli əhəmiyyətli arxeoloji abidədir. Həmin abidələr Tərtər şəhərində, Buruc, Hacıqərvənd, Evoğlu, Hüsənli, Sarov, Borsunlu, Bəyim Sarov,Xoruzlu, Dəmirçilər kəndləri ərazisində yerləşirlər. Burada həmçinin 3 məscid, 15 kurqan, 2 nekropol, 2 yaşayış yeri, 1 buzxana, 1 türbə mövcuddur. Rayonun Çiləbürt kəndində Üç körpə monastırı,Çiləbürt monastırı ,Çiləbürt Qalası mövcuddur. Bunlardan əlavə, Tərtər çayının hər iki tərəfində İstisu mineral bulağı vardır ki, bu da turistlərin diqqətini cəlb edir. Şəhərin mərkəzində, turistlərin qalması üçün “Elit inn otel” fəaliyyət göstərir.

Şərqi Zəngəzur iqtisadi rayonunun daxilinə Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonları daxildir.

Kəlbəcər- Kəlbəcər şəhəri Bakıdan təxminən 450 km qərbdə, Bərdə - İstisu (Kəlbəcər) avtomobil yolunun kənarında, Tərtər (çay) çayı sahilində, sıldırım qayalıqlar üzərində yerləşir. Azərbaycanın ən yüksək dağ rayonlarından biri də Kəlbəcərdir və sözügedən bu ərazidə əsasən qızıl, xrom yataqları üstünlük təşkil edir. Bununla yanaşı Kəlbəcər rayonundakı Şorbulaq və Ağyataq kəndlərində civə yataqları mövcuddur. Kəlbəcər rayonunda ümumi olaraq 200 tondan çox civə yatağ, 4 mərmər onksi nefroid yatağ təxminən 800 ton əhatə edir, 1 obsidan yatağı, 1 listvenit yatağı vardır. O cümlədən bir çox civə yataqları işğal altında olan zaman istismar nəticəsində tükənmişdir. Ölkənin iqtisadiyyatına qeyri-neft sektorunun, əsasən də nəcib metalların istehsalı önəmli yer tutur. Kəlbəcərdə olan qızıl yataqlarının istismarı dünya

bazarında qızılın qiymətinin qalxmasına və bununla da ölkə üçün müsbət iqtisadi inkişaf tendensiyasının formalaşmasına gətirib çıxaracaqdır. Turizm sahəsinin inkişafı üçün Kəlbəcər rayonunun təbiəti, relyefi və zəngin mineral suları böyük əhəmiyyət daşıyır. Yuxarı və Aşağı İstisu yataqları çox böyük müalicəvi təsirə malikdir. Kəlbəcər ərazisində yerləşən İstisu mineralları özündə əlverişli kimyəvi tərkib və qaz tərkibinə görə, həmçinin yüksək temperaturuna görə xüsusilə fərqlənir. Bu sular canlı orqanizmin həm daxili həm də xarici xəstəliklərini müalicə etmək üçün faydalıdır. Bir çox mənbələrdə qeyd edildiyinə görə 80-ci illərdə 800 min su istehsal edilən mineral su doldurma zavodları və iri kurort mərkəzləri tikilmişdir. Aparılan bərpa və yenidən qurma işləri ilə birliktə Orada 50 mindən çox insanın müalicə aldığı Həmçinin bir çox göllər hansı ki, Zalxagölü, Alagöl, Qaragöl və Dəlidağ (3616), Qamışdağ(3724) kimi zirvələri də turistik məkanlar olaraq əlverişli ərazilərdir. Kəlbəcər rayonu qədim tarixi mədəniyyətə malikdir. Kəlbəcər rayonu ərazisindəki qayaüstü rəsmlər Qobustan rayonundakı yazılı və şəkilli daşların bənzəridir. Kəlbəcər rayonu ərazisində kənd təsərrüfati sahəsi istiqamətində əsaasən heyvandarlıq və əkinçilik inkişaf etmişdir. Geniş dağ otlaqlarına malik rayonun relyefi əsasən heyvandarlığın inkişafı üçün əlverişli hesab edilir. Rayonun ərazisində əsasən qonur dağ-meşə və çimli dağ çəmənlikləri geniş sahə tutur. Ərazinin iqlim şəraitinə görə burada əkinçilik, bağçılıq, üzümçülük, tərəvəzçilik və tütünçülük inkişafı mümkündür. Bununla yanaşı 30 min hektara yaxın meşə sahəsi var.

Laçın- Laçın rayonunun bəzi investisya tutumlu sahələri var ki, bunlara kənd təsərrüfatı sahəsi aiddir. Hansı ki, heyvandarlıq, toxuculuq, tikinti və turizm sektoru bu sahəyə aiddir. Laçın rayonunda işğaldan əvvəl təxminən 82 faiz kənd əhalisi olub və bu göstəricilər fermerlər üçün fürsət yaradır. Laçın rayonu ərazisində toxuculuq sənəti geniş inkişaf etmişdi. Toxuculuq sahəsinə daxil olan at çulu, palaz, xalça, zili, xurcun, fərməş hərzaman xüsusi gözəlliyi ilə fərqlənmişdir. Bütün dunyada “Qasımuşağı” adı ilə tanınan xalçanın adı Laçın rayonu ilə bağlıdır. Bütün bu istiqamətlər Qarabağın turizm inkişafına dəstək olur. Azərbaycanın cənub-qərbində yerləşən Laçın rayonu geniş turizm potensialına malikdir. Ümumi sahəsi 21 min hektardan çox olan yasaqlıq və İlıqsu müalicəvi əhəmiyyətə malik mineral bulağı, zəngin fauna və florsı vardır. Laçın rayonunun dağlıq olması gələcəkdə burada dağ və qış turizminin inkişafına imkan yaradır. Qafqaz Albaniyası dövrünə aid 300-ə yaxın tarixi-mədəni və memarlıq abidələri vardır. Həmçinin Laçında hərzaman toxuculuq və misgərlik kimi sənət növləri olmuşdur. Bu da gələcəkdə turizmin inkişafı zamanı turistlərə Azərbaycan tarixi mədəniyyətini öz gözləri ilə görmək fürsəti yaradır. Laçın rayonunda əsasən civə yataqları, əhəng istehsalına yararlı əhəng daşı yataqların, mərmərləşmiş əhəngdaşı yataqları, tuf və gil

yataqları həmçinin mineral yataqlar mövcuddur. Laçın rayonunun turizmə ən yüksək təsiri Laçın hava limanının tikilməsidir. Ölkənin dəniz səviyyəsindən ən yüksəkdə yerləşən hava limanı, təxminən dəniz səviyyəsindən 3 kilometr yüksəkdə yerləşməsi və 6 təyyarə dayanacağının tikilməsi planlaşdırılıb.

Kəlbəcər-Laçın bölgəsi tarixi -mədəni abidələrlə olduqca zəngin ərazilərdir. Laçın rayonunda Cicimli kəndində türbələr, kruqanlar və Mağara məbədi turizm fəaliyyəti üçün əlverişli yerlərdir. Həmçinin Kəlbəcər-Laçın iqtisadi rayonundakı İstisu, Minkənd, Tutquncay kimi mineral bulaqlar, iqlim-balneoloji şərait, dağ meşələrindən kurort məqsədləri üçün istifadə edilə bilər.

Qubadlı - Qubadlı rayonu qərbdən Ermənistanla sərhəddir və dağlıq əraziyə malikdir. Ən böyük kəndləri Xanlıq, Dondarlı, Dəmirçilər, Mahmudlu olmaqla 93 kənd daxildir. Həmin bu kəndlərdə təxminən 250-ə yaxın təsərrüfat fəaliyyəti var idi. Digər rayonlar kimi Qubadlı rayonu da zəngin mineral resursları və faydalı qazıntıları ilə məşhurdur. Müxtəlif urizm sahələrinin inkişafı üçün faydalı olan Həkəri və Bazarçay çayları bu ərazidən keçir. Qubadlının gözəl təbiəti və təxminən 13 min hektara yaxın meşələri fürsət yaradır ki bu ərazidə Ekoloji turizm və Təbiət turizm növü inkişaf etdirilsin. Qubadlıda əsasən kənd təsərrüfatı yəni taxılçılıq, heyvandarlıq, tütünçülük, baramaçılıq və üzümçülük inkişaf etmişdi. İşğaldan əvvəlki dövrdə Qubadlı rayonunda 15 min tona yaxın taxıl, 2 min ton tütün, 3 min ton üzüm və 2 min tona yaxın süd məhsulları istehsal edilirdi. Qubadlı rayonunun kənd təsərrüfatında uğurlu fəaliyyəti bu ərazidə Aqroturizm fəliyyətinin mükün olduğunu göstərir. Xüsusən də burada yay, qış və sağlamlıq turizm imkanları mövcuddur.

Zəngilan- Zəngilan rayonu İran, Ermənistan və Naxçıvanla həmsərhəd rayondur. Zəngəzur dəhlizinin işə düşməsi nəticəsində xarici ixrac bazarlarına çıxış mümkünlüyü İran İslam Respublikasından keçən yolları nəzərə almaqla deməyə imkan verir. Zəngilanda yetişdiriləcək malların xaricə çıxması asanlaşacaqdır. Zəngilandan Ordubada gedən dəmir yolu və həmçinin avtomobil yolları İran ərazisindən keçir. Zəngilan rayonunun turizm potensialı onun gözəl təbiəti, meşələri, dağları, bulaqlar, çaylar və beynəlxalq hava limanı, dəmir yolları, avtomobil yollarının mövcudluğundan qaynaqlanır. Zəngilan, Qubadlı, Laçın yolu ilə Şuşaya olan məsafə çox qısa və daha asan olacaqdır. Bununla da turistlər üçün səyahət zamanı əlçatanlıq asanlaşmış olacaq. Otellər, istirahət zonalari yaradıldıqdan sonra kənd turizminin inkişafı təmin olunacaqdır.

Cəbrayıl- Cəbrayıl rayonu əsasən onun qədim tarixi ilə məşhurdur və Cəbrayıl kəndinin şimalında yerləşən məqbərə əraziyə gedən turistlərin diqqətini çəkir. Cəbrayıl rayonunun adı məhz qədim dövrlərdə orada məskunlaşmış Cəbrayıl tayfasından gəlir. Qarabağ bölgəsinin digər bütün rayonları kimi Cəbrayıl rayonunun da güclü kənd təsərrüfat potensialı var.

## 2.2. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafının turizm amili ilə qarşılıqlı əlaqəsi

Qarabağ və Şərqi Zəngəzurun turizm fəaliyyətinin yenidən canlanması ilə regionun turizm potensialının iqtisadiyyata yüksək təsir edəcəyi planlaşdırılır. Regionun cəlbediciliyində turizm infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıtması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Aydındır ki, bu tədbirlərin daha səmərəli təşkilində yeni iqtisadi rayonlaşmanın əhəmiyyəti böyük olacaqdır.Qarabağ zonası yarandığı gündən bəri öz xüsusiyyətləri ilə, məşğuliyyət formaları, zəngin tarixi-mədəni irsi ilə, təbii ehtiyyatları ilə daha çox yaddaşlarda qalmışdır.

Qarabağ bölgəsinin güclü iqtisadi potensialı hərkəsə məlumdur və aparılan araşdırmalar bu fikrin doğruluğunu təsdiq edir. Həmin bölgədə 1861-ci ildə Zəngəzur qəzası yaranmış, hansı ki onun ətrafı dağ silsilələri ilə əhatələnib. Bu bölgəni Azərbaycan ərazisində yerləşəm və Qarabağa bitişik olan regionlar əhatə edir. Zəngəzur qəzasının daxilində Kəlbəcər, Qubadlı, Cəbrayıl, Laçın, Zəngilan əraziləri yer alır. Daha dəqiq, işğaldan azad edilmiş ərazilərin milli iqtisadiyyatımızın reinteqrasiyasına müsbət təsiri və onun artması, planlaşdırma və proqramlaşdırma işlərinin daha yaxşı səviyyədə təşkil edilməsi, ölkə iqitsadiyyatının rəqabət qabiliyyətinin artırılması, bir sözlə dövlət başçısının fərmanı bütün bu məsələləri tənzimləyir. Bu kimi tarixi faktorlara əsaslanmaqla müasir dövrün tələblərinə uyğunlaşmaq üçün iqtisadi rayonlaşma prinsipi ölkə iqtisadiyyatının inkişafında yüksək rol oynayır.

Bununla yanaşı intensiv şəkildə cəlb edilən xarici investisiyaların, daxili investisiyaların məqsədli şəkildə və səmərəli yönəldilməsində yeni iqtisadi rayonların rolu artacaqdır. Həmçinin Əlavə dəyər strukturunun diversifikasiyalaşması və yeni maliyyə mənbələrinin yaradılmasında da iqtisadi rayonların əhəmiyyəti böyükdür.

Hal-hazırkı şəraitdə Şərqi Zəngəzur iqtisadi rayonunun yeni bölgüsünə daxil olan ərazilərdə bir çox sahələrin inkişaf potensialı vardır. Hansı ki, müxtəlif iqtisadi sahələr, sənaye, turizm, aqrar sektor və kənd təsərrüfatı, ən başda heyvandarlıq və bitkiçilik inkişafı üçün təbii resurslar və iqtisadi potensial var. Aydın məsələdir ki, turizmin inkişafı həmçinin digər sahələrin inkişafı ilə qarşılıqlı əlaqədədir. Zəngəzurun təbii sərvətləri turizm potensialının artırılması üçün vacib olanlardandır. İnternetdən əldə etdiyim məlumatlarda qeyd edilib ki, ermənilər Zəngəzurun təbii sərvətlərini kifayət qədər çox talan ediblər. Bu həmçinin çevrəyə ciddi ziyan vurub, istehsal tullantıları və zəhərli birləşmələr Oxçuçaya axıdılıb. Aydın məsələdir ki, ekoloji cəhətdən yaxşı səviyyədə olmayan bir ərazi turistlərin

diqqətini çəkməz. Son dövrlərdə ölkənin görkəmli ictimaiyyət nümayəndələri və mütəxəssislər bu ekoloji fəlakət barəsində beynəlxalq təşkilatlara ardıcıl olaraq müraciətlər, həmçinin çağırışlar ediblər. Əsas məqsəd regionda ekoloji tarazlığın bərpa edilməsindən ibarətdir.

Yeni iqtisadi rayon bölgüsünün yaranması işğaldan azad olunmuş başqa ərazilərlə müaqaisəli olaraq bəzi nailiyyətlərə çatmalıdır. Bu iqtisadi rayonların yaranması yaxın və uzaq prespektivdə planlaşdırılmış hədəflərin reallaşmasına nail olmaq və xüsusən də güclü ölkə regionlarını formalaşdırmalıdır. Bütün bunlar ölkəmizin sosial-iqtisadi elementlərini özündə cəmləşdirən və əks etdirən, həmçinin yüksək texnologiyaların əasasında inkişaf edən iqtisadi rayon görüntüsünü yaradır, formalaşmasına əsas verir. Yenidən yaradılmış İqtisadi rayonlaşma bölgüsündə artıq Yuxarı Qarabağ yox, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının adları qeyd edilib və bu da strateji və tarixi baxımdan, ən əsası isə iqtisadi baxımdan kifayət qədər vacibdir. Əvvəlki təsnifatda Yuxarı Qarabağ, Kəlbəcər və Laçın iqtisadi rayonları var idi və indi isə bütöv bir Qarabağ var.

1991-2021-ci illər arasında Azərbaycan 10 iqtisadi rayona sahib idi. 2021-ci il 7 iyul dövlət başçısı Cənab Prezident İlham Əliyevin imzaladığı fərmanla ölkəmizdə rayonlaşma prinsipi 14 iqtisadi rayonla dəyişdirildi və artıq Yuxarı Qarabağ iqtisadi bölgəsi yox, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayon anlayışı formalaşdı. Qarabağ Azərbaycanın 14 iqtisadi rayonlarından biridir. Ümumi sahəsi 7,253.5 $km^2$ olmaqla, 628,200 nəfər əhalisi var. Həmçinin bununla yanaşı Şərqi Zəngəzur iqtisadi rayonunun ərazisi 7,470 $km^2$-dır və əhali sayı 341,200 min nəfərə yaxındır.

Zəngəzur dağ silsiləsi ilə əhatələnmiş Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini Zəngəzur yaylasının şərq hissəsində Ermənistanla sərhəddə Zəngilan, Qubadlı, Laçın, Kəlbəcər və Cəbrayıl rayonları tutur. 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının daxilində olan bu ərazilər ənənəvi sosial-iqtisadi və tarixi-mədəni bağlılıqları ilə diqqət çəkir. Həmçinin özünəməxsus tarixi-mədəniyyətə, gözəl təbiətə sahib Qarabağ iqtisadi rayonu Ağdam, Tərtər, Füzuli, Şuşa, Xocavənd, Xocalı və Xankəndi şəhərini əhatə edir.

## 2.3. Qarabağ və Şərqi Zəngəzur İqtisadi Rayonlarının sosial-iqtisadi potensialının təsviri və təhlili. (Regionda turizm imkanlarının təhlili və qiymətləndirilməsi)

Əvvəlki fəsillərdə qeyd edildiyi kimi Qarabağ və Şərqi Zəngəzurun sosial-iqtisadi potensialı bir çox amillərdən asılıdır. Yeni iqtisadi bölgü ölkə ərazisində iqtisadi fəallığın artmasına və həmçinin investisiya səmərəliliyin dövlətdə artmasına gətirib çıxarır. Bununla yanaşı yeni istehsal sahələrinin yaranması yəni əhali gəlirlərinin diversifikasiyalaşdırılmasına və əhalinin rifahının artmasına, yaşam şərtlərinin asanlaşdırılmasına gətirib çıxarır. Həmçinin yeni iqtisadi bölgünün verdiyi tövhələrdən biri də sosial-iqtisadi inkişafın artması, sözügedən ərazidə sahibkarlığın və biznesin inkişafına yol açır. Hazırki qlobal vəziyyət və Covid-19 pandemiyasının yol açdığı çətinliklərin təsirindən yaranan iqtisadi problemlərin aradan qaldırılması, başqa sözlə desək iqtisadi geriliyin aradan qaldırılması və səmərəliliyin artmasına da təsir edir. Digər tərəfdən, Vətən müharibəsi nəticəsində əldə edilmiş Zəfərlə bərabər iqtisadi rayonlaşma prinsipinin yaranması obyektiv reallıqları özündə əks etdirir.

Beləliklə deyə bilərik ki, işğaldan azad olunmuş ərazilərin təsərrüfat və iqtisadiyyat dövriyyəsinə cəlb edilməsi iqtisadi rayonların yenilənməsinə gətirib çıxarır. Bununla da resursların daha düzgün bölüşdürülməsi və istifadəsini, həmçinin səmərəli paylanmasını rayonların iqtisadi bölgüsünün yenilənməsi zəruri edir. Hər bir iqtisadi rayonun xüsusiyyətləri və özünəməxsus olan ixtisaslaşma istiqamətləri var ki, buna misal olaraq təsərrüfat amillərini, təbii və coğrafi amilləri deyə bilərik. Əhalinin məşğulluq səviyyəsi, xüsusiyyətləri, adət-ənənələr və həmçinin milli tərkib də buraya aid olan şərtlərdəndir.
İqtisadi rayonlaşma prinsipi aşağıdakı nüanslar üçün mühüm əhəmiyyət kəsb edir.

- iqtisadi rayonların nizamlı və planlı şəkildə idarə edilməsi
- tələb olunan prioritet layihələrinin hazırlanması və onların reallaşdırılması,
- dövlət tərəfindən maliyyə-investisiya mexanizmlərinin işlənməsi, hazırlanması və tətbiqi,
- başqa maliyyə mənbələrinin inkişaf etməsi üçün münbit şəraitin yaradılması,
- əhalinin məşğullugunun təmin olunması və iqtisadi fəallığının artırılması,
- sosial infrastrukturun yaradılması,
- istehsal və kommersiya infrastrukturunun təmin edilməsi,
- sahibkarlığın stimullaşdırılması biznes mühitinin əlverişliliyinə nail olunması.

Maraqlı və o cümlədən potensial investorların əraziyə cəlb edilməsi üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondunun vəsaitinin səmərəli bölüşdürülmüş və prioritet istiqamətlər müəyyənləşdirilmişdir. Əsas məqsəd iqtisadi rayonun dinamik və dayanıqlı inkişafını təmin etməkdir. Burada sahibkarlığın inkişafı və iqtisadi fəaliyyətin modelləşdirilməsidir və dövlət siyasətinin tərkib hissəsi kimi çıxış edir.

Sosial iqtisadi inkişafın daha yaxşı inkişafı üçün bir sıra planlar hazırlanır ki, buraya yüksək texnologiyadan istifadə imkanları da daxildir. Yüksək texnologiyanın olması, əsaslı iqtisadiyyat sahələrinin mümkünlüyü və inkişafı sahibkarlığın artmasına gətirib çıxaracaqdır. Bunlara misal olaraq sürətli və məhsuldar texnologiyadan ibarət olan istehsal və emal sahələrinin yaradılmasını, yeni və fərqli xidmət müəssisələrinin fəaliyyətini deyə bilərik. Bütün bu bəhs edilənlər yeni iqtisadi rayonların daha inkişaf etmiş və səmərəli (məhsuldar) olacağını deyir.

Digər tərəfdən iqtisadi rayon bölgüsü milli təhlükəsizlik və siyası baxımdan vacibdir. Bildiyimiz kimi, hal-hazırda ölkədə “Azərbaycan 2030, sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” üzrə məqsədlərini həyata keçirməkdədir. Düşünürəm ki, bu qərarlar ölkəmizin gələcəkdə daha güclü dövlətə çevrilməsi üçün və milli təhlükəsizliyin təmin edilməsi üçün vacibdir. Bununla həmçinin iqtisadi təhlükəsizliyin təminatına da nail ola bilərik. Beləliklə Qarabağ iqtisadi rayonu yaradılmaqla Qarabağın bütöv bir ərazi olması gündəmə gəlir və qisas fikirlərinə qarşı çıxmaq üçün tədbir olaraq görülə bilər. Qarabağ iqtisadi rayonu ilə yanaşı Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması vətənimizin, Azərbaycanın öz doğma torpaqlarının dirçəldilməsi və inkişafı üçün çalışdığını göstərir. Ərazidə sülh və əmin-amanlığın təmin edilməsi, qorunub saxlanması üçün şərait yaradır. Ermənistan və yaxud digər qisas niyyətində olan hərkəs sülh yolunu seçməyə məcburdur. Cənab İlham Əliyevin sərəncam və fərmanları strateji mahiyyətli və vacib xarakter daşıyır. Yuxarıda da qeyd edildiyi kimi bu qərarların əsas məqsədi Azərbaycanın gələcəyini yaxşılaşdırmaq və güclü dövlət olaraq formalaşmasını təmin etməkdir. Həmçinin görülən tədbirlərlə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında olan potensiallı resurslardan səmərəli istifadəni artırmış olur.

Qarabağ regionunun ümumi sahəsi təxminən 246.7 min hektardır və orada 13197 ha qiymətli meşə sahələri var, bununla yanaşı da müxtəlif təbiət abidələri, nadir bitki və heyvan növlərinin olması məlumdur. Ölkəmizdə mühafizə altında olan təbiət ərazilərinin ümumi sahəsi təxminən 890 min hektara çatır ki, bunun da 42997 hektarı Qarabağ zonasının payına düşür.

Qafqazın işğal altında olan ərazilərində vaxtilə təbii landşaftı, nadir bitki və heyvanları qorumaq məqsədi ilə bir sıra qoruq və yasaqlıqlar yaradılmışdı ki, Bəstiçay Qoruğu, Laçın yasaqlığı buraya aiddir. Bəstiçay qoruğu 1974-cü ildə Zəngilan ərazisində yaradılıb. Qoruğun ümumi sahəsi 107 ha, burada bitən ağacların yaşı isə təxminən 500 ildəən çox olduğuna görə "Qırmızı kitab"-a daxil edilib.

1961-ci ildə sahəsi 21.4 min hektara yaxın olan Laçın qoruğu da Laçın rayonu ərazisində yaradılmışdır. Orada dağ keçisi, cüyür, çöl donuzu, turac, kəklik mühafizə olunurdu. Təbii ki, mütləq Azərbaycanın yeganə olaraq Şuşa rayonunda bitən xarı bülbülü demək mütləqdir. Şuşa şəhərinin gözoxşayan təbiəti turizm baxımından olduqca əlverişlidir.
Regionun sənaye potensiallı haqqında onu demək olar ki, Dağlıq Qarabağın işğalı Azərbaycan təsərrüfatı və regionun əhalisi üçün çox ciddi problemlər yaratmışdı. Qarabağla Azərbaycanın digər iqtisadi rayonlarının arasında keçən yollar iki ərazini sıx bağlamışdır. Dağlıq Qarabağda yerləşən müəssisələrin böyük əksəriyyəti Azərbaycanın digər rayonlarından gətirilən xammal və matereallar, həmçinin gətirilən yanacaq əsasında işləyirdi. Bir çox müəssisələr isə Bakıda olan iri müəssisələrin filialları kimi fəaliyyət göstərirdilər.

1985-ci ildə cəmi 8%-i Qarabağın Xankəndindəki iri İpək Kombinatındakı barama sənayesinin özündə istehsal olunurdu. Qalan 92%-i isə Azərbaycanın digər rayonlarındakı istehsala aid idi. 1986-cı ildə istehsalının 33,3% Azərbaycanın payına düşən barama istehsalı, ölkənin xarici əlaqələrlə idxal etməsi nəticəsində 0,3% xaricə və 1,4% Ermənistan respublikasının payına düşürdü.

Həmçinin keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi Xankəndi yolları vaxtilə Azərbaycanın dəmir və şosse yollarına, o cümlədən bütövlükdə respublikanın nəqliyyat kommunikasiya sisteminə sıx bağlanmışdır. Bakıya qədər olan məsafə 392 km olmaqla, Xankəndidən dəmir yolu ilə gələn yol idi. Göründüyü kimi keçmiş infrostruktur layihələr, nəqliyyat logistikasının xəritələri regionun gələcək inkişafı üçün istifadə edilə bilər. Təbii ki, işğaldan əvvəl fəaliyyət göstərən yeganə nəqliyyat-kommunikasiya sistemi işğal altında olan zaman dağıdılmışdır. Bərpa işləri zamanı bütün bu məlumatlar dəyərləndiriləcəkdir.
Beləliklə regionun sənaye potensialına sənaye rekreasiya ehtiyyatları, elektrik enerjisi, zəngin su təchizatı və zəngin faydalı qazıntılar olmaqla 4 istiqamətdən baxılır.

Bildiyiniz kimi son zamanlar iqlim dəyişikliyi ilə əlaqədar bütün dünyada su qıtlığı problemi aktualdır. Hətta ötən payız- qış aylarında Türkiyədə su anbarlarının kəskin şəkildə faizinin azaldı. 2020-ci il aprelin 15-də Cənab Prezident İlham Əliyevin sərəncamı ilə su ehtiyyatlarından səmərəli istifadənin təşkili ilə əlaqədar Dövlət Komissiyası fəaliyyət göstərməyə başlamışdır. Odur ki, azad olunmuş ərazilərdə zəngin su ehtiyyatının kənd

təsərrüfatı və ölkənin sənayesinin inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir. 1976-cı ildə Tərtər rayonundakı Tərtərçayın üzərində Sərsəng su anbarı tikilib. Onun ümumi həcmi 561 milyon $m^3$ bəndin hündürlüyü isə 124 m-dir. Sözügedən bu su anbarı respublikamızda ən hündür bəndi olan su anbarıdır.

Sərsəng su anbarı 100 min hektara yaxın torpaq sahəsini suvarma qabiliyyətinə imkanı olan, respublikanın 6 rayonunu üçün hansı ki, Goranboy, Yevlax, Ağdam, Tərtər və s rayonları suvarmaq təminat yaradacaqdır.

Bundan əlavə 75 min hektar ərazini suvarma potensialına malik olan Xudafərin su anbarı da Cəbrayıl və Zəngilan ərazisində yerləşir, hansı ki, anbarın ümumi həcmi təxminən 1,6 mlrd.$m^3$-a bərabərdir.

Son olaraq onu demək olar ki, Qarabağda 11 yeraltı su mənbəyinin olduğu təxmin edilir və öz növbəsində 1 milyondan çox yeraltı şirin su təchizatı deməkdir. Regionun su təchizatından bəhs edərkən su yiğimi və təchizatından əldə edilən elektrik enerjisini qeyd etmək olar. Sərsəng və Xudafərin su elektrik stansiyası buraya aiddir.

İki ədəd turbindən ibarət və gücü təxminən 25 MVt olan Tərtərçayın üzərindəki Sərsəng SES 1976-cı ildə tikilmişdir və hal hazırda qeyri-qənaətbəxş vəziyyətdədir. Yenidən qurma və bərpa işləri ilə bağlı hazaırlanan planlarda onun bərpası, gücünün artırılması və ətraf rayonların elektik təminatının qarşılanması daxildir.

Xudafərin su elektrik stansiyası isə Azərbaycanla İran arasındakı razılaşmaya uyğun olaraq Araz çayı üzərində inşa edilib. Araz çayı üzərində yerləşən bu elektrik stansiyasının ümumi gücü 280 meqavata yaxındır və hesablamalara görə Azərbaycana 368 milyon kVt/saat elektrik enerjisi istehsalı potensialına malikdir.

Deməli, Sərsəng və Xudafərin SES-ləri ətrafdakı regionların enerji təminatını qarşılayacaq. Bununla yanaşı Azərbaycanın digər rayonlarındakı yəni, Mingəçevir, Abşeron və Şirvan üzərindəki yüklərin azalmasına səbəb olacaqdır. Bildiyimiz kimi Azərbaycanın enerji təminatı hər iki enerji mənbəyinin ölkənin digər enerji mənbələrinə qatılması yalnız güclərin artırılmasına deyil və həmçinin coğrafi diversifikasiyasına gətirib çıxarır.

Regionun sənaye rekreasiya ehtiyyatlarına gəlincə, Azərbaycanın mineral sularının təxminən 39,6%-i Qarabağ bölgəsinin payına düşür. Sözügedən bu ərazilərdə 120-dən çox müxtəlif tərkibli mineral su yataqları vardır və ümumi ölçüsü 7805 m3/gün mineral su təchizatına bərabərdir. Mineral su yataqları olan ərazilərə Kəlbəcər rayonundakı Aşağı və Yuxarı istisu, Keşdək, Bağırsaq, Laçın rayonundakı İlıqsu, Minkənd, Şuşa rayonundakı Sırlan, Turşsu və bu kimi başqa mineral su yataqları vardır.

Kəlbəcər rayonunda yerləşən İstisu mineral bulaqlar onun əlverişli qaz və kimyəvi tərkibinə görə, həmçinin yüksək temperaturuna görə fərqlənir. Keçən əsrin 80-ci illərində İstisu bulağı üzərində nəhəng kurort və mineral sudoldurma mərkəzi inşa edilmişdi ki, orada təxminən 800 min litr su istehsal edilirdi. Təxminən 17 km məsafədə yerləşən Şuşa şəhərindəki Turşsu bulağı da bəzi daxili xəstəliklərin müalicəsi üçün Şuşa şəhərinə kəmər vasitəsilə verilirdi. Beləliklə Qarabağın yenilənməsi işləri zamanı regionun mineral su ehtiyyatlarından səmərəli istifadə etməklə turizm sənayesinin inkişafı üçün faydalı ola bilər.

Son olaraq Qarabağın təbii ehtiyyat potensialından bəhs etmək olar. Regionun 155-dən çox faydalı qazıntı yataqları mövcuddur. İşğal altında olan zaman böyük qismi talan edilsə də hələ də regionun xammal potensialından istifadə etmək mümkündür. Bu yataqlara 5 qızıl, 6 civə, 1 qurğuşun, 2 mis, 4 sement xammalı, 10 gil, 13 müxtəlif növ tikinti daşları, 14 əlvan metal yatağı və s misal göstərmək olar.

Cədvəl 2.2-də Qarabağ bölgəsindəki rayonlarımızda hansı faydalı qazıntıların olması qeyd edilib.

**Cədvəl 2.2**

| **Rayonun adı** | **Faydalı qazıntı növü** |
|---|---|
| Ağdərə | Qızıl, qurğuşun, sink, mis, mişar daşı, gəc |
| Şuşa | Üzlük daşı, gil, tikinti daşı |
| Xocalı | Gil, üzlük daşı, qum-çınqıl |
| Xocavənd | Üzlük daşı, tikinti daşı |
| Kəlbəcər | Qızıl, civə, mişar daşı, gil, perlit, qum-çınqıl, tikinti daşları, üzlük daşları, əlvan daşlar (obsidian, oniks, pefritoid, listvenit) |
| Laçın | Civə, mişar daşı, üzlük daşı, tikinti daşı, gil, qum-çınqıl, pemza, vermukulit, vulkan külü, əqiq, jad |
| Qubadlı | Mişar daşı, gil, tikinti daşı, üzlük daşı, əlvan daşı |
| Zəngilan | Qızıl, gümüş, üzlük daşı, əhəng daşı, gil, tikinti daşı, qum-çınqıl |
| Cəbrayıl | Mişar daşı, gil, qum, sement, gəc, tikinti daşı, kips, ahhidrid, pemza, vulkan külü, əlvan daşlar (yəşəm, xalsədan) |
| Füzuli | Mişar daşı, gil, qum-çınqıl |
| Ağdam | Mişar daşı, üzlük daşı, sement xammalı, gil, qum-çınqıl |

*Mənbə: Azərbaycan Coğrafiya Cəmiyyəti-nin rəsmi saytı, gsaz.az*

Beləliklə Qarabağ və Şərqi Zəngəzurda turizm potensialını araşdırarkən əldə etdiyimiz məlumatlar bizə ərazinin SWOT təhlilini aparmaq üçün imkan yaradır.

SWOT analizi adətən müəssisə və yaxud təşkilatın öz məqsəd və vəzifələrini həyata keçirən zaman aparılır. Yəni müəssisənin ətraf mühitin yaratdığı İmkan, Təhlükələr, Güclü və Zəif tərəfləri müəyyənləşdirir. SWOT anazlizi daxili və xarici mühitin təsirlərini dəyərləndirərək müəssisənin özünə *yol xəritəsi* çəkməsi üçün şərait yaradır, onun missiyasının formalaşdırılması ilə məqsəd və vəzifələrini müəyyən edir.

Aşaığda verilmiş cədvəldə Qarabağ və Şərqi Zəngəzurda turizm potensialının SWOT təhlilinə baxaq.

**Ərazinin güclü və zəif tərəfləri**

**Cədvəl 2.1**

| **GÜCLÜ TƏRƏFLƏR** | **ZƏİF TƏRƏFLƏR** |
|---|---|
| 1. Kənd təsərrüfatı və heyvandarlıq sektorunun inkişafı üçün əlverişli ərazi olması. | 1. Hazırki vəziyyəti turizm sektorunda olan xidmət keyfiyyəti. |
| 2. Əraziyə əlçatanlığın olması. | 2. Sosial medya və televiziyadan səmərəli şəkildə istifadə edilməməsi. |
| 3. Tarixi mədəniyyət mərkəzi olması. | 3. Turistik müəssisələrin əsasən Bakı şəhərində cəmləşməsi və fəaliyyəti. |
| 4. Ərazinin iqliminin fərqli turizm növlərinin inkişafına imkan yaratması. | 4. Turizm sektoru üzrə təhlillərin aparılması üçün statistik məlumat bazasının yetərli olmaması |
| 5. Sosial-mədəni inkişaf potensialının olması. | 5. Ölkənin regionlarında turizm informasiya mərkəzlərinin az olması; |
| 6. Turizmin inkişafına dövlət dəstəyinin olması | |
| **İMKANLAR** | **TƏHLÜKƏLƏR** |
| 1. Sağlamlıq turizmini üçün əlverişli şərait olması | 1. Ərazinin müharibə yolu ilə geri alınması. |
| 2. Turizmin inkişafına əlverişli ekolojik bir formaya malik olması. | 2. Sərhəd ərazilərlə münasibətlər |
| | 3. Yerləşdiyi coğrafi mövqe |
| | 4. Ölkənin geosiyasi mövqeyindən asılı olaraq yarana biləcək xarici təhlükələr. |

Yuxarıdakı cədvəldən də gördüyümüz kimi Qarabağ və Şərqi Zəngəzurun turizm pottensialı üçün güclü tərəflər olduğu kimi zəif tərəflər də mövcuddur. Sözügedən ərazinin kənd təsərrüfatı və heyvandarlıq sektorunun inkişafı üçün əlverişli ərazi olması, orada aqroturizmin inkişafına şərait yaradır. Əraziyə əlçatanlıq dedikdə yeni çəkilmiş yolların olması, hava limanın tikilməsi nəzərdə tutulur. Dağlıq ərazi olmasına baxmayaraq yaxşı səviyyədə magistral yollarla əlçatanlıq təmin edilmişdir və bu da sözügedən ərazidə turizm üçün vacib imkanlardandır. Həmçinin ərazinin iqlimi imkan verir ki, orada bir çox turizm növlərini inkişaf etdirək. Qeyd etdiyimiz kimi dağlıq ərazi olması həm də əsasən soyuq hava şəraitinin olmasına gətirib çıxarır və dağ turizmi, kampinq, macəra turizmi, geoturizm üçün şərait yaradır. Digər tərəfdən sosial-mədəni inkişaf potensialının olması orada kənd turizmi və kəndli-fermer turizminin formalaşması üçün əlverişli ərazidir.

Təbii ki, güclü tərəflər olduğu kimi zəif tərəflərin olması da danılmaz faktdır. Müharibədən sonra sürətlə yenidənqurma işlərinin aparılmasına baxmayaraq ərazidə təhlükəsizliyin təmin edilməsi elə də asan deyil və bu sərhəd ərazilərlə müharibə şəraitinin olmasına bağlıdır. Zəif tərəfləri bilmək ona görə vacibdir ki, zamanla aradan qaldırmaq üçün tədbirlər görülsün.

Qarabağ bölgəsində turizm üçün olduqca kifayət qədər imkanlar vardır, yuxarıda da qeyd etdiyimiz kimi burada sağlamlıq turizmi, dini-ritual turizm və həmçinin mədəni turizm mərkəzlərinin yaradılması üçün əlverişli şərait vardır.

Son olaraq SWOT analizinin “təhlükələr” hissəsini təhlil edirik və burada da qeyd edildiyi kimi sərhəd ərazilərlə münaqişənin olması, müharibə nəticəsində ərazinin işğal olması bir sıra təhlükələr olduğunu göstərir.

## 2.4. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonunda turizm fəaliyyətinin müasir vəziyyəti və dinamikası. Turizmin inkişafının tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi

Yeni iqtisadi rayonlaşma prinsipi ilə yanaşı demək istərdim ki, ərazinin tarixi ta qədim dövrləri əhatə edir. Zəngəzurun adı da türk tayfaları olan "Zəngi tayfası"-nın adından götürülmüşdür.

Hələ XX əsrin əvvəllərində belə 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibinə Zəngilan, Qubadlı, Laçının bir hissəsi, Qorus, Qarakilisə, Qafan və Mehri yer alırdı. Burada 313 türk kəndi və təkcə gəlmə ermənilərdən ibarət olan 2 erməni kəndi var idi. Zəngəzur qəzasının ümumi ərazisi 7892 $km^2$ idi və 2020-ci ildə Qarabağ Zəfəri nəticəsində həmin ərazinin 4505,5 $km^2$ işğaldan azad edilmişdir. Təəssüf hissi ilə demək istərdim ki, Zəngəzurun qərb hissəsində olan bəzi ərazilər artıq 100 ildən çoxdur ki, hələ də işğal altındadır. Sözügedən ərazilərə Mehri, Qarakilisə, Qorus və Qafan şəhərləri aiddir. Belə ki, 1920-ci il dekabrın 1 də Azərbaycanı işğal edən və Azərbaycanı süquta uğradan bolşeviklərin təzyiqi ilə Zəngəzuru Ermənistana verdilər.

Elə həmin vaxtlardan yəni Sovetlər birliyi dönəmindən onlar Zəngəzuru xəritədən silməyə çalışdılar, Azərbaycan xalqına doğma torpaqlarını unutdurmağa nail olmaq istədilər lakin bu gün də göründüyü kimi Azərbaycan xalqı öz doğma torpağını unutmayıb. Ədalət öz yerini tapdı və Zəngəzurun şərq hissəsini, öz dədə-baba torpaqlarımızı işğaldan azad etdik. Bununla da bütün dünyaya torpaqlarımıza, doğma yurdumuza sadiq olduğumuzu və sahib çıxdığımızı göstərmiş olduq. Buna görə də Şərqi Zəngəzurun iqtisadi bölgüsü Azərbaycanın iqtisadi inkişafının artımı baxımından həm də tarixi ədalətin bərpası baxımından ən doğru addım olaraq qiymətləndirilir. Bununla da yaxın gələcəkdə iqtisadi inkişafın formalaşmasına stimul olduğunu deyə bilərik.

Həmçinin bildiyimiz kimi Zəngəzur dəhlizinin yaradılması da yaxın gələcəkdə Zəngəzurun təmamilə işğaldan azad olunacağına və soydaşlarımızın doğma torpaqlarına qayıdacağına işıq tutur. Zəngəzur dəhlizinin reallaşacağı fikri bizi ümidləndirir və inamımızı daha da artırır. Bununla da deyə bilərik ki, Zəngəzur dəhlizi Avrasiya məkanını bir-birinə birləşdirən vacib ərazidir və həm Qafqaz həm də Asiyanın qapısıdır.

2021-ci ildə keçirilmiş olan Türkdilli Vətəndaşların Əməkdaşlıq Şurasının videokonfransında cənab Prezident İlham Əliyev Zəngəzur dəhlizinin geostrateji və geosiyasi baxımdan vacibliyi barədə demişdir:

“Zəngəzur dəhlizi tarixi nailiyyətdir. Üçtərəfli bəyanatda, xüsusilə bu məsələnin əks olunması bizim, eyni zamanda, böyük siyasi qələbəmizdir... Qədim Azərbaycan torpağı olan Zəngəzur, indi türk dünyasının birləşməsi rolunu oynayacaq”

Yuxarıda qeyd edildiyi kimi Zəngəzur və Qarabağın müasir vəziyyəti, o cümlədən iqtisadi bölgüsü ərazinin sosial-iqtisadi inkişafına müsbət təsir göstərir. Bütün bunlar ərazinin turizm üçün diqqət mərkəzinə çevrilməsi haqqında danışmağa əsas yaradır.

Hal hazırda Qarabağ və Şərqi Zəngəzurun yenidən qurma işləri yekunlaşmasa belə artıq xeyli vacib işlər tamamlanmışdır. Ən əasas olan magistral yolların təmamilə salınması və bununla yanaşı yeni hava limanının tikilməsini böyük qürur hissi ilə qeyd etmək olar. Uzun illər işğal altında qalan tarixi torpaqlarımız artıq oranı sevən, doğma torpağı görən hərkəs üçün əlçatandır. Bütün bunlar üçün iki məqsədə nail olmaq əsas götürülür, hansı ki, dayanıqlı məskunlaşma və iqtisadi fəaliyyətə reinteqrasiya.

Dayanıqlı məskunlaşma dedikdə, 44 günlük müharıbənin Zəfəri nəticəsində işğaldan azad edilmiş doğma torpaqlara məcburi köçkünlərin geri qaytarılması və əhalinin dayanıqlı məskunlaşması vacib nüanslardandır. Bu zaman sözügedən ərazilərdə abad yaşayış təmin edilmiş olacaq və sağlam rifahlı yaşayış məskəninə çevriləcək. Dayanıqlı məskunlaşma üçün müasir və konfortlu yaşayış mühiti formalaşdırılacaqdır.

İşğaldan azad edilmiş ərazilərin, o cümlədən Qarabağ və Şərqi Zəngəzurun tarixi mövqeyi yəni həmin ərazilərin ölkə iqtisadiyyatına və sosial duruma təsiri yavaş-yavaş bərpa edilir. Yaxın gələcəkdə sözügedən ərazinin ölkənin başqa regionlarına uyğun inkişaf səviyyəsinə çatdırılması gözlənilir. Təbii resursların bol olması və əldə edilən tarixi imic buraya xarici investorların diqqətini çəkir, əraziyə sərmaye üçün şərait yaradır.

Cənab Prezident İlham Əliyevin aprel ayının 21-də Qarabağda görüləcək işlərlə tanışdığı göstərdi ki, sözügedən ərazilərin bərpası kompleks məzmun daşıyır. Gördüyümüz kimi ərazidə resurslardan səmərəli istifadəyə olduqca diqqət yetirilir.O cümlədən Şərqi Zəngəzur və Qarabağın su ehtiyyatlarından ehtiyaclara uyğun şəkildə istifadə edilir və ərazidə əkinçiliyin inkişafı üçün işlər görülür. Hal-hazırda suvarma keyfiyyətinin artırılması əsas məqsədlərdən biridir.

21 Apreldə Füzulə və Şuşaya səfər zamanı Cənab Prezident İlham Əliyev Köndələnçay su anbarında yaxın gələcəkdə aparılacaq olan bərpa işləri ilə tanış olmuşdur. Köndələnçay su anbarı kompleks şəkildədir və "Köndələnçay-1", "Köndələnçay-2" və "Aşağı Köndələnçay" su anbarlarını özündə cəmləşdirir.

Həmin su anbarının bərpası 6200 hektar ərazini əhatə edən Füzuli rayonunda yerləşən əkin sahəsinin suvarılması üçün fayadlı olacaqdır.

Hələ işğaldan əvvəlki dövrdə belə Qarabağ geniş turizm potensialına malik ərazilərdən biri idi. Hazırki dövrdə erməni işğalı altında 30 ilə yaxın qalan torpaqlarımızda təhlükəsizliyi yenidən təmin etmək və infrostrukturu yenidən düzəltmək üçün çoxlu işlər görülür. Qarabağ və ətraf rayonlarda turizm imkanlarından tam istifadə etmək üçün 3 əsas amil təmin edilməlidir. Bunlar yuxarıdakı bölümlərdə də qeyd edildiyi kimi təhlükəsizliyin təmin edilməsi, infrostrukturun yaradılması və əhalinin oraya qayıdışıdır. Yaxın gələcəkdə bütün bu problemlər öz həllini tapacaqdır və şübhəsiz ki, Azərbaycan turizm potensialına görə dünyada seçiləcəkdir. Qarabağ zonasının Azərbaycan turizmində yeri və əhəmiyyəti nəzərə olduqca yüksəkdir. Hətta Qarabağın regional əhəmiyyəti nəzərə alaraq daha sonra dünya əhəmiyyətli ekoturizm mərkəzinə çevrilməsi gözlənilir. Belə bir sual yaranır ki, Qarabağda hansı turizm növləri üçün imkanlar var?

Daha çox eko, dağ, qış, ov, sağlamlıq turizminin əlverişli olması haqqınad fikirlər irəli sürülür. Lakin bildiyimiz kimi Qarabağ qədim tarixə malikdir və buna əaslanaraq digər turizm növlərinin inkişafını yaratmaq imkanımız olduğunu deyə bilərik.

Şuşa Azərbaycanın mədəniyyət incisidir və bildiyimiz kimi tarixi abidələr, özünəməxsus arxitekturası ilə seçilir. Bu da yeni turizm marşurutlarının yaradılmasına imkan verir. Bundan əlavə Qarabağ zonasının iqlim şəraitini nəzərə almaq təkmilləşdirmə işlərinə misal olaraq mineral suların müalicə mərkəzləri yaratmağı göstərmək olar.

Qarabağ bölgəsindəki iqtisadi rayonlarda turizmin inkişafı üçün bir sıea dövlət proqramları artıq çıxdan hazırlanıb. Bəzilərinə demək olarki başlanılıb, bəzi planların başlanmasına isə yaxın gələcəkdə gözlənilir.

**Cədvəl 2.1**

| | | |
|---|---|---|
| Kənd təsərrüfat məhsullarının istehsalı və emalı sahəsinin inkişafı,<br>– Tərəvəzçiliyin, pambıqçılığın, taxılçılığın, heyvandarlığın inkişafı istiqamətində tədbirlərin davam etdirilməsi. | 2019-2023 | Sahibkarlar, Kənd Təsərrüfat Nazirliyi, yerli icra hakimiyyəti |
| Yerli əhəmiyyətli avtomobil yollarının, eləcə də kəndlərin giriş yollarının və kəndlərarası avtomobil yollarının tikintisi, yenidən qurulmasının və əsaslı təmirinin davam etdirilməsi<br>– Kolqışlaq- Mirəşelli-Əhmədağalı-Çıraxlı avtomobil yolunun yenidən qurulması. | 2019-2023 | Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, yerli icra hakimiyyəti |

| | | |
|---|---|---|
| Elektrik enerjisi təminatının yaxşılaşdırılması sahəsində işlərin davam etdirilməsi<br>– 3 ədəd (1 girişli) 10-6 kV-lıq kompleks transformator məntəqələrinin tikintisi;<br>– 1 km uzunluğunda 35 kV-luq hava xəttlərinin təmiri;<br>– 2,8 km uzunluğunda 10-6 kV-luq hava xəttlərinin təmiri;<br>– 3,46 km uzunluğunda 0,4 kV-luq ÖİN xəttlərinin tikintisi. | 2019-2023 | "Azərişıq" ASC |
| İçməli su təchizatının vəkanalizasiya sistemlərinin yaxşılaşdırılması sahəsində işlərin davam etdirilməsi | 2019-2023 | "Azərsu" ASC, yerli icra hakimiyyəti |
| Səhiyyə müəssisələrinin əsaslı təmiri və tikintisi sahəsində işlərin davam etdirilməsi | 2019-2023 | Səhiyyə Nazirliyi, yerli icra hakimiyyəti |
| Mədəniyyət obyektlərinin əsaslı təmiri və tikintisi, tarixmədəniyyət abidələrinin bərpası və konservasiyası | 2019-2023 | Mədəniyyət Nazirliyi, yerli icra hakimiyyəti |
| İdman-sağlamlıq müəssisələrinin əsaslı təmiri və tikintisi sahəsində işlərin davam etdirilməsi | 2019-2023 | Gənclər və İdman Nazirliyi, yerli icra hakimiyyəti |
| Dövlət Məşğulluq Xidməti orqanları tərəfindən işsiz, xüsusilə əmək qabiliyyəti ünvanlı sosial yardım alan, habelə sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin özünəməşğulluq proqramına cəlb olunması işlərinin davam etdirilməsi | 2019-2023 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |

Verilmiş bu cədvəldə Azərbaycan Respublikası Qarabağ iqtisadi regionları üzrə 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı üçün hazırlanan dövlət proqramından bəziləri göstərilmişdir. Bütün bu qeyd edilən planlar öz çərçivəsində az-çox turizmin inkişafının tənzimlənməsi müxanizminə təsir göstərir.

Turizmin inkişafının tənzimlənməsinə ən çox təsir göstərən nüanslardan birinin əraziyə əlçatanlığın mümkün olması əvvəlki fəsillərdə ətraflı şəkildə qeyd edilmişdir. Hava limanı

planlaşdırılıb və artıq Füzuli hava limanın 2021-ci il oktyabrın 21-də açılışı olmuşdur. Füzuli beynəlxalq hava limanının açılışı zamanı birbaşa olaraq təyyarəsi hava limanına eniş edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Cənab Prezidentimiz İlham Əliyev iştirak etmişdir. (bax, əlavələr, şəkil 2.4.2)

**Cədvəl 2.2**

**Mehmanxana və mehmanxana tipli müəssisələrin iqtisadi rayonlar üzrə sayı**

| **İqtisadi rayonlar** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** | **2021** |
|---|---|---|---|---|---|---|---|
| Yuxarı Qarabağ iqtisadi rayonu- Füzuli rayonu | - | - | - | - | 1 | 1 | 1 |
| Yuxarı Qarabağ iqtisadi rayonu- Tərtər rayonu | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 |

*Mənbə: DSK-nin 2015-ci və 2021-cu il üzrə hesabatlarına əsasən (The statistical committee of the Republic of Azerbaijan, 2021 Edition) [48]*

Mehmanxana və mehmanxana tipli müəssisələr Qarabağ zonasında, o cümlədən Füzulidə demək olar ki son illərdə formalaşmışdır. Tərtər rayonunda isə sayı dəyişməz olaraq qalmaqda davam edir.

**Cədvəl 2.3**

**Mehmanxana və mehmanxana tipli müəssisələrdə iqtisadi rayonlar üzrə birdəfəlik tutum**

| **İqtisadi rayonlar** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** | **2021** |
|---|---|---|---|---|---|---|---|
| Yuxarı Qarabağ iqtisadi rayonu- Füzuli rayonu | - | - | - | 30 | 30 | 30 | 30 |
| Yuxarı Qarabağ iqtisadi rayonu- Tərtər rayonu | 30 | 30 | 30 | 30 | 30 | 30 | 30 |

*Mənbə: DSK-nin 2015-ci və 2021-cu il üzrə hesabatlarına əsasən (The statistical committee of the Republic of Azerbaijan, 2021 Edition) [50]*

Cədvəldən göründüyü kimi turizm sahəsini inkişaf etdirmək niyyətində olan ərazi üçün mehmanxana və mehmanxana tipli müəssisələrdə birdəfəlik tutum çox aşağıdır. Aydın məsələdir ki, bu Qarabağ regionunun böyük hissəsinin uzun illər işğal altında olması ilə bağlıdır.

**Cədvəl 2.4**

**Mehmanxana və mehmanxana tipli müəssisələrdə ölkə vətəndaşları üzrə gecələmələrin iqtisadi rayonlar bölgüsündə sayı**

| **İqtisadi rayonlar** | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|---|
| Yuxarı Qarabağ iqtisadi rayonu- Tərtər rayonu | 634 | 520 | 465 | 1040 | 1235 | 451 |

*Mənbə: DSK-nin 2015-ci və 2021-cu il üzrə hesabatlarına əsasən (The statistical committee of the Republic of Azerbaijan, 2021 Edition) [52]*

Cədvəldən göründüyü kimi mehmanxana və mehmanxana tipli müəssisələrdə ölkə vətəndaşları üçün gecələmə sayı ən çox 2018-ci ildə olmuşdur.

**Cədvəl 2.5**

**İaşə fəaliyyəti göstərən sahibkarlıq subyektlərinin iqtisadi rayonlar üzrə sayı**

| | **2015** | **2016** | **2017** | **2018** | **2019** | **2020** |
|---|---|---|---|---|---|---|
| **Yuxarı Qarabağ iqtisadi rayonu** | 137 | 161 | 174 | 188 | 193 | 203 |
| Füzuli rayonu | 45 | 54 | 60 | 65 | 70 | 69 |
| Ağdam rayonu | 26 | 33 | 35 | 39 | 39 | 41 |
| Tərtər rayonu | 66 | 74 | 79 | 84 | 84 | 93 |

*Mənbə: DSK-nin 2015-ci və 2021-cu il üzrə hesabatlarına əsasən (The statistical committee of the Republic of Azerbaijan, 2021 Edition) [89]*

Cədvəl göründüyü kimi İaşə fəaliyyəti göstərən sahibkarlıq subyektlərinin sayı hər keçən gün daha da artmış, ümumi olaraq 203 iaşə subyekti 2020-ci ildə qeydə alınmışdır. Həmçinin digər tərəfdən Qarabağ iqtisadi rayonu olan Ağdamda digər rayonlara nisbətən ən aşağı göstərici ilə qiymətləndirilmişdir.

**Cədvəl 2.6**

**Yanvar-aprel aylarında turizm məqsədilə Azərbaycana səfər etmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin rayonlar (şəhərlər) üzrə keçirdiyi gecələmələrin yaşayış (yerləşmə) vasitələri üzrə sayı**

*gecə*

| Rayon (şəhər) | Cəmi | O cümlədən | | | |
|---|---|---|---|---|---|
| | | Mehmanxanalarda | Kirayə götürülmüş evlərdə | Qohumların və ya dostların evində | Özünə və ya ailə üzvlərinə məxsus mənzillərdə |
| A | 1 | 2 | 3 | 4 | 5 |
| **Ölkə üzrə - cəmi** | **188 933** | **54 209** | **11 586** | **78 119** | **45 019** |
| o cümlədən: | | | | | |
| **Bakı şəhəri** | **111 829** | **46 398** | **9 318** | **28 519** | **27 594** |
| **Qarabağ iqtisadi rayonu** | **1 557** | **509** | **-** | **989** | **59** |
| Xankəndi şəhəri | ... | ... | ... | ... | ... |
| Ağcabədi rayonu | 168 | 12 | - | 136 | 20 |
| Ağdam rayonu | 207 | - | - | 197 | 10 |
| Bərdə rayonu | 416 | 52 | - | 359 | 5 |
| Füzuli rayonu | 151 | - | - | 141 | 10 |
| Xocalı rayonu | ... | ... | ... | ... | ... |
| Xocavənd rayonu | ... | ... | ... | ... | ... |

*Mənbə: DSK-nin 2022-ci il yanvar-aprel ayı üzrə hesabatlarına əsasən (The statistical committee of the Republic of Azerbaijan, 2021 Edition)*

Yuxarıda verilmiş cədvəldən də göründüyü kimi Yanvar-aprel aylarında turizm məqsədilə Azərbaycana səfər etmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin rayonlar (şəhərlər) üzrə keçirdiyi gecələmələrin yaşayış (yerləşmə) vasitələri üzrə sayı Qarabağ iqtisadi rayon üzrə ümumi 0,82 %-dir. Ərazinin gecələmə potensialının az olması hələ bərpa işlərinin tamamlanmamasından irəli gəlir. Yenidənqurma və bərpa işləri tamamlandıqdan sonra bu göstəricinin artacağı gözlənilir. Bakı şəhəri isə 59,18 % təşkil edir.

**Cədvəl 2.7**

**Qarabağ iqtisadi rayonunun əsas iqtisadi göstəriciləri**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|
| Mehmanxana və mehmanxana tipli müəssisələrin sayı, vahid | 4 | 4 | 4 | 5 | 7 | 7 |
| onlarda: | | | | | | |
| nömrələrin sayı, vahid | 96 | 96 | 96 | 106 | 132 | 132 |
| birdəfəlik tutum, yer | 206 | 206 | 206 | 236 | 288 | 288 |
| Yerləşdirilmiş şəxslərin sayı, nəfər | 1618 | 1968 | 2205 | 2652 | 5235 | 4175 |
| Gecələmələrin sayı, adam-gecə | 2014 | 2174 | 2630 | 3198 | 5624 | 4539 |
| Mehmanxana və mehmanxana tipli müəssisələrin gəlirləri, min manat | 126,6 | 78,7 | 87,8 | 119,4 | 242,7 | 247,2 |
| Mehmanxana və mehmanxana tipli müəssisələrin xərcləri, min manat | 101,7 | 74,5 | 75,5 | 73,1 | 135,6 | 122,3 |

*Mənbə: DSK-nin 2015-2020-ci il üzrə hesabatlarına əsasən (The statistical committee of the Republic of Azerbaijan, 2021 Edition)*

Yuxarıdakı cədvəldən göründüyü kimi Qarabağ bölgəsinin iqtisadiyyatda irəliləyişləri gün küçdikcə daha da artmışdır. Mehmanxana və mehmanxana tipli müəssisələrin gəlirləri 5 il ərzində iki qat artmışdır. Bu da onu göstərir ki, sözügedən bu bölgəyə yatırılan investisyalar zamanla yaxşı nəticələr göstərməsi gözlənilləndir.

# III FƏSİL
# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA TURİZMİN POTENSİAL İNKİŞAFININ TƏHLİLİ

## 3.1 Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sosial-iqtisadi inkişaf perspektivləri

Qarabağ və Şərqi Zəngəzurda artıq həyat öz axarına düşməyə başlayır. Əvvəla, onu qeyd edim ki, 44 günlük Vətən müharibəsinin bizə qazandırdığı tarixi zəfərin ardınca Cənab Perzident Ali baş komandan Qarabağın yenidən bərpası prosesində göstərişlər verib və bu, hər mənada çox önəmli məsələdir. Qarabağ və Şərqi Zəngəzurun inkişaf prespektivləri istiqamətində mətbuatda məqalələr yazılır, ərazi ilə bağlı fikirlər irəli sürülür. Hərkəs doğma diyarımıza qovuşmağın sevincini yaşayır və oranın yenidən dirçəldilməsinə dəstək olmaq üçün çalışır.

Cənab Prezident İlham Əliyevin çıxışlarında dediyi kimi tezliklə məcburi köçkünlərin işğaldan azad edilən torpaqlarımıza əbədi qayıtması üçün sürətlə yenidənqurma işləri aparılır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin, şanlı Azərbaycan ordusunun cəsarətlə göstərdiyi zəfəri nəticəsində ömürlərinin ən gözəl illərini Şuşada keçirən məcburi köçkünlər yaxın gələcəkdə Qarabağa yerləşdiriləcək. Bəhs edilən bütün işlərin ölkə iqtisadiyyatına müsbət təsiri danılmazdır.

Cənab Prezident İlham Əliyev Avqust ayının 29-da Şuşaya səfər edən zaman bəyan etmişdir ki, Şuşanın dirçəldilməsi işləri sürətlə gedir. Artıq Şuşalılar öz doğma şəhərlərini gəlib ziyarət edə biləcək həm də yeni açılacaq müəssisələrdə işlə təmin ediləcəklər.
Təkcə Şuşaya qovuşanlar deyil, Kəlbəcərə qovuşanlar da doğma torpağında yaşamağın sevincindədir. Sözügedən tədbirdə iştirak edənlər "Tunel qətliamı"nın, Başlıbel faciəsinin baş verdiyi ərazini ziyarət etdilər, Günəşli kəndində oldular, doğma şəhərlərində görülən yenidənqurma işləri ilə tanış oldular. Onlar aparılan yenidən qurma işləri ilə yaxından tanış oldular.

İqtisadçı alimlərdən biri mətbuata verdiyi məlumatlara görə Azərbaycan ərazisində yeni strateji əhəmiyyətli müasir yol infrostrukturu Zəngəzur dəhlizinin açılması ilə formalaşacaq. Aydın məsələdir ki, bu ölkə iqtisadiyyatı üçün yeni fürsətlər deməkdir. Gələcəkdə Şərqi Zəngəzur iqtisadi rayonu həm də nəqliyyat-logistika mərkəzinə çevrilməsi gözlənilir. Bu da Qarabağda keçmişlə müqayisədə yeni və daha üstün iqtisadiyyat qurmağa imkan verəcək. Qarabağa Böyük Qayıdış reallaşdırıldıqdan və yerli iqtisadiyyat

dirçəldildikdən sonra bu iki böyük iqtisadi rayon sosial-iqtisadi cəhətdən özünü təmin etməklə yanaşı, bütövlükdə Azərbaycan iqtisadiyyatına böyük töhfə verəcək, ölkədə ərzaq təhlükəsizliyi təmin olunacaq, yeni iş yerləri yaranacaq, ixrac potensialı artacaq. Gün keçdikcə Azərbaycanın ən gözəl yerlərindən biri və tarixi torpaqları olan Qarabağ və Şərqi Zəngəzur əsl cənnət məkanına çevrilir.

Prezident İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında bu yerlərdə əsasən quruculuq işləri həyata keçirilir, infrostruktur yenilənir, yollar çəkilir, hava limanları istifadəyə verilir, şəhərlərimizin müfəssəl hazırlanan baş planları təsdiq olunur. Eyni zamanda barbar ermənilərin illərlə divan tutduğu tarixi irsimiz bərpa olunur, dağıdılan məscidlərimizdə yenidən azan sədaları ucalır.

Bununla yanaşı Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən Qubadlı şəhərinin baş planının hazırlanması ilə bağlı bir sıra tədbirlər görülüb. Gələcəkdə Qarabağ və Şərqi Zəngəzur bütün dünyanın ən gözəl və cəlbedici yerlərindən birinə çevriləcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 17-də Füzuli rayonunda səfərdə olublar və Füzuli-Ağdam avtomobil yolunun təməli qoyulmuşdur. Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov bildirib ki, yolun tikintisi Prezident İlham Əliyevin bu ilin avqustunda imzaladığı Sərəncamla təsdiq olunmuş "İşğaldan azad edilmiş regionların bərpası və yenidən qurulması layihəsi" istiqamətində həyata keçiriləcək. Sözügedən yol 4 zolaqdan ibarət və uzunluğu 64,8 kilometr, eni isə 15 metr təşkil edir. Sözügedən bu layihəyə əsasən yolboyunca körpülər, avtomobil dayanacaqları və bir sözlə insanların yolboyu gediş-gəlişini təmin etmək üçün mümkün olan bütün tədbirlər görülür. Təbii ki, bu da turistlərin gəlişinin artmasına gətirib çıxaran səbəblərdən biridir. Füzuli-Ağdam avtomobil yolunun təməlini dövlət başçısı Prezident İlham Əliyev qoymuşdur. Onu da qeyd edim ki, Azərbaycan qazetində yazılan məlumatlara görə Bərdə-Ağdam, Əhmədbəyli-Füzuli-Şuşa, "Zəfər" yolu və Füzuli-Hardrut yollarında aparılan işlər də davam edir.

Qarabağ və Şərqi Zəngəzurun daxilində olan iqtisadi rayonların hər birinin özünəməxsus zəngin təbii resursları, yüksək iqtisadi potensialı və inkişaf prespektivləri var. Bu ərazilərin iqtisadiyyatını inkişaf etdirmək məqsədi ilə ənənəvi sahələr daha üstün tutulsa da, bununla yanaşı rəqabətədavamlı qeyri-ənənəvi sahələrin kinkişaf etdirilməsinə diqqət yetirmək də zəruridir. Xüsusi olaraq da Qarabağda turizm inkanları üçün kənd təsərrüfati və emal sənayesi, o cümlədən tikinti sektoru, mədən sənayesi və xidmət sahələri böyük rol oynayır. Elə məhz aqrar sektor haqqında desək bəs edər ki, çox əlverişli və yaxşı məhsul verən torpaqlara malik Qarabağda taxıl, üzüm, pambıq, tütün, kartof, tərəvəz və bostan məhsulları,

meyvə və giləmeyvə istehsalı ənənəvi sahələrdir. Üstün və inkişaf etmiş sahələrə misal olaraq üzümçülük və taxılçılığı göstərə bilərik, onlar həm də istehsal həcminə görə də xüsusi çəkiyə malikdir. Qarabağ və Şərqi Zəngəzurun iqtisadi bölgüsü, hazırki potensial imkanları və əvvəlki dövrün yaxşı ənənələrini nəzərə alınmaqla Azərbaycan iqtisadiyyatının daha da böyüməsinə və yeni bazar tələblərinə uyğun olaraq müasir standartlara cavab verməsinə gətirib çıxaracaq.

Son olaraq onu da qeyd etmək olar ki, ölkənin sosial-iqtisadi inkişafının artması üçün beş Milli Prioritet istiqamətinin həyata keçirilməsi planlaşdırılır.

1. Dayanıqlı artanrəqabətli iqtisadiyyat;
2. Dinamik, inkluziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi.

Qeyd edilən bu Milli Prioritet istiqamətləri 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində öhdəliklərin icrası üçün irəli gələn əsas istiqamətlərdəndir.

### 3.2. Qarabağ regionun turizm sektorunun inkişafında dövlət siyasəti

Hal-hazırda **A**zərbaycan regionun ən qüdrətli dövləti statusunu daşıyır. Bunun səbəbi Ölkəmiz 30 ilə yaxın erməni təcəvüzkarlarının işğalı altında olan, dağıdılan və viran edilən tarixi torpaqlarını 44 günlük Vətən müharibəsində azad etməklə şanlı tarix yazdı. Lakin bundan sonra qarşıda bizi daha vacib addımlar gözləyir. Daha aydın desək, qazandığımız qələbəmiz qədər sözügedən ərazilərin dirçəldilməsi, inkişaf etdirilməsi və məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması hədəf nöqtəsidir.

Prezident İlham Əliyevin müharibədən dərhal sonra işğaldan azad edilmiş şəhər və rayonlarımıza səfərlər etməsi, bu səfərlər zamanı qarşıya yeni inkişaf istiqamətləri, yeni vəzifələr qoyması, həmin ərazilərdə bərpa işlərinin aparılması ilə bağlı imzaladığı mühüm sənədlər bu torpaqların qısa müddətdə cəlbedici bir məkana çevriləcəyini göstərdi. Artıq həmin ərazilərdə tikinti-quruculuq layihələrinin icrasına çoxdan başlanılıb.

“Xalq qazeti”ində Anar Əliyevin yazdığı məlumatlara görə:

“Elə təkcə Azərbaycan hökumətinin işğaldan azad olunmuş Zəngilan rayonunun Üçüncü Ağalı kəndində unikal hesab edilən və əsasən 5 komponent üzrə aparılacaq ”Ağıllı kənd” layihəsinin icrasına başlaması bu prosesin ilk böyük anonsu oldu, – desək yanılmarıq. Orada yaşayış, istehsal, sosial xidmətlər, ”Ağıllı kənd təsərrüfatı” və alternativ enerji sahələrinə yer verilməsi layihənin maraqlı tərəfləridir. Ümumiyyətlə, erməni işğalından azad olunmuş digər ərazilərdə “Ağıllı şəhər” və “Ağıllı kənd” konsepsiyalarının reallaşdırılması nəzərdə tutulur. “Ağıllı kənd” texnologiyalarının tətbiqi həmin ərazilərdə sosial innovasiyaların, kiçik sahibkarlığın inkişafına da şərait yaradacaq və Qarabağ regionunun həm də texnoloji innovasiya-startap mərkəzi kimi cəlbediciliyini də artıracaq.”

Bütün bunlarla yanaşı işğaldan azan olunmuş ərazilərdə beynəlxalq hava limanlarının fəaliyyəti gözlənilir ki, plana 3 hava limaı daxildir. Bu ilin payız aylarında Füzuli aeroportunun istifadəyə verilməsi gözlənilir. Zəngilan Hava Limanının təməli qoyulub, Laçında isə inşaat üçün yer seçimi yekunlaşmaq üzrədir.

Bundan əlavə Qarabağın işğaldan azad olunmasından sonra sürətlə aparılan infrastruktur quruculuğu layihələrindən hesab olunan bu hava limanları nəinki iqtisadi baxımdan, həm də geosiyasi və geoiqtisadi baxımdan Azərbaycanın nüfuzunu artıracağı gözlənilir. Bölgənin inkişaf strategiyasında burada olacaq turizm, aqroparklar, aqrobiznes, kənd təsərrüfatı, nəqliyyat, logistika kimi layihələrə yer ayrılacaq. Qeyd edək ki, Prezident İlham Əliyevin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilən “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də də bununla bağlı bir sıra əhəmiyyətli məqamlar var.

Belə ki, strategiyada işğaldan azad edilən ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyasının, orada bütün region üçün əhəmiyyətli yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanılması nəzərdə tutulur. Bu isə heç şübhəsiz ki, Azərbaycan iqtisadiyyatının daha da gücləndirilməsi, ölkədə sosial rifahın yüksəldilməsi üçün böyük perspektivlər vəd edir. Milli prioritetlərə görə işğaldan azad edilən ərazilərə qayıdılması planlaşdırıılan insanların təhlükəsizliyinin və həmçinin təhlükəsiz yaşayışının təmin edilməsi, onların normal həyat üçün lazım olan imkanların yaradılması və infrostrukturun formalaşdırılması əsas götürülür.

Qarabağın dirçəldilməsi üçün vacib olan digər məsələ – Zəngəzur dəhlizinin önəmi həm iqtisadi, həm siyasi, həm də tarixi baxımdan əhəmiyyətlidir. Ölkə başçısının da dəfələrlə vurğuladığı kimi, Zəngəzur dəhlizinin Azərbaycan iqtisadiyyatında çox böyük rolu olacaq. Bu dəhlizin ən vacib nüanslarından biri ondan ibarətdir ki, o, nəinki Azərbaycanla Naxçıvan arasındakı nəqliyyat əlaqələrinin şaxələndirilməsinə, həmçinin Xəzər və Aralıq dənizindən başlayaraq, Cənub Şərqi Asiya və Mərkəzi Asiya olmaqla Avropa arasındakı nəqliyyat-logistika xətti kimi davam edəcək.

Prezident İlham Əliyev dövlət televiziyasına müsahibəsi zamanı bildirib ki, biz bu ilin sonuna qədər azad edilmiş torpaqlarda həm Qarabağda, həm Şərqi Zəngəzurda bütün elektrik təsərrüfatını qurulacaq. Cənab Prezident İlham Əliyev öz sözlərində bildirib ki, 12 su elektrik stansiyasını ermənilər talan etmiş, dağıtmışdır. Ötürücü xətlər, yarımtransformasiya və transformasiyaları, elektrik starnsiyalarını, elektrik xətlərini məhv etmişdilər. Dövlət başçısı əlavə etdi ki, bu olmasa, heç bir inkişafdan söhbət gedə bilməz. İlin sonuna qədər planlaşdırılır ki, bərpa işləri tam yekunlaşdırılsın. Bununla yanaşı yaşıl enerji layıhəsinin icrası üçün işlər görülür. Sözügedən bu layihəyə artıq bəzi xarici şirkətlərin marağı olduğu öyrənilib və 20 meqavatlıq Günəş elektrik stansiyasının xarici şirkətlərin vəsaiti hesabına tikiilməsi üçün razılıq verilmişdir. Bu vacib və eyni zamanda gözəl addımdır, çünki gələcəkdə başqa şirkətləri də buraya asanlıqla cəlb etmək olacaqdır.

Enerji sahəsindən başqa, ikinci vacib sahə yol infrastrukturudur. Burada da 8 ay ərzində görün, nə qədər böyük işlər görülüb. Artıq demək olar ki, Bərdə – Ağdam avtomobil yolu və Zəfər yolunun tikintisi demək olar ki, asfalt döşənməsi başa çatıb. Zəfər yolu demək olar ki, heç olmayıb və ora təmamilə torpaq örtükdən ibarət idi. Cəmi 8–9 ayda biz bunu edirik. Paralel olaraq Füzuli–Şuşa magistral yolu, Horadiz – Ağbənd yolu çəkilir, 4–6 zolaqlı yoldur. Zəngilan–Qubadlı–Laçın yolu çəkilir. Bu da çox önəmli yoldur. Füzuli – Hadrut, Füzuli – Cəbrayıl yolları – bütün yollar üzrə qızğın iş gedir. Göygöldən Ömər aşırımı üzrə Kəlbəcərə rahat çatmaq üçün yol çəkilir. Bu yol daha əvvəl cığır olub, heç vaxt burada yol olmayıb. Qış

aylarında heç vaxt ondan istifadə olunmayıb. Biz indi yol çəkirik, tunellər çəkirik ki, ilin bütün mövsümlərində o yoldan istifadə edə bilək. Eyni zamanda, biz Göygölü də turizm mərkəzi kimi Kəlbəcərin gələcək mənzərəli turist mərkəzləri ilə bağlamış oluruq. Bununla yanaşı Kəlbəcər və Laçın rayonlarında da hərbi əhəmiyyəti olan yollar çəkilir və təxminən ümumi uzunluğu 700 kilometrə çatır. Mətbuatda çox da işıqlandırılmamasına səbəb olduqca böyükmiqyaslı iş olmasıdır. Strateji nöqteyi-nəzərdən və sərhəddə öz mövqelərimizi möhkəmləndirmək baxımından bu yolların çox böyük əhəmiyyəti var.

Dövlət başısı müfəssəl plan üzərində iş aparıldığını və plan nəticəsində şəhərlərimizin, kəndlərimizin görünməmiş şəkildə kommunikativ, müasir məkanlara çevriləcəyini qeyd edərək vurğulayır ki, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Burada diqqət göstərilməli ən vacib məqamlardan biri də Şərqi Zəngəzur ifadəsinin rəsmiyyətə daxil edilməsidir. Yəni, Şərqi Zəngəzur varsa, Qərbi Zəngəzur da var və oradan açılacaq dəhliz də qədim Azərbaycan torpağı olan Zəngəzur mahalının üzərində edilən tarixi ədalətsizlik eksperimentinin ləğv edilməsi, regionda yeni siyasi reallığın yaranmasıdır.

Bu baxımdan, əgər Qarabağın inkişafı məsələləri aktual mövzudursa, Zəngəzur dəhlizi və bu dəhliz vasitəsilə sözügedən ərazinin inkişafı da əsas məqsədlərdəndir. Prezidentin Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması barədə fərmanı da bu müfəssəl planın tərkib hissəsi idi. Hazırda isə ermənilərin işğalçılıq siyasəti nəticəsində dağıdılmış ərazilərimizin ən müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası əsasında bərpasına başlanması, işlərin sistemli şəkildə aparılması tam bir gerçəklikdir.

Ümumiyyətlə, vacib məsələlərdən biri də, Qarabağ regionunu tranzit bir mərkəz olaraq tanıtmaqdır. Tranzit mərkəz olaraq Qarabağ regionunun təqdim edildiyi təqdirdə və qeyd olunan Zəngəzur dəhlizi, həmçinin digər kommunikasiya və nəqliyyat xətlərinin bura cəlb edilməsi ilə Azərbaycan nəinki öz daxilində, ümumilikdə, öz iqtisadiyyatında, həmçinin regionda tranzit bir nəqliyyat-kommunikasiya xətləri üzərində yerləşəcək. Bu isə, öz növbəsində, Azərbaycan iqtisadiyyatının artımına, o cümlədən ticarət dövriyyəsinin inkişafına müsbət təsir edəcək.

Dövlət başçısı qətiyyətlə bildirir ki, biz həm müharibə, həm də postmüharibə dövründə istədiyimizə nail olmuşuq və nail oluruq. Bir məsələni də qeyd etməliyəm ki, mənim həm müharibədən əvvəl, həm müharibə zamanı, həm müharibədən sonra gələcək addımlarla bağlı çox dəqiq təsəvvürüm var və bilirəm nə etməliyik, nə vaxt etməliyik, necə etməliyik. Bütün bunlar təbii ki, bütün sahələrdə olduğu kimi kankret hədəflərlə planlaşdırılıb. Odur ki, qısamüddətlə, ortamüddətli və uzun müddətli hədəflər məqsəd qoyulub və bütün hədəflər hələ

tam təsdiqlənməyib çünki olduqca erkəndir. Lakin şübhəsiz onu deyə bilərik ki, gələcəkdə qarşıya qoyulan məqsədlərin hamısına nail olacağıq.

### 3.3. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında potensial turizm imkanları

Qarabağ və Şərqi Zəngəzur iqtisadi Rayonunun sosial iqtisadi potensialını təsvir etmək elədə asan deyil. Bunun səbəbi yenidən qurma işlərinin hələ tamamlanmaması və hamçinin ərazinin çiçəkləndirilməsi işlərinin davam etməsini göstərə bilərik. Daha aydın ifadə etsək deyə bilərik ki, mövcud olmayan nə isə haqqında təsvir yaratmaq asan deyil. Uzun illərdir işğal altında olan torpaqlarımızın sosial-iqtisadi potensialının yüksək olduğunu qeyd edə bilərik lakin bunu dəyərləndirmək üçün əvvəlcə sınaqdan keçirmək lazımdır. Demək istədiyim odur ki, realliqdan daha çox təxmini fikirlər formalaşması normaldır. Məsələn yuxarıdakı bölmələrdə də kifayət qədər çoxlu yenidən qurma işləri ilə bağlı bəhs etdik.

Sosial- iqtisadi potensial dedikdə nəzərdə tutulan sahə insan əməyinin fəaliyyəti nəticəsində yəni onun bəhrəsindən əldə ediləcək məşğuliyyət formalaşması nəzərdə tutulur.

Onu da demək lazımdır ki, iqtisadi rayonlaşma prinsipinin formalaşması Qarabağ və Şərqi Zəngəzurun, o cümlədən işğaldan azad edilmiş regionlarımızın inkişafı üçün vahid strategiya planının yaradılmasında önəmli qərarlardandır. Bu həmçinin azad edilmiş ərazilərdə Azərbaycan iqtisadiyyatına müsbət təsir və inteqrasiya baxımından mühüm məsələ hesab edilir.

Bundan əlavə onu da qeyd edə bilərik ki, yenidənqurma və bərpa işləri başa çatdıqdan sonra Azərbaycan iqtisadiyyatına əhəmiyyətli dərəcədə təsir edəcəyi şübhəsizdir.

Qarabağ və Şərqi Zəngəzurun sosial-iqtisadi təsvirini izah etməzdən əvvəl keçmişə nəzər salmaq daha məqsədə uyğundur. İşğal altında olan zaman, Qarabağda 7 min müəsisə bağlanmışdı. Buraya aiddir, Azərbaycanın taxıl istehsalının təxminən 24%-i, spirtli içki istehsalının 41%-i, kartof istehsdalının 46%-i, ət istehsalının 18%-i, süd istehsalının 34%-i istehsal olunan müəssisələr. Bağlanan istehsal imkanlarının yenidən qurulması, bir çox iqtisadi sektorların, əsasən də kənd təsərrüfat sahəsinin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərəcəkdir. Aparılan ilk hesabatlara görə yeni yaradılan Şərqi Zəngəzur iqtisadi rayonu gələcək illərdə Azərbaycan iqtisadiyyatının haradasa 4%-ni formalaşdıracaqdır.

Bununla yanaşı sözügedən ərazi, Qarabağ böyük hidro enerji potensialına malikdir. Belə ki, Azərbaycanın yerli su ehtiyatlarının 25% -i Qarabağda əmələ gəlir ki, bu da su elektrik stansiyalarının (SES) yaradılması üçün imkanlar yaradır. 44 Günlük Müharibə dövründə Azərbaycan sözügedən su mənbələrindən istifadə edən və erməni işğalçıları tərəfindən dağıdılmış 30 SES üzərində nəzarəti ələ keçirdi. Həmçinin onu da qeyd etmək olar ki, bu elektrik stansiyalarının bir çoxu bərpa edilib, digərlərində isə bərpa işləri davam etdirilir. Bütün bunlarla yanaşı ərazinin coğrafi mövqeyini nəzərə alaraq asanlıqla günəş və külək enerjisinə

malik potensialı olduğunu deyə bilərik. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin Qarabağda ilkin hesablamalara əsasən 4 min meqavatdan çox Günəş və 5 yüz meqavata yaxın külək enerji potensialı olduğu öyrənilmişdir.

Bundan əlavə sözügedən ərazilərdə iqtisadi potensialı artırmaq üçün dayanıqlı nəqliyat infrostrukturunun yaradılması və olması mühümdür. Buna görə də işğaldan azad edilmiş regionların bərpası işlərinin əsas planlarından biri də hərtərəfli nəqliyyat infrostrukturunun hazırlanmasıdır. Artıq aylar əvvəl Qarabağın ilk hava limanı olan Füzuli Beynəlxalq hava limanının inşası bitib. Həmçinin onu da deyə bilərik ki, artıq sınaq uçuşlarının həyata keçirilməasinə çıxdan başlanılmışdır. Bundan əlavə başqa hava limanlarının tikilməsi planları hazırlanıb və hətta iki hava limanının təməli qoyulub ki, sözügedən bu hava limanlarının Zəngilan və Laçında olması planlaşdırılıb. Yuxarıdakı fəsillərdə də qeyd etdiyimiz kimi hava limanları ilə yanaşı ərazinin əlçatanlığını təmin etmək məqsədi ilə azad edilmiş ərazilərdə magistral və yerli avtomobil yolları, dəmir yollarının bərpası və genişləndirilməsiişləri də aparılmaqdadır. Hətta çoxdan bir çox magistral yollar istifadəyə verilmişdir. Sözügedən bu yollar Qarabağın şimal, cənub və şərq istiqamətlərdən olan girişini əhatə edir və regionun nəqliyyat qovşağına çevrilməsi məqsədlənilib.

Təbii ki, əlçatanlıqdan bəhs edən zaman Qarabağ və Şərqi Zəngəzurun iqtisadi bölgüsünü yenidən xatırlamaq lazımdır. Çünki, nəticədə Qarabağ mənfur düşman olan ermənilərin işğalı altında olduğu zamanlardakı kimi münaqişə bolgəsi olaraq yox, regional əməkdaşlıq simvoluna çevrilməsi planlaşdırılıb. Sözügedən ərazinin şimal-cənub və şərq-qərb nəqliyyat dəhlizlərinə çıxışı, həmçinin Zəngəzur dəhlizinin olması rayonların iqtisadi inkişafına ən çox təsir göstərən məsələlərdəndir.

Nəticədə bütün bu işlər potensial turizm növlərinin yaradılması və inkişaf etdirilməsinə gətirib çıxarır. Ərazinin SWOT təhlilini aparan zaman potensial turizm imkanları haqqında xeyli təhlil etmişik. Görülən işlər ərazidə turizmin inkişafına mane olabiləcək təhlükələrin qarşısını almaq üçündür. Burada istənilən turizm növünü inkişaf etdirmək üçün kifayət qədər potensial var lakin başlıca məqəsəd ərazinin dirçəldilməsi olmalıdır. Çünki əlçatanlıq olmayan əraziyə heçbir turist gəlmək istəməz, təhlükəsizliyin təminatı olmayan əraziyə heç bir turist maraq göstərməz və həmçinin məşğulluğun artırılması işlərinin görülməsi də buna əlavədir. Burada dağ turizmi, macəra turizmi üçün əlverişli coğrafi şərait vardır. Sözsüz artıq hərkəsin dilindən düşməyən Kəlbəcərdəki mineral su bulağını və həmçinin oradakı digər təbii resursları turizmin inkişafı üçün dəyərləndirmək mümkündür. Turistlərin daha çox diqqətini çəkmək üçün gələcəkdə sağlamlıq kompleksi yaratmaq ehtimallar daxilindədir. Ən çox isə müharibə turizmini inkişaf etdirmək üçün əla fürsət var. 30 ilə yaxın işğal altında qalan doğma

torpaqlarımızın işğaldan sonrakı dirçəlişini bütün dünyaya nümayiş etdirmək və xarici turistlərik diqqət mərkəzinə çevrilmək mümkündür. O cümlədən yuxarıda qeyd edildiyi kimi Qarabağ və Şərqi Zəngəzurun qədim tarixə malik olması orada mədəni turizmin formalaşmasına imkan yaradır. Daha əvvəl də qeyd edildiyi kimi məşğulluğun inkişafı ilə aqroturizm formalaşması da turizm potensialları daxilindədir. “Kənd təsərrüfatına göstərilən dövlət yardımının səmərəliliyini və effektivliyini artırmaq üçün Kənd Təsərrüfatı Nazirliyinin potensialının artırılması” layihəsi çərçivəsində Azərbaycanda kənd yerlərinin inkişafı və milli aqroturizm sisteminin yaradılmasına dair seminar keçirilib. Sözügedən bu seminarda aqroturizm və kənd yerlərinin inkişafı üzrə görülən işlər, həmçinin Azərbaycanda aqroturizmin inkişaf potensialı barədə məlumat veriblər

Təbii ki, turizmi inkişaf etdirmək üçün yalnız sahib olunan turizm potensiallarından istifadə etməklə deyil həmçinin insan əməyinin nəticəsində formalaşmasından da faydalanmaq məqsədlər arasındadır. Yaxın gələcəkdə, yəni bərpa işləri bitdikdən sonra, yenidənqurma işləri tamamlandıqdan sonra və həmçinin “ağıllı kənd” layihəsi həyata keçdikdən sonra xeyli turizm resursları formalaşacaqdır. Alış-veriş mərkəzləri, əyləncə mərkəzləri, otellər, motellər, restoranlar, birsözlə turistin və həmçinin yerli əhalinin konfortlu yaşamasını təmin etmək üçün lazım olan bütün işlər aparılır və daha da yaxşılaşdırılacaqdır.

Biznes mühitin və ətraf mühitin tam yaxşı aydınlaşması üçün təhlillərdən istifadə etmək lazım gəlir. SWOT analizi müəssisənin həm daxili həmdə xarici təsirlərini qiymətləndirdiyi kimi PEST təhlili aparılan zaman xarici təsirləri analiz etməyə imkan verir. Həmçinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında potensial turizm imkanlarını araşdırmaq üçün pest təhlilindən də istifadə etmək əlverişli üsuldur.

PEST (PESTLE) təhlili siyasi, iqtisadi, sosial-mədəni və texnoloji kompanentləri özündə birləşdirir.

Aşağıda verilmiş cədvəldə Qarabağ və Şərqi zəngəzurda turizmin inkişafının sosial-iqtisadi duruma təsirinin PEST analizi qiymətləndirilmişdir.

Cədvəl 3.1

<table>
<tr><th colspan="5">EHTİMAL SƏVİYYƏSİ</th><th>PEST ANALİZİ</th><th colspan="5">TƏSİR DƏRƏCƏSİ</th></tr>
<tr><th colspan="5">Amilin təsiri (1-5 arası balla)</th><th colspan="6">Dəyişiklik ehtimalı (1-5 arası balla)</th></tr>
<tr><th>1</th><th>2</th><th>3</th><th>4</th><th>5</th><th>1</th><th>2</th><th>3</th><th>4</th><th>5</th><th></th></tr>
<tr><th colspan="11">Siyasi amillər</th></tr>
<tr><td></td><td></td><td>3</td><td></td><td></td><td>Qanunvericilik</td><td></td><td></td><td>3</td><td></td><td></td></tr>
</table>

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | 3 | | | Vergi | | 2 | | | |
| | | | 4 | | Xarici ticaarət qaydaları | 1 | | | | |
| | | | | 5 | Beynəlxalq əlaqələr | | | | | 5 |
| | | | | 5 | Dövlət müdaxiləsi | | 2 | | | |
| | | | | 5 | Azərbaycan-Ermənistan münasibətləri | | | 3 | | |
| **İqtisadi amillər** | | | | | | | | | | |
| | | | | 5 | İqtisadi artım | | | | 4 | |
| | | | 4 | | Milli gəlir səviyyəsi | | | 3 | | |
| | | | | 5 | İnfilyasiya | 1 | | | | |
| | | 3 | | | Enerji daşıyıcıların qiyməti | | | | 4 | |
| **Sosial-mədəni amillər** | | | | | | | | | | |
| | | | | 5 | Milli mədəni dəyərlər | 1 | | | | |
| | | | | | Gəlir bölgüsü | | | | | |
| | | | 4 | | İstehlak meylləri | 1 | | | | |
| | | | 4 | | Yaş və təhsil səviyyəsi | | | 3 | | |
| | | 3 | | | Əhali artımı və orta ömür müddəti | | 2 | | | |
| **Texnoloji amillər** | | | | | | | | | | |
| | | | | 5 | İT inkişaf səviyyəsi | | | 3 | | |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | 5 | Yeni məhsullar | | | | | 5 |
| | | | | 5 | İnfrostruktur | | | | | 5 |
| | | | | 5 | Yeni texnologiyalar | | | | | 5 |
| | | | | 5 | Ekoloji faktorlar | | 2 | | | |

Yuxarıda verilmiş cədvəldə Xaricdən göstərilən təsirlər qiymətləndirilmişdir. Sosial-hüquqi mühit təsiri olan Qanunvericilik mümkün ehtimalla çox müsbət təsir olduğu qeyd edilib. İşğaldan azad olunan torpaqlarda infrostruktur bərpa edildikdən sonra əlbəttə ki, ərazidə qanunvericiliyə uyğun tələblərin yerinə yetirilməsinə daha çox diqqət yetiriləcəkdir. Aydın məsələdir ki, turizmin inkişafına maneə olan təhlükəsizlik faktorunun aradan qaldırılmasına qanunvericiliyin təsiri çoxdur. O cümlədən Vergi, xarici ticarət qaydaları və beynəlxalq əlaqələrin təsiri də öz növbəsində ərazinin sosial-iqtisadi durumuna müsbət yöndə təsir göstərəcəkdir.Son olaraq ən yüksək qiymətləndirilən mühitin texnoloji mühit olduğunu görmək mümkündür. Sözügedən ərazinin dirçəldilməsi, bərpası, uzun illər sonra yenidən infrostrukturun qurulması zamanı işlər görülən zaman texnoloji faktorlara olduqca çox diqqət edilir. “Ağıllı kənd” layihəsinin hazırlanması bunu deməyə ən böyük əsasdır. Dağlıq ərazi olmasına baxmayaraq müasir texnologiyanın inkişafı üçün mümkün mərtəbə bütün tədbirlər görülür. Bu da o deməkdir ki, gələcəkdə Qarabağ və Şərqi Zəngəzur çox danışılan turistik mərkəzlərdən birinə çevrilən zaman son texnoloji yeniliklərin istifadəsi ilə özündən söz etdirəcək. Bütün bunlar turizmin inkişafı ilə öz növbəsində ölkənin sosial-iqtisadi durumuna yaxşı təsir göstərdiyini deməyə əsas verir.

# NƏTİCƏ

- Qarabağ və Şərqi Zəngəzur həm *təbiəti və coğrafi yerləşməsi* ilə həm də *tarixi-mədəniyyəti* ilə Azərbaycanın *ən yüksək turizm potensialına malik* ərazilərindən biridir.
- Dissertasiya işində Qarabağın uzun illər işğal altında olmasının və işğaldan azad edilməsi ilə birliktə yeni yaradılan infrostrukturun ölkə iqtisadiyyatına təsirindən bəhs edilib.
- Sosial-iqtisadi durum haqqında bir çox misallar çəkdik və göründüyü kimi yerli əhalinin oraya qayıtması ən əsas olaraq işsizliyin azalmasına gətirib çıxaracaqdır.
- SWOT təhlilində də qeyd edildiyi kimi demək olar ki, bir çox turistik müəssisələrin əsasən Bakı şəhərində cəmlənməsi probleminə həll yolu tapacaqdır.
- Turistik müəssisələrin Qarabağ və Şərqi Zəngəzurda yaradılması ölkədə daha çox turist qonaqlamasına, nəticə olaraq maddi bazaya, ölkə iqtisadiyyatına müsbət istiqamətdə təsir göstərəcəkdir.
- Turizm sektorunun yaradılması oraya geri qayıdan yerli əhalinin məşğulluğuna müsbət təsir edəcəkdir ki, bu da öz növbəsində işsizliyin azalmasına gətirib çıxarır.
- 
- Turizmin inkişafı ilə əlaqədar olaraq yeni açılacaq olan turistik müəssisələr dövlət və özəl sektor arasındakı münasibətlərə yaxşı təsir edəcəkdir və bu da öz növbəsində sözügedən əraziyə investorları cəlb edir.
- Qeyri-ənənəvi sahələrin yaradılması ənənəvi sahələrin daha yaxşı dəyərləndirilməsinə gətitib çıxarır.
- Son olaraq ikisini əlaqələndirməklə onu demək olar ki, qeyri-ənənəvi üstünlük sahəsi olan turizmin inkişafı sözügedən ərazinin ənənəvi üstünlük sahələrinin yaxşı dəyərləndirilməsi, coğrafi şəraitindən istifadə etməklə və həmçinin təbii resurslardan faydalanmaqla ölkənin rifahını artırmaq mümkündür.
- İşsizlik azalarsa, məşğulluq potensialı artarsa və iqtisadiyyat yaxşı dərəcədə olarsa bu zaman sosial duruma görə ölkə vətəndaşları xoşbəxt və firavan yaşayacaqdır.
- Qarabağ və Şərqi Zəngəzurun turizm potensialınının sosial-iqtisadi duruma təsirini araşdırarkən mümkün olan bütün yolların artıq planlaşdırılıb və hazırlanmağa başladığını gördük.
- Düzdür hələ ki, başlıca məqsəd infrostrukturun bərpası və regiona əlçatanlıq, həmçinin təhlükəsizliyin təmin edilməsi olsa da düşünürəm ən qısa müddətdə turizm kompleksi yaradılmalıdır.

- Bununla yanaşı potensial olmayan turizm növlərini inkişaf etdirmək üçün bəzi işlər görülməsini təklif edərdim.
- İllər keçdikcə dövrün dəyişdiyini nəzərə alaraq orada virtual turizm, film turizmi və ornitoloji turizm növlərinin yaradılması üçün işlər aparıla bilər.
- Marketinq sahəsindən baxsaq əgər Virtual turizmin mahiyyətini daha aydın başa düşə bilərik.
- Təbii ki, müharibə yolu ilə doğma torpaqlarımızın geri alınması diqqət çəkdi və indi bu diqqəti dayanıqlı saxlamaq üçün Virtual turizmdən istifadə edə bilərik.
- Düşünürəm ki, müharibədən az-çox xəbərdar olan hərkəs sözügedən əraziyə daha da maraq göstərir və Virtual turizmlə bu marağın təminatı mümkün olacaqdır.
- Regionun tarixi mahiyyəti də bunun üçün fürsət yaradır.

**TƏKLİFLƏR**

- Qarabağ və Şərqi Zəngəzur rayonlarında ənənəvi və qeyri-ənənəvi sahələrin inkişaf etdirilməsinin xüsusi yeri vardır.
- Ənənəvi üstünlük sahələrini mümkün dərəcədə dəyərləndirməklə ölkə iqtisadiyyatının artırılması mümkündür.

## ƏDƏBİYYAT SİYAHISI


***Azərbaycan dilində***

1. “Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə “Bakı şəhəri, 10 iyul 2021-ci il.
2. Bayramov, İ.M. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı: "Elm" nəşriyyatı
3. Musayev, İ. "Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917–1921-ci illər)". Monoqrafiya. Bakı, 1998, 284 s.
4. Dosent B.ƏşBilalov və Dosent Ç.G,Gülalıyev redaktəsi ilə Turizmin Əsasları. BAKI-2015
5. Dərgahov V. S. Rekreasiya - Turizm ehtiyatlan. Bakı, 2008,
6. Ə.Q.Əlirzayev- Turizm iqtisadiyyatı və idarəedilməsi Bakı-201
7. M.K.Abadov- Turizm məhsulunun tərtibi texnologiyasi
8. N. Qafarov – Turizmin iqtisadiyyatı

***Türk dilində***

9. Ahipaşaoğlu, S. Sürdürülebiler Kırsal turizm / S.Ahipaşaoğlu, E.Çeltek. – İstanbul: –2006. -171 s.

***Rus dilində***

10. Е. Л. Драчева, Ю. В. Забасв, Д. К. Исмаев и др. Международный туризм. Кнорус, 2005, 576 с.
11. Долженко Г. П. Основы туризма. Учебное пособие. Москва, «Март», 2008, 320 с.

***İngilis dilində***

12. Tarasionak, A. 2014: Strategic planning of tourist destinations new approach towards territorial organization of tourism in Belarus/ geografions metrastais. Vol.47.pp. 25-36. URL: http //www.ganitostyrinal/lt//lt/publications. listing/ category.1256
13. Tourism in the New Europe: The Challenges and Opportunities of EU Enlargement, Derek R. Hall, Melanie K. Smith, Barbara Marciszewska - Travel - 2006 - 320 pages;
14. Milne, S. Tourism, economic development and the global–local nexus: theory embracing complexity // S.Milne, I.Ateljevic. Tourism Geographies 3(4), 2001, s.369–393;
15. UNWTO Tourism Highlights, 2019 Edition;
16. The Economics of Recreation, Leisure and Tourism, Fourth Edition

***İnternet resursları:***

17. http://www.eco.gov.az – Azərbaycan Respublikası Ekologiya və Təbii sərvətlər Nazirliyi rəsmi saytı
18. https://www.stat.gov.az- Azərbaycan Dövlət Statistika komitəsinin rəsmi saytı

19. http://www.e-qanun.az- Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
20. Hüquqi aktların vahid elektron bazası rəsmi saytı
21. http://www.taxes.gov.az- Azərbaycan Respublikasının
22. İqtisadiyyat Nazirliyi Yanında Dövlət Vergi Xidməti rəsmi saytı
23. http://www.economy.gov.az- Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin rəsmi saytı
24. http://gsaz.az- Azərbaycan Coğrafiya Cəmiyyəti rəsmi saytı
25. https://azertag.az- Azərbaycan Dövlət İnformasiya agentliyi rəsmi saytı
26. http://www.aayda.gov.az- Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi rəsmi saytı
27. https://president.az- Azərbaycan Respublikasının Prezidentinin rəsmi saytı

# ƏLAVƏLƏR




*Şəkil Qarabağ*




*Şəkil 2.1.1 Zəngəzur dəhlizinin planı*




*Şəkil 2.4.2  Füzuli areoportu*



*Şəkil 2.4.2 Xocalı Havalimanı*




Şəkil Kəlbəcər rayonu



Şəkil Kəlbəcər rayonu isti su bulağı